Xalqın qəzeti!

# Xalq qəzeti

№ 244 (30938) 18 noyabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Mərkəzi Asiya və Azərbaycan vahid geosiyasi və geoiqtisadi regiondur

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

### *Daşkənd Beynəlxalq Hava Limanında qarşılanma*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün noyabrın 15-də Özbəkistana səfərə gəlib.**

Daşkənd Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.

## Prezident İlham Əliyev Milli Dirçəliş Günü münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 17 Noyabr Milli Dirçəliş Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.**

## Birinci vitse-prezident Mehriban Əliyevanın Milli Dirçəliş Günü ilə bağlı paylaşımı




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 17 Noyabr Milli Dirçəliş Günü ilə bağlı rəsmi instaqram səhifəsində paylaşım edib.**

## Postmüharibə dövrünün ən böyük büdcəsi



Səhifə ⇨ 5

## Mərkəzi Asiya+Azərbaycan



Səhifə ⇨ 5

## "907-ci düzəliş"in ləğv edilməməsi Konqresdə ətalət göstəricisidir



Səhifə ⇨ 8

## Türküstandan dünyaya açılan sivil pəncərə



Səhifə ⇨ 6

## İrəvana strateji hədəfli səfər

### *"Tarmp marşrutu" diplomatiyası işə düşür*

**ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavini Elison Huker Ermənistana səfər edib. Birləşmiş Ştatların İrəvandakı səfirliyinin yaydığı məlumatda bildirilib ki, səfər ABŞ Prezidentinin regional sülh və təhlükəsizliklə bağlı baxışlarını təşviq və təbliğ etmək məqsədi daşıyır.**

Səfər çərçivəsində ilk görüş Hayastanın xarici işlər naziri Ararat Mirzoyanla keçirilib. Ermənistan XİN-in yaydığı məlumata görə, tərəflər qarşılıqlı maraq doğuran sahələrdə, o cümlədən enerji, infrastruktur, süni intellekt və investisiyaların stimullaşdırılması sahələrində əməkdaşlığın dərinləşdirilməsinə hazır olduqlarını vurğulayıblar. A.Mirzoyan ABŞ-ın davamlı sülhün möhkəmləndirilməsində daimi iştirakını məmnunluqla qeyd edib. Tərəflərin TRIPP layihəsini də müzakirə etdikləri bildirilir.

*(ardı 7-ci səhifədə)*

## Azərbaycan Mərkəzi Asiyanın Avropaya körpüsüdür

### *Son 3 ildə Orta Dəhliz üzrə daşımalar 90 faiz artıb*

**Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü baş tutdu. Bu toplantı regional əməkdaşlığın yeni mərhələsinə qapı açdı və Azərbaycanla Mərkəzi Asiya ölkələri arasındakı əlaqələrə əlavə dinamika verdi.**

*(ardı 10-cu səhifədə)*



## Qış qapını alanda gec olar



Səhifə ⇨ 11

# Azərbaycan və Özbəkistan prezidentlərinin təkbətək görüşü





**Noyabrın 15-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olub.**

Görüşdə Azərbaycanla Özbəkistan arasında müttəfiqliyə və strateji tərəfdaşlığa əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi bildirildi.

Prezident İlham Əliyevin Özbəkistana, Prezident Şavkat Mirziyoyevin isə ölkəmizə mütəmadi səfərlərinin əlaqələrimizin inkişafında rolu vurğulandı.

Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın son dövrlərdə daha da genişləndiyi məmnunluqla qeyd edilərək, bu xüsusda dövlətimizin başçısının Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirakının önəminə toxunuldu.

Söhbət zamanı dövlət başçıları ölkələrimiz arasında əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar.

# Prezident İlham Əliyev Daşkənddə İslam Sivilizasiyası Mərkəzində











**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olub.**

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Qərarı ilə təsis edilən İslam Sivilizasiyası Mərkəzinin təməli 2018-ci ildə qoyulub. Layihənin həyata keçirilməsində yüzlərlə alim, ekspert, həmçinin dini və ictimai xadim iştirak edib. Səmərqənd şəhərinin qədim memarlıq abidələri üslubunda hazırlanmış mərkəz 10 hektardan çox ərazini əhatə edir. Binada 65 metr hündürlüyündə günbəz inşa olunub. Mərkəzə tədqiqat, nadir əlyazmaların milli reyestrinin aparılması, əlyazmalar fondu, kitabxana və arxivlər, nəşriyyat şöbələri və digər şöbələr daxildir.

Buradakı sərgi qalereyasında müxtəlif tarixi dövrlərə aid əşyalar və əsərlər təqdim olunur, əcdadların yaradıcılıq potensialı müasir texnologiyalar və rəqəmsal cihazların köməyi ilə nümayiş etdirilir.

Mərkəzin binasında, həmçinin 100 min əlyazma və bir milyondan çox kitab daxil olmaqla, nəhəng kitabxana və İslam Sivilizasiyası Mərkəzinin elmi şöbəsi, beynəlxalq təşkilatların ofisləri yerləşir. Mərkəzin muzey ekspozisiyası “İslamdan əvvəl sivilizasiyalar”, “Birinci İntibah dövrü”, “İkinci İntibah dövrü”, “XX əsrdə Özbəkistan”, “Yeni Özbəkistan – Üçüncü İntibahın əsası” və “Müqəddəs Quran” adlı zallardan ibarətdir.

Ekspozisiyanın mərkəzində yerləşən “Müqəddəs Quran” zalında müsəlman dünyasının mənəvi incisi – “Osman Quranı” saxlanılır. Zalda Samanilər, Qaraxanlılar, Xarəzmşahlar, Teymurilər və digər sülalələr dövründə yazılmış “Quran”ın əlyazma nüsxələri, həmçinin onların özbək dilinə tərcümələri təqdim olunur. Mərkəzdə dini-maarifləndirici və innovativ media layihələri reallaşdırılıb.

Holoqrafiya, qurğular və proyeksiya texnologiyalarının köməyi ilə “Zaman divarı” nəhəng multimedia panelində müxtəlif dövrlərin ən mühüm tarixi mərhələləri, böyük kəşflər və görkəmli şəxsiyyətlər barədə məlumat verilir. Bu Mərkəz UNESCO və ICESCO da daxil olmaqla, bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurub.

# Azərbaycan lideri “Gələcəyin irsi” mükafatının təqdimatında

**Noyabrın 15-də Daşkənddə "Gələcəyin İrsi" Beynəlxalq Mükafatının təntənəli təqdimat mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Qeyd edək ki, Azərbaycandan bu mükafata Xalq artisti Alim Qasımov layiq görülüb.









# Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü

## *Prezident İlham Əliyev məclisdə çıxış edib*










**Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konqres Mərkəzinə gəldi.**

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dövlətimizin başçısını qarşıladı.

Tədbirin iştirakçıları birgə foto çəkdirdilər.

Görüşdə çıxış edən Özbəkistan Respublikasının Prezidenti **Şavkat Mirziyoyev** qardaş xalqlar üçün tarixi bir gün yaşandığını vurğulayaraq dedi: "Biz Azərbaycan Respublikasının tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərarlar qəbul edirik. Biz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quracağıq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açacağıq. Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək. Bu vacib qərarı qəbul etdiklərinə görə bütün həmkarlarıma səmimi-qəlbdən təşəkkürümü bildirmək və Məşvərət görüşlərinə tamhüquqlu iştirakçı qismində qoşulması münasibətilə İlham Heydər oğlunu təbrik etmək istəyirəm".

Şavkat Mirziyoyev bildirdi ki, həmrəyliyin gücləndirilməsi və birgə inkişafa can atmaq Mərkəzi Asiyanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə və qlobal rolunun artırılmasına töhfə verir. "Mərkəzi Asiya +" formatlarının qarşılıqlı fəaliyyəti güclənib. Region nüfuzlu beynəlxalq platformalarda vahid mövqedən çıxış edir. Şübhəsiz ki, Azərbaycanın bizim formata qoşulması ilə regionumuzun qlobal miqyasda səsi daha əhəmiyyətli olacaq", - deyə Özbəkistan Prezidenti vurğuladı.

"Bu gün Azərbaycanın tamhüquqlu iştirakçı qismində bizim formata qoşulmasına dair tarixi qərar qəbul etdik". Bu fikri isə Qazaxıstan Respublikasının Prezidenti **Kasım-Jomart Tokayev** söylədi. O, Azərbaycanın bu yeni formatda regional əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi.

Qırğız Respublikasının Prezidenti **Sadır Japarov** da ölkəsinin Azərbaycanın tamhüquqlu üzv qismində Məşvərət görüşləri formatına qoşulması təşəbbüsünü dəstəklədiyini vurğulayaraq qeyd etdi: "Qardaş Azərbaycanın iştirakı ilə formatımızın genişləndirilməsi Mərkəzi Asiyanın qarşısında xüsusilə beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq. Bu gün əminliklə deyə bilərik ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinin formatı baş tutub. Bu format öz səmərəliliyini sübut edib, təkcə regionumuzda mövcud problemlərin müzakirə olunduğu deyil, həm də yeni təşəbbüslərin və təkliflərin fəal şəkildə irəli sürüldüyü real, özünəməxsus yeganə platformaya çevrilib".

"Bu gün regionun yeni nəqliyyat arteriyasının meydana çıxmasının şahidi oluruq", - deyən Sadır Japarov əlavə etdi ki, strateji cəhətdən mühüm Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun tikintisi logistikanı birləşdirməklə yanaşı, həm də formatını genişləndirəcək, ölkələrimizə Asiya və Avropanın çox böyük bazarlarına ən qısa yolu açacaq. Bu kontekstdə Zəngəzur dəhlizinin tikintisi layihəsi Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun məntiqi və strateji davamı kimi görünür.

Tacikistan Respublikasının Prezidenti **Emoməli Rəhmon** da ölkəmizi Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edərək dedi: "Hörmətli İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edirəm. Sevindirici haldır ki, məkanımız beynəlxalq və regional proseslərin mühüm iştirakçısının timsalında öz əhəmiyyətini inamla artırır. Bu, balanslaşdırılıb və region ölkələrinin artan maraqlarının inkişafına səyləri nümayiş etdirir".

Tədbirdə çıxış edən Türkmənistan Prezidenti **Sərdar Berdiməhəmmədov** dövlətimizin başçısına Azərbaycanın tamhüquqlu iştirakçı qismində Məşvərət görüşlərinə qoşulması münasibətilə təbriklərini çatdırdı.

Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev** dedi: "İndi isə icazənizlə, söz Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevə verilir. Buyurun, İlham Heydər oğlu".

Prezident İlham Əliyev tədbirdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Şavkat Miromonoviç.

Hörmətli dövlət başçıları.

Əziz dostlar.

İlk növbədə Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyevə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşünə dəvətə görə dərin minnətdarlığımı bildirirəm. Özbəkistan tərəfinə ənənəvi qonaqpərvərliyinə görə təşəkkür edirəm.

Özbəkistan qardaşım Şavkat Miromonoviç Mirziyoyevin müdrik rəhbərliyi ilə inkişaf və quruculuq yolunda inamla irəliləyir. Onun güclü beynəlxalq nüfuzu, səmərəli iqtisadi islahatları, sənaye, nəqliyyat və kənd təsərrüfatı sahələrində həyata keçirdiyi irimiqyaslı layihələr Özbəkistanı regionda lider mövqeyə yüksəldib. Prezidentin gündəlik qayğısı sayəsində Özbəkistan dünyanın aparıcı idman dövlətləri sırasında yer alıb. Bu yaxınlarda keçirilən Yay Olimpiya Oyunları bunu əyani şəkildə nümayiş etdirdi. Şavkat Miromonoviç müdrik dövlət xadimi olmaqla yanaşı, həm də Özbəkistan-Azərbaycan əlaqələrinin inkişafına mühüm töhfə vermiş insandır. O, konkret fəaliyyətinə, xalqımıza xoş münasibətinə görə Azərbaycanda sevilir və hörmətlə qarşılanır. Uzaqgörən siyasi xadim Şavkat Miromonoviç Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında daha sıx əməkdaşlığa ehtiyac olduğunu aydın görür. Şavkat Miromonoviç, hər şeyə görə Sizə bir daha sağ olun deyirəm.

Dünən biz İslam Sivilizasiyası Mərkəzini ziyarət etdik. Özbəkistan Prezidentinin təşəbbüsü ilə yaradılan bu Mərkəz Özbəkistan Prezidentinin ölkənin zəngin mədəni irsinə sadiqliyinin daha bir göstəricisidir. Bəzi ölkələrdə dinimizə qarşı hücumların artdığı bir şəraitdə islamofobiya sistemli xarakter alır. İslam Sivilizasiyası Mərkəzinin açılması bütün dünyaya göstərir ki, İslam quruculuq, dözümlülük, dostluq və qardaşlıq dinidir. İslam aləminin görkəmli nümayəndələri dünya elminə, mədəniyyətinə böyük töhfə veriblər və İslam Sivilizasiyası Mərkəzi bunu əyani şəkildə nümayiş etdirir. Əminəm ki, möhtəşəm və nadir ekspozisiyaları olan Daşkənddəki İslam Sivilizasiyası Mərkəzi bütün İslam dünyası üçün qürur mənbəyinə çevriləcək.

Hörmətli həmkarlar, Azərbaycan artıq üçüncü dəfədir ki, Mərkəzi Asiya sammitlərində iştirak edir. 2023-cü ildə Tacikistan Prezidenti hörmətli Emoməli Şaripoviç Rəhmonun, 2024-cü ildə isə Qazaxıstan Prezidenti hörmətli Kasım-Jomart Kemeleviç Tokayevin dəvəti ilə sammitlərin işində iştirak etdim.

Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır. Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik.

Son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər müntəzəm xarakter alıb. Son üç ildə mən Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olmuşam. Bu müddət ərzində həmkarlarım ölkəmizə 23 dəfə səfər ediblər.

Azərbaycan Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalayıb. Mütəmadi olaraq keçirilən mədəniyyət günləri, sərgilər, konsertlər xalqlarımızı daha da yaxınlaşdırır, bizim yaxınlığımızı, dostluğumuza verdiyimiz dəyəri nümayiş etdirir.

Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur.




Biz müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir, bir-birimizin təşəbbüslərini dəstəkləyir, qlobal və regional problemlərin həllində ümumi yanaşmalar işləyib hazırlayırıq.

Ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi üzrə genişmiqyaslı işlərə başlayıb. Biz bu məsələdə Mərkəzi Asiya ölkələrinin Azərbaycana göstərdiyi qardaş dəstəyini yüksək qiymətləndiririk.

Xüsusilə qeyd edək ki, artıq Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəb və Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzi, Ağdamda isə Manas məktəbi fəaliyyət göstərir. Bu, özbək, qazax və qırğız qardaşlarımızın hədiyyələridir.

Bu ilin oktyabrında Füzulidə Türkmənistanın qardaşlıq dəstəyinin rəmzinə çevriləcək məscidin təməli qoyulub. Bütün bunlar qardaşlığımızın və həmrəyliyimizin sübutu kimi qədirbilən Azərbaycan xalqının yaddaşında qalacaqdır.

Bu gün Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür.

Orta Dəhlizin inkişafı ölkələrimiz üçün strateji əhəmiyyət kəsb edir. Nəqliyyat və logistika infrastrukturunun müasirləşdirilməsi, gömrük prosedurlarının sinxronlaşdırılması və rəqəmsallaşdırılması üzrə birgə səylər yükdaşımaların həcminin artırılması, iqtisadi dayanıqlılığın gücləndirilməsi və beynəlxalq bazarlarda əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar açır.

Son üç ildə Orta Dəhliz üzrə Azərbaycandan keçən yükdaşımalar 90 faiz artıb. Dəhliz boyu gediş vaxtları xeyli azaldılıb.

Yaxın illərdə buraxılış qabiliyyəti ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, doqquz beynəlxalq hava limanı, regionun ən böyük yük aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevirmişdir.

Əminəm ki, Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmalar beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə töhfə verəcək. Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta Dəhlizin əsas arteriyasına çevriləcək. Həmçinin Zəngəzur dəhlizinin bir hissəsi olacaq avtomagistralın tikintisi də başa çatmaq üzrədir.

Rəqəmsal rabitə sahəsində əməkdaşlığımız böyük potensiala malikdir. "Rəqəmsal İpək Yolu" layihəsinə Xəzər dənizinin dibi ilə fiber-optik kabel şəbəkəsinin çəkilməsi planları daxildir.

Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi qlobal bazarlara elektrik enerjisinin birgə ixracı üçün böyük perspektivlər açır.

Sonda Azərbaycanın Mərkəzi Asiya ölkələrinin əməkdaşlıq formatına qoşulması ilə bağlı qərara görə hörmətli həmkarlarıma təşəkkür etmək istəyirəm. Bu qərar münasibətlərimizin dostluq və qardaşlıq xarakterini bir daha təsdiqləyir, həmçinin geniş coğrafi məkanda əməkdaşlığın və qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə xidmət edəcəkdir. Eyni zamanda, bizim formatımızda sədrliyi qəbul etdiyinə görə qardaş Türkmənistanı təbrik etmək istəyirəm.

Diqqətinizə görə sağ olun.

*

Qardaş Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinə qatılması münasibətilə dövlətimizin başçısını bir daha təbrik edən Prezident **Şavkat Mirziyoyev** bildirdi: "Bu, həqiqətən də bizim üçün böyük tarixi hadisədir. Özbək xalqı və Özbəkistanda aparılan islahatlar barədə dediyiniz sözlərə görə bir daha Sizə təşəkkür edirik. Çox sağ olun ki, Siz İslam sivilizasiyası barədə söz açdınız. Həqiqətən də Siz dediyiniz kimi, bu, bizim daha da təşviq etməli olduğumuz amildir. Bu Mərkəz bizim ümumi nailiyyətimizdir. Düşünürəm ki, bu, gələcəkdə bizim müvafiq istiqamətdə birgə tədbirlər görməyimizə kömək olacaq. Bir daha Sizə təşəkkür edirəm. Dolğun çıxış üçün və bizim ümumi əməkdaşlığımızın genişlənməsi ilə bağlı təşəbbüslərinizə görə Sizə minnətdarlığımı bildirirəm".

*

Daha sonra BMT-nin Baş katibi Antonio Quterreşin görüş iştirakçılarına məktubu oxundu.

Tədbirdə Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakı haqqında qəbul edilən Qərar və digər sənədlər imzalandı.

# Prezident İlham Əliyevin Özbəkistana səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına səfəri noyabrın 16-da başa çatıb.**

Daşkənd Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Özbəkistan Prezidenti Şavkat Mirziyoyev yola saldı.

# Daşkənddə Mərkəzi Asiya və Azərbaycan dövlət başçılarının şərəfinə atəşfəşanlıq



**Noyabrın 15-də Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak edən dövlət başçılarının şərəfinə atəşfəşanlıq olub.**

*AZƏRTAC*

# Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları!**

Sizi Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransında Bakı şəhərində səmimi-qəlbdən salamlayıram.

Telekommunikasiya sahəsində mötəbər beynəlxalq tədbir – Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə olaraq Azərbaycanda keçirilməsi əlamətdar hadisədir. Bu, Azərbaycan ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında mövcud olan uzunmüddətli səmərəli əməkdaşlıq ənənələrinin təzahürü, eyni zamanda ölkəmizin rəqəmsal inkişaf sahəsində qlobal müstəvidə aparıcı mövqeyə malik olmasının bariz göstəricisidir.

Telekommunikasiya və informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən tənzimləyici orqanları, beynəlxalq təşkilatları və bütün maraqlı tərəfləri bir araya gətirən bu konfransın məqsədi strategiya və tənzimləmə mexanizmlərini təkmilləşdirmək, inklüziv və dayanıqlı rəqəmsal transformasiyanın təşviqi istiqamətində müzakirələr aparmaq, rəqəmsal əlçatanlığı artırmaqdır.

Dünya artıq yeni bir rəqəmsal dövrə qədəm qoymuşdur. Hazırda texnoloji inkişaf və rəqəmsallaşma ölkənin inkişaf səviyyəsini şərtləndirən, bəşəriyyətin gələcəyini müəyyənləşdirən əsas amillərdən birinə çevrilmişdir. Təəssüf ki, rəqəmsal dünyanın bu qədər inkişaf etdiyi bir dövrdə iki milyarddan çox insan hələ də internetə çıxış imkanından məhrumdur. Müasir dövrdə heç bir ölkə və heç bir insan rəqəmsal gələcəkdən kənarda qalmamalıdır. Bunun təmin olunması bizim ortaq məsuliyyətimizdir.

Kommunikasiya texnologiyaları sahəsi Azərbaycanın qeyri-neft iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmiş, son dörd ildə sabit artım ritmi qazanmışdır. Bütün bunlar süni intellektin inkişaf etdirilməsi, kiberhücumların qarşısının alınması və rəqəmsal infrastrukturun genişləndirilməsi sahəsində görülən ardıcıl tədbirlərlə müşayiət olunur.

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyası Azərbaycanın milli təhlükəsizlik arxitekturasının əsasını təşkil edir. Bundan əlavə “Azərbaycan 2030: Sosial-iqtisadi inkişaf üzrə milli prioritetlər” sənədinə uyğun olaraq rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi ölkəmizin əsas strateji istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Biz bu istiqamətdə dövlət və özəl sektorları arasında əməkdaşlığa xüsusi önəm veririk.

Azərbaycan bu gün 100 faizlik genişzolaqlı internet əhatə dairəsi ilə regionda lider mövqe tutur. Rəqəmsal şəxsiyyət sahəsində də ölkəmiz qabaqcıl ölkələr sırasındadır. “SİMA” adlı biometrik rəqəmsal imza sistemi artıq 3,6 milyon istifadəçi tərəfindən qəbul edilmiş, 80-dən çox dövlət informasiya sisteminə inteqrasiya olunmuşdur. Təsadüfi deyil ki, Azərbaycan BMT-nin "Elektron Hökumətin İnkişafı İndeksi"nin ən yüksək kateqoriyası qrupuna daxil olmuşdur. Məqsədimiz növbəti beş il ərzində bu indeksdə ilk 40 ölkə sırasında yer almaqdır.

Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransına ev sahibliyi edən Bakı bu gün yalnız qlobal telekommunikasiya mərkəzi deyil, həm də beynəlxalq rəqəmsal əməkdaşlıq məkanıdır. Konfrans çərçivəsində eyni zamanda Bakı şəhərində BTİ-nin Regional Akselerasiya Mərkəzinin açılması planlaşdırılır. BTİ-nin qlobal innovasiya şəbəkəsinin bir hissəsi olacaq bu Mərkəz region üçün innovasiya və sahibkarlıq sahəsində aparıcı platformaya çevriləcəkdir.

Əminəm ki, konfrans çərçivəsində aparılacaq müzakirələr, qəbul olunacaq qərarlar, yaradılacaq tərəfdaşlıqlar inklüziv, təhlükəsiz və dayanıqlı rəqəmsal gələcəyin qurulmasına xidmət edəcək, milyardlarla insanın həyatına öz təsirini göstərəcəkdir.

Sizə bir daha ən xoş arzularımı yetirir, məhsuldar müzakirələr, tədbirin işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 noyabr 2025-ci il**

# “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnsan Resursları və Əmirlikləşmə Nazirliyi arasında işçi qüvvəsinin mütəşəkkil qaydada müvəqqəti işə cəlb olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il sentyabrın 16-da Şuşa şəhərində imzalanmış “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnsan Resursları və Əmirlikləşmə Nazirliyi arasında işçi qüvvəsinin mütəşəkkil qaydada müvəqqəti işə cəlb olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Ərəb Əmirlikləri Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 noyabr 2025-ci il**

# “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi”nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Nümunəvi Əsasnamənin tələbləri nəzərə alınmaqla, mərkəzi icra hakimiyyəti orqanlarının əsasnamələrinin təkmilləşdirilməsinə dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 363 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 80 (Cild I); 2025, № 2, maddə 129) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 noyabr 2025-ci il**

# Fələstin Dövlətinin Prezidenti Zati-aliləri cənab Mahmud Abbasa

**Hörmətli cənab Prezident!**

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Fələstin xalqlarını dostluq və qardaşlıq əlaqələri birləşdirir. Azərbaycan Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirmiş, bu məsələnin paytaxtı Şərqi Qüds olan müstəqil Fələstin Dövlətinin yaradılması və BMT-nin müvafiq qətnamə və qərarlarına uyğun olaraq iki dövlət prinsipi əsasında həllini dəstəkləyir. Şarm əl-Şeyxdə keçirilən Yaxın Şərq Sülh Sammitinin nəticələrinin regionda sülhə, sabitliyə, əmin-amanlığa töhfə verəcəyinə ümidimi ifadə edirəm.

Biz bundan sonra da Fələstinə lazımi humanitar yardım göstərməyə davam edəcəyik. İnanıram ki, Azərbaycan ilə Fələstin arasında xoş ənənələr üzərində qurulmuş dostluq əlaqələri və əməkdaşlıq gələcəkdə də uğurla inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Fələstin xalqına sülh və əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

# Diplomatlar üçün WUF13 məlumatlandırması

**Noyabrın 17-də Bakının 2026-cı ildə ev sahibliyi edəcəyi Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ilə əlaqədar Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik korpus nümayəndələri üçün hibrid formatda məlumat sessiyası keçirilib.**




Məqsəd WUF13 tədbirinin mahiyyəti və hazırlıq prosesi, forum çərçivəsində planlaşdırılan tədbirlər, tematik dialoqlar və fəaliyyətlər, eləcə də iştirak və əməkdaşlıq imkanları barədə iştirakçılara məlumat verməkdir.

2026-cı il mayın 17-dən 22-dək “Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri” mövzusunda keçiriləcək foruma dair məlumatlandırma sessiyasında Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyev, WUF13 Azərbaycan Əməliyyat Şirkətinin icraçı direktoru Adil Məmmədov, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Xarici əlaqələr, strategiya, bilik və innovasiya departamentinin direktoru Edlam Yemeru çıxış edib və “UN-Habitat”ın icraçı direktoru Anaklaudia Rossbaxın videomüraciəti təqdim olunub.

Diplomatların diqqətinə çatdırılıb ki, forumun yüksək səviyyədə təşkili məqsədilə bütün əsas əməliyyat istiqamətləri üzrə hazırlıq və koordinasiya işləri ardıcıl şəkildə həyata keçirilir. WUF13 Azərbaycan Əməliyyat Şirkətinin icraçı direktoru Adil Məmmədov forumun keçiriləcəyi Bakı Olimpiya Stadionunda müxtəlif funksional zonaların müəyyən edilməsi, müvafiq infrastrukturun qurulması və tədbirin bütün aspektlərinin yüksək səviyyədə təşkili istiqamətində aparılan işlər barədə ətraflı məlumat verib.

Xatırladaq ki, hibrid formatda təşkil olunan interaktiv sessiyada Azərbaycanda fəaliyyət göstərən diplomatik missiyaların rəhbər nümayəndələri, ümumilikdə 100-ə yaxın diplomat iştirak edib.

***XQ***

# Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının prioritetləri



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri, səfir Mariyana Kuyundiç ilə görüşüb.**

Görüşdə Azərbaycanın əsas xarici ticarət tərəfdaşlarından olan Aİ ilə iqtisadi-ticarət münasibətlərin genişləndiyi vurğulanıb. Qeyd edilib ki, Avropa İttifaqı ilə ölkəmiz arasında enerji, investisiyalar və digər istiqamətlər üzrə tərəfdaşlıq regional inkişafa töhfə verir.

Tərəflər Azərbaycan-Aİ əməkdaşlığının prioritetlərini müzakirə ediblər. Ölkəmizin strateji inkişaf hədəfləri və Aİ-nin Azərbaycan üçün 2024-cü il üzrə Maliyyələşdirmə Sazişi barədə fikir mübadiləsi aparılıb. Müzakirələr zamanı birgə fəaliyyət çərçivəsində ticarət, enerji, nəqliyyat, infrastruktur və rəqəmsallaşma üzrə təşəbbüslər, əməkdaşlığın şaxələndirilməsi imkanları qeyd olunub.

***XQ***



# Mərkəzi Asiya+Azərbaycan

## *Türküstanda strateji əhəmiyyətli tarixi qərar*

**2025-ci il noyabrın 16-da Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə Azərbaycanın tamhüquqlu üzv kimi qoşulması qərarı Avrasiya məkanında regional dinamikanın strukturlaşdırılması baxımından dönüş nöqtəsi sayıla bilər. Yüz illər ərzində Azərbaycan və Mərkəzi Asiya ayrı-ayrı geosiyasi orbitlərdə hərəkət etmiş, ayrı diplomatik platformalarda məhdud təmas qurmuşdular. Tarixi qərar göstərir ki, Azərbaycan Mərkəzi Asiyanın geosiyasi və iqtisadi proseslərində aktiv subyektə çevrilir.**

Strateji məqam institusional, iqtisadi və təhlükəsizlik sahələrində yeni mərkəzlərin yaranmasında özünü göstərir. Azərbaycan Mərkəzi Asiya ilə yeni dialoq məkanına daxil olur və bununla da regional güc balansında hərəkətlilik yaradır. Əslində, bu, Avrasiya geosiyasətində ciddi çevrilişlərə yol açan bir addımdır: Orta Dəhlizdəki nəqliyyat arteriyalarının strateji rolunun möhkəmlənməsi, regional enerji və logistika siyasətinin koordinasiyalı şəkildə aparılması və türk dünyası daxilində siyasi



və mədəni inteqrasiyanın yeni mərhələyə qədəm qoyması. Azərbaycanın bu platformaya daxil olması həm də beynəlxalq oyunçuların diqqətini yeni reallığa yönəldir. Regional siyasət artıq balanslaşdırılmış və rəqabətli bir mühitə çevrilir. Reallıq onu göstərir ki, Mərkəzi Asiya artıq 5 ölkədən ibarət deyil, Azərbaycan da əməkdaşlıq və məşvərətçi formatın tamhüquqlu üzvü kimi bu regionun tərkib hissəsidir.

Bəs Mərkəzi Asiya liderləri niyə məhz 2025-ci ildə Azərbaycanın formatda tamhüquqlu iştirakını zəruri saydılar? Təbii ki, qərarın indi qəbulu beynəlxalq sistemdə baş verən fundamental dəyişikliklərlə sıx bağlıdır. Mərkəzi Asiya artıq iki əsas təzyiq xəttinin kəsişdiyi strateji nöqtədə yerləşir. Bir tərəfdən, ABŞ–Çin rəqabəti qlobal ticarət və tranzit marşrutlarının dinamikasını dəyişir. ABŞ və Çin arasındakı qarşıdurma ticarət bloklarını, logistika zəncirlərini və investisiya axınlarını yenidən formalaşdırır; ölkələr artıq “status-kvo”ya əsaslanaraq hərəkət edə bilmirlər. Çin, xüsusilə “Bir kəmər, bir yol” təşəbbüsü vasitəsilə Avropa ilə ticarət əlaqələrini sürətləndirmək üçün Mərkəzi Asiya üzərindən yeni dəhlizlər inşa edir. ABŞ isə qlobal ticarət və enerji marşrutlarını şaxələndirməyə çalışaraq Çin təsirini balanslaşdırmaq istəyir. Orta Dəhliz kimi alternativ yükdaşımalar və logistika dəhlizlərinə tələbat artdıqca, region özünü daha çox subyekt kimi göstərmək və strateji təşəbbüslərə imza atmaq məcburiyyətindədir.

Digər tərəfdən, Rusiya–Qərb qarşıdurması Mərkəzi Asiyanın həm siyasi, həm də iqtisadi olaraq daha çox özünütənzimləməyə və kollektiv mövqelər formalaşdırmağa yönəlməsini zəruri edir. Bu qarşıdurma Mərkəzi Asiyanı bir tərəfdən Rusiya ilə tarixi, enerji və təhlükəsizlik bağlılıqları, digər tərəfdən isə Qərb ilə iqtisadi, texnoloji və diplomatik əlaqələri arasında balans yaratmağa məcbur edir.

* * *

Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə qoşulması həm də yeni, vahid geosiyasi və geoiqtisadi məkanın formalaşmasının təməlini qoyur. Prezident İlham Əliyevin çıxışında səsləndirdiyi tezis – “Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu artan vahid geosiyasi və geoiqtisadi regiondur” – bu yanaşmanı konseptual çərçivəyə salır və Azərbaycan–Mərkəzi Asiya əməkdaşlığının yeni identikliyini müəyyən edir. Siyasi analiz göstərir ki, bu yeni identiklik üç əsas sütun üzərində dayanır. İlk sütun geoiqtisadi koordinasiyadır. Orta Dəhliz üzərində Azərbaycan, Qazaxıstan və Özbəkistanın platformaları artıq bir-birini tamamlayır; enerji, nəqliyyat və rəqəmsal logistika sahələrində koordinasiya edilən fəaliyyət regional iqtisadi dayanıqlığı gücləndirir. İkinci sütun institusional legitimlikdir. Azərbaycan Mərkəzi Asiya tərəfindən tamhüquqlu və qardaş iştirakçı kimi qəbul edilir. Liderlərin çıxışlarında “formatın genişlənməsi” yox, “əməkdaşlıq məkanının yenidən təşkili” vurğulanır. Təbii ki, burada Azərbaycanın artıq regional proseslərin təşəbbüskar subyekti kimi tanındığı göstərilir. Üçüncü sütun isə geosiyasi balanslaşdırmadır. Azərbaycan həm Türkiyə ilə müttəfiqlik münasibətləri, həm də Çinlə strateji tərəfdaşlıq vasitəsilə Mərkəzi Asiyanın təhlükəsizlik və iqtisadi arxitekturasında balanslaşdırıcı rol oynaya bilir. Prezident İlham Əliyevin çoxvektorlu diplomatiyası Azərbaycanı regional balansın tənzimləyicisi, strateji resursların və təşəbbüslərin mərkəzləşdiricisi səviyyəsinə qaldırır və ölkəni geosiyasi və geoiqtisadi baxımdan möhkəmləndirir.

Qeyd etməliyik ki, Azərbaycanın Mərkəzi Asiya ilə strateji inteqrasiyası Orta Dəhlizin geoiqtisadi mahiyyətini də kökündən dəyişir. Qırğızıstan Prezidenti Sadır Japarovun qeyd etdiyi kimi, Zəngəzur dəhlizi Çin–Qırğızıstan–Özbəkistan dəmir yolunun məntiqi davamı hesab olunur. Çin üzərindən başlayan, Qırğızıstan və Özbəkistanı əhatə edən, Türkmənistan və ya Qazaxıstan vasitəsilə Azərbaycanın ərazisindən keçərək Türkiyə və Avropaya çıxan bu xətt həm Rusiya marşrutunu yan keçən yeganə real alternativdir, İran yolu ilə müqayisədə sürət və təhlükəsizlik baxımından üstünlük təşkil edir. Deməli, Azərbaycan Mərkəzi Asiya ilə Avropa arasında logistika və ticarət körpüsünün əsas strateji düyün nöqtəsinə çevrilir.

Azərbaycanın “ASAN Logistics” modeli Mərkəzi Asiya ölkələrinə ixrac edilərək Orta Dəhlizi rəqəmsal dəhliz kimi də rəqabətsiz hala gətirir. Yük daşımalarının sürət və təhlükəsizlik göstəriciləri ilə yanaşı, rəqəmsal monitorinq və idarəetmə vasitəsilə tam şəffaflıq təmin edilir ki, bu da qlobal ticarət axınlarında yeni bir effektivlik və etibarlılıq səviyyəsi yaradır. Eyni zamanda, Azərbaycanın Mərkəzi Asiya formatına tamhüquqlu qoşulması ilə Zəngəzur və Orta Dəhliz artıq qarşılıqlı tamamlayıcı elementlər kimi çıxış edir, ölkəmizin qlobal ticarət və regional geosiyasi manevr imkanlarını yeni səviyyəyə qaldırır.

Maraqlıdır ki, bəs bu qərar regionu necə dəyişəcək? Qeyd etməliyik ki, Daşkənd qərarı Mərkəzi Asiyanın mövqeyini struktur və təsir baxımından köklü şəkildə yenidən müəyyən edir. Artıq bu iki region vahid geosiyasi və geoiqtisadi güc mərkəzi kimi çıxış edir. Belə bir vahidlik, ilk növbədə, qarşılıqlı iqtisadi asılılıq, koordinasiya edilmiş nəqliyyat-logistika şəbəkələri və strateji tərəfdaşlıqlar vasitəsilə formalaşır. Azərbaycan Orta Dəhliz və Zəngəzur dəhlizi vasitəsilə bu mərkəzin əsas “arteriya”larından birinə çevrilir. Yəni yükdaşımaların sürət, təhlükəsizlik və rəqəmsal idarəetmə standartlarını yüksəldərək regionun strateji üstünlüyünü təmin edir.

Orta Dəhliz qlobal ticarət xəritəsində strateji mərkəz kimi çıxış edir və Çin–Avropa yükdaşımalarının yeni xəritəsini birbaşa müəyyən edir. Deməli, qlobal ticarət zəncirlərində alternativ və etibarlı istiqamət formalaşır, böyük güc oyunlarının dinamikası dəyişir və region ölkələrinə beynəlxalq bazarlarda daha aktiv mövqe tutmaq imkanı yaranır. Mirziyoyevin ifadəsi ilə desək, “Azərbaycanın qoşulması ilə regionumuzun qlobal səsi daha da əhəmiyyətli olacaq”. Azərbaycanın rolu artıq yalnız regionun güc mərkəzi kimi deyil, həm də Mərkəzi Asiyanın inteqrasiya edilmiş və koordinasiyalı fəaliyyətinin aparıcı subyekti kimi qiymətləndirilir. Son olaraq qeyd edək ki, bu gün atılan addımlar həm geosiyasi, həm iqtisadi, həm də institusional baxımdan tarixi bir dönüş nöqtəsidir və Azərbaycanın regional rolunu yeni strateji səviyyəyə qaldırır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

# Postmüharibə dövrünün ən böyük büdcəsi

## *Azərbaycan yeni geosiyasi və iqtisadi reallıqlara tam hazırdır*

**Prezident İlham Əliyevin oktyabrın 15-də Milli Məclisə təqdim etdiyi “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” Qanun layihəsi ölkənin gələcək strateji yolunun maliyyə ifadəsidir. Bu sənəd ölkənin son illər formalaşdırdığı suveren iqtisadi modelin, postmüharibə mərhələsində qurduğu regional güc balansının və yeni geosiyasi reallıqda müstəqil qərarvermə xəttinin təzahürüdür.**

2026-cı ilin büdcə layihəsi həm daxili idarəetmənin sistemli modernizasiyasını, həm işğaldan azad edilmiş ərazilərin bərpasını, həm də Azərbaycanın postsovet məkanında ən müstəqil geosiyasi kursa malik ölkə kimi mövqeyini daha da möhkəmləndirmək niyyətini ortaya qoyur. Layihə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” çərçivəsində hazırlandığı üçün bu büdcə birillik əməliyyat planı deyil, uzunmüddətli dövlət strategiyasının maliyyələşmə modeli kimi çıxış edir. 2026-cı ilin proqnozlaşdırılan gəlirləri 38 milyard 609 milyon manat civarındadır. Xatırlatmaq yerinə düşər ki, 2020-ci ildə bu rəqəm 24,7 milyard manat olub. Digər tərəfdən xərclər 41 milyard 703,6 milyon manat təşkil edir. Yəni təxminən 3 milyard 94,6 milyon manat büdcə kəsiri planlaşdırılır. Kəsirin ÜDM-ə nisbəti 2,3 faiz səviyyəsindədir ki, bu da dövlətin fiskal intizamı qorumağa davam etdiyini göstərən önəmli göstəricidir. Beləliklə, 2026-cı il üçün proqnoz edilən kəsirin ÜDM-də payının bir qədər azalması (2,4-dən 2,3-ə) hökumətin gələcək üçün daha intizamlı maliyyə yanaşmasına meyil etdiyini göstərir. Asiya İnkişaf Bankının (AİB) son proqnozuna görə növbəti ildə kəsir 2 faizə qədər azalacaq.

2026-cı il büdcəsinin ən strateji və ideoloji cəhətdən əhəmiyyətli mesajlarından biri qeyri-neft sektorunun gəlirlərdəki payının 57,4 faizə yüksəlməsi proqnozudur. Bu, həm büdcə optimallaşdırması, həm də neftdənkənar dayanıqlığın praktiki nəticəyə çevrilməsi deməkdir. Ötən illərdə, yəni 2020-ci ildə qeyri-neft daxilolmaların xüsusi çəkisi 43 faiz, ötən il isə 51,8 faiz təşkil edirdi. Builki yüksəliş dövlətin struktur iqtisadiyyatını neftdən asılı olmayan gəlir mənbələri üzərinə qurmaq strategiyasını gücləndirməsinə işarədir. İcmal büdcədə qeyri-neft gəlirlərinin payının 63 faizə çatdırılması planı isə struktur islahatların dərinliyini göstərir.

Azərbaycanın strateji valyuta ehtiyatlarının 81,5 milyard dollar səviyyəsində olması regionda geosiyasi risklərin artdığı bir dövrdə maliyyə suverenliyinin əsas dayağına çevrilir. Bu valyuta ehtiyatları xarici şoklara – enerji qiymətlərinin düşməsi, müharibə riskləri, qlobal infrastruktur maliyyələşməsində problemlərə qarşı dövlətin müdafiə xətti funksiyasını yerinə yetirir, büdcə sabitliyi üçün “yastıq” rolunu oynayır. Ehtiyatlar böyük olduqda, dövlət lazım gəldikdə kreditləşmədən qoruna, xarici borclardan asılılığı azaltmağa çalışa bilər. Bu isə gələcək nəsillər üçün resursların qorunmasını təmin edir, Neft Fondundan transfertin azalması və qeyri-neft gəlirlərinin artması ilə birlikdə bu ehtiyatların qorunması, maliyyə siyasətinin uzunmüddətli planlaşdırıldığını göstərir. Yalnız neft gəlirlərindən asılı olmayan büdcə sistemi deyil, həm də xarici risklərə çevik cavab verə bilən maliyyə dayanıqlığı mexanizmi qurulur.



2026-cı il üçün xərclərin 60 faizi cari öhdəliklərə (25,2 milyard manat) yönəldilir və bu xərclərin 88,1 faizi qeyri-neft gəlirləri hesabına maliyyələşdirilir. Bu, dövlətin xərcləndiyi məbləği davamlı gəlir mənbələri ilə uzlaşdırmaqda fiskal çevikliyi qoruduğunu göstərir. Sahələr üzrə xərclər belə planlanıb:

- Sosial yönümlü xərclər: 17,1 milyard manat (təxminən 41 faiz)
- Təhsil: 5 milyard manat
- Səhiyyə: 2 milyard manat
- Müdafiə və milli təhlükəsizlik: 8,7 milyard manat.

Xüsusi diqqətçəkən məqam “Böyük Qayıdış” proqramı ilə bağlıdır. Növbəti il üçün büdcədən “Böyük Qayıdış” proqramına 3,5 milyard manat ayrılması nəzərdə tutulub. Bu isə öz növbəsində işğaldan azad olunmuş torpaqlarda infrastrukturun, enerji sisteminin, yaşayış məskənlərinin bərpası üçün maliyyə imkanlarının ciddi olması deməkdir. Proqramın maliyyələşdirilməsi büdcədə prioritet olaraq göstərilir.

2024-cü il üçün təqdim olunan büdcə layihəsində gəlirlər 34,173 milyon manat, xərclər isə 36,763 milyon manat planlaşdırılmış, kəsir 2,9 milyon manat (təxminən 2,2 faizə bərabər) idi. 2025-ci ilin büdcə layihəsində gəlirlər proqnozlaşdırıldığı kimi 38,4 milyard manata çatıb, xərclər isə 41,4 milyard manat olub. Defisit 2,4 faizə bərabər idi. Bu göstəriciləri nəzərə alanda, 2026-cı il büdcəsində kəsirin nisbətən azalması (2,3 faiz) və qeyri-neft gəlirlərinin artması struktur iqtisadiyyat strategiyasının ardıcıl tətbiq olunduğunu göstərir. Gələn ilin büdcəsi “Böyük Qayıdış” proqramına böyük investisiya və hüquqi-inzibati sistemi gücləndirməyə yönəlmiş maliyyə ayırır. Bu dövlət siyasətinin yalnız deklarativ olmadığını, real maliyyə prioritetlərinə çevrildiyini göstərir.

2026-cı ilin büdcə layihəsi Prezident İlham Əliyevin son dövrlərdə yürütdüyü siyasətin effektivliyini maliyyə baxımından təsdiqləyir. Bu effektivliyi bir sıra mühüm aspektlərdə görmək olar. Ölkə başçısı “Azərbaycan 2030” prioritetlərini büdcənin mərkəzinə qoyub. Bu, uzunmüddətli dövlət strategiyasıdır. Neftdən gələn gəlirlərə asılılığı azaltmaq və qeyri-neft iqtisadiyyatını gücləndirmək hədəfi büdcəyə sistemli şəkildə daxil edilib. Büdcədə sosialyönümlü xərclərin yüksək payı (təhsil, səhiyyə, sosial təminat) dövlətin vətəndaşına yönəlmiş siyasəti qoruduğunu göstərir.

Beləliklə, İlham Əliyevin liderliyi ilə formalaşan büdcə siyasəti strateji dövlətçilik prinsipinə söykənir. Dövlətin gələcək vizyonu maliyyə planlarında aydın əks olunur, risklər idarə edilir və əsas prioritetlər – təhlükəsizlik, sosial rifah, iqtisadi diversifikasiya – maliyyə baxımından dayanıqlı şəkildə təsbit olunur.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*

**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**



2026-cı ilin dövlət büdcəsi Azərbaycanın müstəqil inkişaf yolunda formalaşdırılmış ən böyük büdcə olacaq. Nəzərə alsaq ki, həm gəlirlərdə, həm də xərclərdə ciddi artım proqnozlaşdırılıb, bu dinamika dövlət büdcəsindən ayrılan vəsaitlərin strukturuna birbaşa təsir göstərəcək. Dövlət büdcəsinin həcmi 41 milyard manata qədər artırılacaq və bu vəsaitin əsas iqtisadi və sosial prioritetlər üzrə bölüşdürülməsi nəzərdə tutulur.

Təbii ki, növbəti ildə də milli təhlükəsizlik və müdafiə prioritet istiqamət olaraq qalır. Bu sahəyə ayrılan vəsaitlərin icrası təmin ediləcək və təxminən 8 milyard manat müdafiə və təhlükəsizlik qabiliyyətinin daha da gücləndirilməsi üçün istifadə olunacaq.

İqtisadi fəaliyyətin dəstəklənməsi üçün 7,6 milyard manat ayrılması planlaşdırılır. Bunun təxminən 3,5 milyard manatı işğaldan azad olunmuş ərazilərin bərpasına, qalan hissəsi isə digər iqtisadi proqramların reallaşdırılmasına yönəldiləcək.

Eyni zamanda, növbəti il sosial sahəyə 4,8 milyard manat birbaşa vəsait ayrılması nəzərdə tutulur. Ümumilikdə sosial istiqamətə dövlət büdcəsindən əvvəlki illərə nisbətən 17 milyard manatdan çox vəsait yönləndiriləcək. Bu isə ümumi büdcə xərclərinin təxminən 42 faizinini təşkil edir. Bu göstərici sosial təminat və sosial müdafiə tədbirlərinin əsas prioritetlərdən biri olaraq qalacağını göstərir.

2026-cı ildə dövlət büdcəsində qeyri-neft sektorunun daxilolmaları 58 faizə qədər yüksələcək. Bu isə iqtisadi və fiskal diversifikasiyanın genişlənməsinə, habelə neftdənkənar mənbələr hesabına büdcəyə daha çox vəsaitin daxil olmasına imkan yaradacaq. Bu amil büdcənin uzunmüddətli dayanıqlığı baxımından xüsusi əhəmiyyət daşıyır.

Növbəti ilin dövlət büdcəsi milli prioritetlərə və Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji hədəflərə uyğun şəkildə hazırlanıb. Büdcə növbəti ildə də iqtisadi artım tempinin qorunmasına, qeyri-neft sektorunun imkanlarının genişlənməsinə, iqtisadi diversifikasiyanın sürətlənməsinə və sosial təminat tədbirlərinin gücləndirilməsinə xidmət edəcək.

# Türküstandan dünyaya açılan sivil pəncərə

## *İslam Sivilizasiyası Mərkəzi Şərqin bəşəri dəyərlərinin tarixi aynasıdır*

**İrimiqyaslı mədəni-tarixi layihələrin önəmi bilavasitə sədləri aşaraq ideoloji hədəflərin və mədəni özünüdərkin strateji alətlərinə çevrilir. Özbəkistanın paytaxtı Daşkənddə inşa olunan İslam Sivilizasiyası Mərkəzi müasir qlobal çağırışlara fundamental cavab və Türk-İslam dünyasının gələcəyinə ünvanlanmış geosiyasi bəyanat kimi qiymətləndirilməlidir.**



Azərbaycan Prezidenti İlham Əliyevin qardaş ölkəyə səfəri zamanı Mərkəzlə tanışlığı və onun funksional təyinatına dair səsləndirdiyi fikirlər, xüsusilə Mərkəzin "bütün İslam dünyası üçün qürur mənbəyinə çevriləcəyi" barədə ifadə etdiyi qəti inam həmin təşəbbüsün strateji üfüqünü müəyyənləşdirir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin müdrik liderliyi və iki dövlət arasındakı sarsılmaz müttəfiqlik fonunda ortaya qoyulan mövqe Mərkəzin Qərbdə sistemli xarakter alan islamofobiyanın ideoloji hücumlarına qarşı tarixi irsin reabilitasiyası yolu ilə İslamın həqiqi humanist mahiyyətini təsdiq edən və eyni zamanda, İslam aləminin daxilinə yönəlmiş intellektual dirçəlişi hədəfləyən qüdrətli layihə olduğunu təsdiq edir.

Layihənin geosiyasi və mənəvi əhəmiyyətini dərindən anlamaq üçün onun möhkəm təməlini təşkil edən Azərbaycan–Özbəkistan strateji tərəfdaşlığının mahiyyətini bilmək lazımdır. Prezident İlham Əliyevin Özbəkistanın inkişaf dinamikasına və liderinə verdiyi yüksək qiymət iki dövlət arasında formalaşan münasibətlərin keyfiyyətini səciyyələndirir. Bu münasibətlər formal diplomatik protokolu aşaraq ortaq köklərə, mədəniyyətə və gələcəyə dair strateji baxışa söykənən sarsılmaz qardaşlıq ittifaqı səviyyəsinə yüksəlib. İlham Əliyevin Şavkat Mirziyoyevi "müdrik dövlət xadimi" kimi səciyyələndirməsi onun qısa müddət ərzində Özbəkistanı struktur islahatları vasitəsilə Mərkəzi Asiyanın lider dövlətinə çevirən cəsarətli və hərtərəfli fəaliyyətinə verilən obyektiv qiymətdir.

Liderlərin Mərkəzi Asiya ilə Cənubi Qafqaz dolayısı ilə bütün Türk dünyası arasında inteqrasiyanın dərinləşdirilməsinə yönəlik ortaq baxışı strateji tərəfdaşlığın mühüm elementidir. Orta Dəhlizin inkişafı, enerji və nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi kimi məsələlərdə Bakı ilə Daşkəndin eyni mövqedən çıxış etməsi İslam Sivilizasiyası Mərkəzi kimi nəhəng mədəni-mənəvi layihənin reallaşması üçün zəruri olan siyasi iradənin və etimad mühitinin mövcudluğunu təsdiqləyir.

Məhz həmin möhkəm siyasi-iqtisadi təməl üzərində ucaldılan İslam Sivilizasiyası Mərkəzi sivilizasiyalararası dialoqda yeni səhifə açan və İslamın həqiqi mahiyyətini bütün dünyaya bəyan edən strateji addım kimi meydana çıxır. Prezident İlham Əliyevin dəqiq təsbiti ilə layihənin əhəmiyyəti xüsusilə Qərbdə islamofobiyanın sistemli və siyasi instrumentalizasiyaya məruz qalan bir fenomenə çevrildiyi dövrdə qat-qat artır. İslamofobiya bəzi Avropa ölkələrində dövlət siyasətinin tərkib hissəsinə, siyasi partiyaların ideoloji platformasına və KİV-lərin gündəlik təbliğat vasitəsinə çevrilib. Bu ideoloji təcavüzün məqsədi İslamı terror, cəhalət və zorakılıqla eyniləşdirmək və bəşər sivilizasiyasının inkişafındakı rolunu tarixi yaddaşdan silmək, müsəlman cəmiyyətlərində özünəinamsızlıq, intellektual tənəzzül hissi yaratmaqdır.

İslam Sivilizasiyası Mərkəzi bütün təhriflərə və yalanlara qarşı tutarlı, konstruktiv və qüdrətli cavabı formalaşdırır. O, reaktiv etirazlar və ya sərt bəyanatlar səviyyəsindən yüksələrək İslamın həqiqi simasını faktlar, tarixi dəlillər və maddi-mədəni irs nümunələri ilə ortaya qoyan fundamental platforma rolunu oynayır. Prezident İlham Əliyevin vurğuladığı kimi, həmin Mərkəz bütün dünyaya İslamın quruculuq, dözümlülük, dostluq və qardaşlıq dini olduğunu nümayiş etdirir. Onun ekspozisiyası İslamın təkcə mənəviyyat və axirət haqqında təlim olmadığını, eyni zamanda, dünyəvi elmlərin, fəlsəfənin, incəsənətin və şəhərsalmanın inkişafına misilsiz təkan verən hərtərəfli sivilizasiya modeli olduğunu isbat edir. Mərkəzin məhz qədim Mərkəzi Asiya torpağında, İslam intibahının mərkəzlərindən olmuş məkanda inşa edilməsi rəmzi məna daşıyır.

* * *

Dünya elminin inkişafını Mərkəzi Asiyadan çıxan mütəfəkkirlər olmadan təsəvvür etmək mümkün deyil. Riyaziyyatda müasir rəqəm sisteminin, cəbr və alqoritm anlayışlarının əsasını qoyan Məhəmməd Əl-Xarəzmi, təbabəti sistemləşdirən, ensiklopedik əsəri "Əl-Qanun fit-Tibb" əsrlər boyu Avropa universitetlərində əsas dərslik kimi istifadə olunan İbn Sina, Yerin kürə formasında olduğunu və öz oxu ətrafında fırlandığını Kopernikdən yüzilliklər əvvəl elmi dəlillərlə sübut edən, geodeziya, astronomiya və fizika sahələrində mühüm kəşflər edən Əbu Reyhan Əl-Biruni, dövrünün ən qabaqcıl rəsədxanasını yaradaraq ulduzların dəqiq kataloqunu tərtib edən Mirzə Uluqbəy və adları dünya elm tarixinə qızıl hərflərlə yazılmış yüzlərlə alim məhz İslam sivilizasiyasının yetirmələri idi. Onların fəaliyyəti sübut edir ki, İslam sivilizasiyası mahiyyəti etibarilə biliyə, tənqidi təfəkkürə və elmi axtarışa açıq olmuşdur. İslam Sivilizasiyası Mərkəzi nəhəng intellektual irsi bir araya gətirərək, müasir texnologiyaların köməyilə təqdim edərək, həm müsəlmanlara, həm də qeyri-müsəlmanlara unudulmuş həqiqətləri xatırladır.

Prezident İlham Əliyevin Mərkəzin "bütün İslam dünyası üçün qürur mənbəyi olacağına" dair əminliyi layihənin daxili auditoriyaya yönəlmiş psixoloji və ideoloji əhəmiyyətini dəqiq müəyyənləşdirir. Tarixi proseslər nəticəsində İslam dünyasının bir çox yerində elmi-texniki tənəzzül baş vermiş, bu isə bəzi cəmiyyətlərdə özünəqapanma və mədəni irsinə qarşı biganəliklə nəticələnib. Məhz bu intellektual boşluqdan istifadə edən radikal və ekstremist cərəyanlar İslamın elmə, tərəqqiyə dəvət edən humanist mahiyyətini təhrif edərək onu ictimai rəyə cəhalət və zorakılıq ideologiyası kimi sırımağa çalışıblar. İslam Sivilizasiyası Mərkəzi zərərli cərəyanlara qarşı ən güclü ideoloji vasitədir. O, gənc müsəlman nəsillərinə göstərir ki, onların əcdadları qılıncla yanaşı, qələmlə, pərgarlarla, astrolabiyalarla da tarix yazmışlar. Mərkəz sübut edir ki, elm və din, tərəqqi və mənəviyyat bir-birinin ziddi yox, əksinə, İslam sivilizasiyasının tamamlayıcı qanadlarıdır. Həmin şanlı keçmişlə tanışlıq müsəlman gənclərində mövcud ola biləcək hər hansı aşağılıq kompleksini aradan qaldıracaq, onlarda milli və dini qürur hissini gücləndirəcək və onları yenidən elm və texnologiya sahəsində böyük nailiyyətlər əldə etməyə ruhlandıracaq.

Layihənin digər tərəfi Azərbaycan və Özbəkistanın ortaq dəyərlər sistemini və dövlətçilik modelini əks etdirməsidir. Hər iki dövlət dünyəvi idarəçilik modelini mənimsəməklə yanaşı, xalqlarının milli-mənəvi kimliyinin ayrılmaz tərkib hissəsi olan İslam dininə, mədəniyyətinə dərin hörmətlə yanaşır, onun qorunmasını və inkişafını dövlət siyasətinin mühüm istiqamətlərindən hesab edir. Azərbaycanda dövlət başçısının və Heydər Əliyev Fondunun təşəbbüsü ilə tarixi məscidlərin, ziyarətgahların bərpası, dini abidələrin qorunması, tolerantlıq mühitinin gücləndirilməsi istiqamətində görülən işlər Özbəkistandakı həmin nəhəng layihə ilə tam harmoniya təşkil edir.

İslam Sivilizasiyası Mərkəzi Prezident Şavkat Mirziyoyevin müdrik təşəbbüsü, Özbəkistan xalqının quruculuq əzmi və Prezident İlham Əliyevin timsalında bütün Türk-İslam dünyasının mənəvi dəstəyi ilə ərsəyə gələn qlobal əhəmiyyətli hadisədir. Bu Mərkəz islamofobiyanın yalançı təbliğatını darmadağın edən intellektual qala, İslam dünyasının daxilindəki mənəvi boşluğu dolduran nur mənbəyi və gələcək nəsilləri böyük elmi-mədəni nailiyyətlərə səsləyən ilham ocağıdır. Prezident İlham Əliyevin dərin uzaqgörənliklə qeyd etdiyi kimi, Daşkənddəki möhtəşəm abidə bütün fərqliliklərinə baxmayaraq, ortaq mədəni, mənəvi irsə malik olan milyardlarla müsəlman üçün həqiqi qürur və birlik mənbəyinə çevriləcək, İslamın sülh, elm və tərəqqi bayrağını yeni intellektual zirvələrdə dalğalandıracaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Vaqarşapat seçkisi – 2026-cı il üçün prelüdiya, yoxsa...

## *Nikol Paşinyanın partiyası bu olaydan dərs çıxarmalıdır*

**Ermənistanın hakim siyasi qurumu – "Vətəndaş sazişi" partiyası Vaqarşapat icmasında keçirilmiş yerli əhəmiyyətli seçkilərdə qalib gəlib. Məlum olduğu kimi, icmanın inzibati mərkəzi ölkənin mənəvi paytaxtı sayılan və bütün ermənilərin katolikosunun iqamətgahının yerləşdiyi Eçmiədzin şəhəridir.**

Beləliklə, Ermənistan Mərkəzi Seçki Komissiyasının Vaqarşapat Ağsaqqallar Şurasına keçirilmiş seçkilər barədə açıqladığı məlumata görə, hakim partiya 15,298 səs alıb ki, bu da ümumi səslərin 48,5 faizi deməkdir. Nəticədə 33 üzvlü Ağsaqqallar Şurasında üç siyasi qüvvə təmsil olunacaq. "Vətəndaş sazişi" 19, "Qələbə" alyansı adlı qurum 12, "Ana Ermənistan" 2 mandat yerinə sahiblənəcək. Seçkilərdə iştirak etmiş digər beş partiya isə baryeri keçə bilmədiyindən şurada yer almayacaq. Düşünsək ki, Paşinyan iqtidarı ilə kilsə arasında ziddiyyətlər hazırda özünün pik səviyyəsindədir, birincinin, belə demək mümkünsə, ikincinin meydançasında uğur qazanması adi məsələ sayıla bilməz.

Bəli, mütləq üstünlük qazanan "Vətəndaş sazişi" koalisiya yaratmadan da Eçmiədzində meri təkbaşına müəyyənləşdirmək imkanı əldə edib. Amma hökumətlə Ermənistan Apostol Kilsəsi arasında gərginliyin artdığı bir vaxtda keçirilən səsvermənin nəticələri ölkədə ziddiyyətli reaksiyalar doğurub. Bəziləri bunu qələbə kimi qiymətləndirdiyi halda, digərləri nəticəni müxalifətin parçalanması barədə xəbərdarlıq olaraq görür. Baş nazir Paşinyanın fikrinə gəlincə, o, "Facebook" sosial şəbəkəsindəki hesabında bildirib ki, hazırkı nəticələr 2026-cı ildə keçiriləcək parlament seçkilərinin "uca səslənən prelüdiyası"dır.

Nikol təmsil olunduğu iqtidarın gələnilki prosesdən də qalib ayrılacağının anonsunu verib. Əlbəttə, Paşinyan bu zaman pafosu da yaddan çıxarmayıb və bu seçkiləri "suverenliyin və dövlətçiliyin möhkəmləndirilməsi siyasətinə dəstək" kimi qiymətləndirib. Ən çox rezonans doğuran fikir isə Nikolun Vaqarşapat seçicilərinin "Birinci Taxt Müqəddəs Eçmiədzinin Ktriç Nersisyandan (Katolikos II Qareginin dünyəvi adı – red.) azad olunması prosesinə mühüm enerji verdikləri" barədəki bəyanatı olub. Baş nazir, həmçinin, öz namizədi Argişti Mehakyana təbrik göndərib və sakinlərdən əvvəlki səhvlər üçün üzr istəyib.

Əlbəttə, müxalifət təmsilçilərinin Vaqarşapat icmasına seçkilərin nəticələrinə münasibəti fərqlidir. Məsələn, əks cinaha məxsus "Birləşmə Qanadları" partiyasının üzvü David Ananyan "Facebook" səhifəsində yazıb ki, "Vətəndaş sazişi"nin qələbəsi "cəmiyyətin əksəriyyətinin dəstəyi hesabına deyil, seçki riyaziyyatına" görədir. O vurğulayıb ki, hakim partiya mandat çoxluğu alsa da, onun 15298 səsi icmada qeydiyyatdan keçmiş bütün seçicilərin (69,866 nəfər) cəmi 21,8 faizidir.

D.Ananyanın sözlərinə görə, mövcud seçki sistemi (D'Ondt metodu və yüksək baryerlər) "süni çoxluq" yaradır və keçə bilməyən partiyalara verilmiş səsləri "yandırır". Yəni səsləri sıradan çıxarır və bu durum 2026-cı il üçün xəbərdarlıqdır. Əgər müxalifət parçalanmış vəziyyətdə qalsa, hakimiyyət yenə də eyni riyazi məntiqlə qalib gələcək. Başqa sözlə desək, iqtidarın gələnilki prosesdə, hətta mütləq əksəriyyətin dəstəyi olmadan belə uğur qazanması mümkündür.



Müxalifyönümlü "Hraparak" qəzetinin redaktoru Armine Ohanyan da nəticələrin əvvəlcədən proqnozlaşdırıla bilən olduğunu bildirib. O, müxalifətin uğursuzluğunun üç səbəbini müəyyənləşdirib. Birinci səbəb kimi, iqtidara qarşı mübarizə aparan namizədlərin zəifliyini vurğulayıb. Jurnalistin sözlərinə görə, insanlar namizədləri təkcə hakimiyyətin əleyhinə olduqları üçün seçmirlər. Başlıca vəzifə xalqın lehinə səs vermək istədiyi namizəd olmaqdır. Belə biri isə istisnadır.

Ohanyan hakimiyyətin uğurunun ikinci səbəbi qismində "spoyler" partiyaların siyasi mənzərədə boy göstərmələrini vurğulayıb. Onun sözlərinə görə, kiçik partiyalar boş ambisiyalarla müxalifətin səslərini parçalayaraq hakimiyyətə kömək edirlər. Redaktor müxalifətin uğursuzluğuna səbəb olan digər amildən də söz açaraq vurğulayıb ki, əks düşərgə xalqdan uzaq düşüb. Jurnalist bu cinahın təmsilçilərini kabinetlərdən çıxmağa, intriqalara son qoymağa və bölgələrdə insanlarla real işləməyə çağırıb, hətta onları seçicilərə biganəlikdə də günahlandırıb.

Ümumən, Vaqarşapat seçkilərinin nəticələri göstərdi ki, Ermənistanda hakimiyyətin institsional üstünlüyü davam edir. Çünki hakim partiya az dəstəyə rəğmən mütləq çoxluq qazandı. Bu, Paşinyana məxsus yerli strukturların hələ də güclü işlədiyinin göstəricisidir. İkinci məqam budur ki, hazırkı nəticələr Ermənistandakı kilsə-hökumət qarşıdurmasının artıq seçici davranışına təsir edən siyasi faktora çevrildiyini göstərdi. Başqa sözlə desək, Paşinyanın seçkini Eçmiədzinlə mübarizə kontekstində təqdim etməsi, prosesin dini industriya qarşısında siyasi mandat şəklində izahına gətirib çıxardı.

Hər bir halda Vaqarşapat seçkilərinin hakim partiyanın qələbəsi ilə yekunlaşması onu göstərir ki, Paşinyan iqtidarı xalq içərisindəki nüfuzunu qoruyur və bu, gələcək üçün müstəsna dividenddir. Deməli, indidən 2026-cı ildə Ermənistanda keçiriləcək parlament seçkilərində favorit siyasi qüvvənin kimliyi bəllidir. Əlbəttə, hazırkı nəticələr arxayınlaşmaq üçün əsas vermir. Çünki hakim düşərgənin Vaqarşapatdakı qələbəsini doğuran amil heç də "Vətəndaş sazişi"nin xalq içərisindəki mütləq nüfuzu yox, müxalifətin zəifliyi idi. Müxalifət isə dərs çıxara bilər. Hərçənd, onun gerçək konsolidasiya imkanlarının zəifliyi də aşkardır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanması, eləcə də regionda yeni kommunikasiya layihələrinin həyata keçirilməsi Cənubi Qafqazın inkişafı baxımından əhəmiyyət daşıyır. Bu çərçivədə ABŞ-ın təşəbbüsü ilə irəli sürülən "Tramp marşrutu" (TRIPP) layihəsi həm Ermənistan–ABŞ, həm də Azərbaycan–Ermənistan münasibətlərinə yeni nəfəs gətirəcək.**

# Etimadın bərpasına yönəlik geosiyasi layihə



Ermənistan parlamentinin xarici əlaqələr komissiyasının sədri Sarkis Xandanyan "Armenpress"ə bildirib ki, TRIPP layihəsinin icrası ilə Ermənistan–Azərbaycan sülh sazişi arasında birbaşa əlaqə olmasa da, sülhün yekunlaşdırılması proqramın reallaşması üçün daha əlverişli mühit yaradacaq. O vurğulayıb ki, layihənin dəqiq maliyyə çərçivəsi hələ hesablanır və danışıqlar Ermənistanla ABŞ arasında davam edir. Detalların ilin sonuna qədər müəyyənləşməsi gözlənilir.

Baş nazir Nikol Paşinyan isə TRIPP layihəsinin siyasi deyil, iqtisadi xarakter daşıdığını, 49 və ya 99 illik icarə modeli əsasında müzakirə edildiyini, idarəetməyə verilmə müddətinin yalnız investisiyaların hansı müddət ərzində özünü doğruldacağından asılı olduğunu bildirib. Paşinyan qeyd edib ki, Ermənistan tərəfi bu müzakirələrdə siyasi komponent görmür və onlar sırf maliyyə-iqtisadi xarakter daşıyır: "İnvestorun yatırdığı vəsaitləri müəyyən mənfəətlə birlikdə geri alacağına dair zəmanətləri olmalıdır".

Onun sözlərinə görə, Ermənistanın həlledici səsə malik olacağı konsorsium yaradılması planlaşdırılır və investorun vəsaitinin geri dönüşü təmin edilməlidir: "Tezliklə şirkətin adı da müəyyən ediləcək və konsorsiumun direktorlar şurasında hər iki ölkə təmsil olunacaq. Onların nisbəti investisiyaların payından asılı olacaq".

Artıq tərəflər arasında danışıqlar aparılır. ABŞ Dövlət katibinin müavini Elison Huker Ermənistanda səfərdədir. Səfər çərçivəsində E.Huker ölkə rəhbərliyi ilə "Tramp marşrutu" layihəsini və Ermənistan–Türkiyə münasibətlərini müzakirə etmək niyyətindədir.

Azərbaycan da bu layihənin tezliklə reallaşmasının tərəfdarıdır. Düzdür, TRIPP layihəsi, əsasən, Ermənistan–ABŞ xətti ilə müzakirə olunur və Ermənistan ərazisində həyata keçirilir. Bu səbəbdən Azərbaycan tərəfindən xüsusi razılıq tələb edilmir. Amma Bakı regional proseslərin təhlükəsizlik və sabitlik prinsipinə uyğun olmasını zəruri sayır.

Mövzu ilə bağlı **politoloq Cəsarət Hüseynzadə** XQ-yə bildirdi ki, Azərbaycan üçün əsas məsələ Ermənistanın sülh sazişi üzrə öhdəliklərini tam yerinə yetirməsi, sərhədlərin tanınması, delimitasiya



və təhlükəsizlik mövzularında aydın və qeydsiz-şərtsiz mövqe ortaya qoymasıdır: "Tramp marşrutu"nun həyata keçirilməsinə də bu prizmadan yanaşılır. Azərbaycan hesab edir ki, regionda genişmiqyaslı iqtisadi layihələrin davamlılığı yalnız sülhün hüquqi əsaslarda təmin olunması ilə mümkündür. Bakı paraflanmış sənədi mühüm diplomatik addım kimi qiymətləndirsə də, yekun imzanı və sənədin icrasını həlledici mərhələ hesab edir".

Ekspert qeyd etdi ki, istənilən regional layihə suverenlik, ərazi bütövlüyü və qarşılıqlı fayda prinsiplərinə söykənməlidir: "Ermənistanın iştirak etdiyi hər hansı beynəlxalq təşəbbüs yalnız uzunmüddətli sabitlik formalaşdıqdan sonra real nəticə verə bilər. Onun TRIPP kimi layihələrə can atması anlaşılandır, çünki ölkə iqtisadi blokadadan çıxmağa çalışır. Amma regionda iqtisadi açılım üçün əsl açar Ermənistanın destruktiv siyasətdən əl çəkməsi və Azərbaycanla normal qonşuluq münasibətlərini bərpa etməsidir".

Bu gün regional əməkdaşlıq, xüsusilə nəqliyyat-kommunikasiya dəhlizlərinin genişləndirilməsinin Azərbaycanın strateji gündəliyində mühüm yer tutduğunu vurğulayan politoloq Zəngəzur dəhlizinin Azərbaycan hissəsində işlərin tamamlanmağa yaxınlaşdığını və bu marşrutun Orta Dəhlizin əsas arteriyasına çevriləcəyini bildirdi: "Xüsusilə, Mərkəsi Asiya ölkələrindən və əksinə yükdaşımaların həcmi artacaq. Bu, dəhlizin bir qolu olan TRIPP layihəsi xüsusi əhəmiyyət kəsb edəcək. Onu da qeyd edim ki, yeni marşrut təkcə nəqliyyat imkanlarını genişləndirmir, həm də regionda sülh və sabitliyin möhkəmlənməsi üçün strateji əhəmiyyət kəsb edir.

Bu səbəbdən də TRIPP təşəbbüsü Mərkəzi Asiya ölkələri üçün də vacibdir. Qazaxıstan neft məhsullarının ixracını artırmaq, Özbəkistan Avropa bazarına çıxmaq və Türkmənistan Asiya bazarına yönəlməklə diversifikasiyanı gücləndirmək niyyətindədir. Regionun uran, qızıl və digər resurslarla zəngin olması layihənin strateji əhəmiyyətini daha da artırır. Ekspertlər hesab edirlər ki, yeni nəqliyyat kəməri əməkdaşlıq mühitini gücləndirəcək, qarşılıqlı etimadı artıracaq və regional inteqrasiya proseslərinə yeni dinamika qatacaq".

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Mətin Məmmədli** mətbuata açıqlamasında bildirib ki, Azərbaycan və Mərkəzi Asiya ölkələri artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilməkdədir: "Orta Dəhliz üzərindən yükdaşımaların artması və Zəngəzur dəhlizinin açılması regionun iqtisadi inteqrasiyasını sürətləndirəcək. Bu əmək-



daşlıq həm siyasi, həm iqtisadi, həm də strateji baxımdan regional gələcəyin əsas dayaqlarından birinə çevrilir".

Bu proses həm region dövlətlərinin maraqlarını təmin edir, həm də daha geniş coğrafiyada – Avropa və Asiya arasında qarşılıqlı bağlılığı gücləndirir. Statistik göstəricilərə əsasən, Orta Dəhliz üzərindən yükdaşımalar sürətlə artır və Zəngəzur dəhlizinin açılması ilə bu rəqəmlər daha da yüksələcək.

Bu isə TRIPP layihəsinin icrasını tezləşdirməyi gündəmə gətirir. Çünki layihə yalnız bir ölkənin deyil, bir sıra regional və qlobal aktorların maraqlarını əhatə edir. Layihənin uğurla həyata keçirilməsi həm ABŞ-ın strateji və iqtisadi maraqlarına, həm Mərkəzi Asiya dövlətlərinin inkişaf və əməkdaşlıq planlarına, həm də Azərbaycanın regional inteqrasiya və iqtisadi inkişaf məqsədlərinə uyğun gəlir. Ermənistan da bu məqamları nəzərə alaraq öz milli maraqlarını düzgün qiymətləndirməli və layihənin reallaşdırılması istiqamətində konkret addımlar atmalıdır. Belə bir yanaşma yalnız layihənin uğuruna xidmət etməyəcək, eyni zamanda, regionda əməkdaşlıq və qarşılıqlı fayda prinsiplərinin güclənməsinə töhfə verəcək. Bu gün Cənubi Qafqaz ilə bu region arasında güclü bir körpü formalaşmaqdadır. Bu isə hər iki regionda sabitliyi daha da gücləndirəcək. Əks halda, uduzan tərəf İrəvan olacaq".

Beləliklə, TRIPP layihəsi yalnız iqtisadi deyil, həm də siyasi və humanitar müstəvilərdə yeni imkanlar yaradan mühüm beynəlxalq təşəbbüsdür. Layihə Azərbaycan və Ermənistan arasında uzun müddətdir ehtiyac duyulan sülhün qurulmasına, eyni zamanda, Avrasiya boyunca ticarət marşrutlarının genişləndirilməsinə xidmət edir. Azərbaycan Ermənistanın istənilən beynəlxalq layihəyə qoşulmasına qarşı deyil, lakin regionda davamlı inkişafın yalnız hüquqi sülh, sərhədlərin tanınması və qarşılıqlı etimad bərpa olunduqdan sonra mümkün olacağını vurğulayır. Bakı üçün əsas prioritet sabitlik, təhlükəsizlik və suverenliyə hörmət prinsipidir. Bu prinsiplər təmin edildikdən sonra Cənubi Qafqazda istənilən layihənin uğurla həyata keçirilməsi üçün real imkan yaranacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# İrəvana strateji hədəfli səfər

**(əvvəli 1-ci səhifədə)**

Növbəti görüş baş nazir N.Paşinyanla keçirilib. Ermənistan baş naziri görüşdə iki ölkə arasında əməkdaşlığın son zamanlar yeni səviyyəyə qalxdığını qeyd edib. Ermənistan hökumətinin yaydığı məlumata görə, görüş zamanı N.Paşinyan Azərbaycanla sülhün bərqərar olmasına ABŞ-ın və Prezident Donald Trampın verdiyi şəxsi töhfəni yüksək qiymətləndirib. Baş nazir avqustun 8-də Vaşinqtonda keçirilən sülh sammiti çərçivəsində əldə edilən razılaşmaların və onların reallaşdırılması üzrə işlərin nəzərdə tutulan qrafikə uyğun olaraq həyata keçirilməsinin vacibliyini bildirib. Hökumət başçısı, həmçinin, ABŞ-la ikitərəfli münasibətlərdə müxtəlif sahələri və istiqamətləri əhatə edən zəngin gündəliyin mövcud olduğunu vurğulayıb.



ABŞ Dövlət katibinin müavini avqust ayında keçirilən görüşlərdə Prezident Tramp və Baş nazir Paşinyanın müəyyən etdiyi vizyonu irəli aparmaq üçün İrəvana səfər etdiyini bildirib. E.Huker qeyd edib ki, onun səfəri ticarət, investisiya, infrastruktur, regional qarşılıqlı əlaqə və təhlükəsizlik sahələrində əməkdaşlığın dərinləşdirilməsini müzakirə etmək üçün məqsədi daşıyır. Eyni zamanda, o, tarixi sammitdə qəbul edilmiş ikitərəfli razılaşmaların həyata keçirilməsi və "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" layihəsinin irəlilədilməsi məqsədilə Dövlət katibinin köməkçisinin müavini Sonata Kalterin rəhbərlik etdiyi ikitərəfli işçi qrupunun fəaliyyətə başladığını da vurğulayıb. E.Huker Paşinyanla görüşündə işçi qrupun detallarını təqdim edib.

Dövlət katibinin müavini qeyd edib ki, ABŞ və Ermənistan arasında davam edən əməkdaşlıq, Ermənistan və Azərbaycan arasında hərtərəfli sülh sazişinin imzalanması və Türkiyə ilə münasibətlərin normallaşdırılması istiqamətində əldə edilən nailiyyətlər bütövlükdə, Cənubi Qafqazı həyati əhəmiyyətli ticarət marşrutu kimi açmağı vəd edir. Onun fikrincə, bu, həm Amerika, həm də erməni xalqı üçün əhəmiyyətli faydalar yaradacaq ki, bu da Prezident Tramp və Baş nazir Paşinyanın səyləri sayəsində mümkün olub.

Görüş zamanı həmsöhbətlər Baş nazir Paşinyan və Prezident Tramp arasında əldə edilən razılaşmaların həyata keçirilməsi, işçi qrupunun fəaliyyəti, TRIPP layihəsi və nəzərdə tutulan proqramlarla bağlı məsələləri müzakirə ediblər.

Amerikalı diplomat günün sonuna yaxın Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla bir araya gəlib. "Armenpress"in verdiyi məlumata görə, tərəflər Cənubi Qafqazda bərqərar olmuş sülh barədə fikir mübadiləsi aparıb və bunu tarixi nailiyyət kimi qiymətləndiriblər.

Təhlükəsizlik Şurasının katibi sülh prosesinin institusionallaşdırılmasının vacibliyini bildirib və regional kommunikasiyaların açılması üçün davam edən səyləri vurğulayıb. Bu kontekstdə tərəflər TRIPP kommunikasiya layihəsini və onun çərçivəsində atılan addımları müzakirə ediblər. Qriqoryan və Huker, həmçinin avqustun 8-də Ermənistanla ABŞ arasında imzalanmış üç anlaşma memorandumunun əhəmiyyətini vurğulayıb və gələcək əməkdaşlıq üçün mümkün sahələri müəyyən ediblər. Təhlükəsizlik Şurasının katibi ikitərəfli tərəfdaşlığın genişləndirilməsi çərçivəsində ticari-iqtisadi əlaqələrin inkişaf etdirilməsinin və birbaşa hava əlaqələrinin yaradılmasının vacibliyini vurğulayıb.

Xanım Hukerin sonuncu görüşü Ermənistanın Türkiyə ilə münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndəsi, Milli Assambleyanın sədr müavini Ruben Rubinyanla keçirilib. Rubinyan bununla bağlı "Facebook" səhifəsində yerləşdirdiyi məlumatda bildirib: "Biz regional hadisələri və Ermənistan–Türkiyə sülh prosesini müzakirə etdik".

Onu da bildirək ki, E.Hukerin Azərbaycana da səfəri nəzərdə tutulub. ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin yaydığı məlumata görə, səfər bu həftə baş tutacaq. Dövlət katibinin müavini Bakıya İrəvandan gələcək. Onun regiona noyabrın 15-də başlayan səfəri noyabrın 21-də başa çatacaq.

* * *

ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavininin Ermənistana səfəri Vaşinqtonun Cənubi Qafqaz siyasətində yeni fəslə keçidin daha bir təsdiqi oldu. Bu səfər, ilk növbədə, ABŞ Prezidentinin regional sülh və təhlükəsizliklə bağlı baxışlarının təqdimatı kimi qiymətləndirilsə də, əslində TRIPP layihəsinin daha geniş siyasi çərçivəyə daşınması prosesinin tərkib hissəsidir. Ermənistan tərəfi bunu iki ölkə arasında strateji əməkdaşlığın genişlənməsi kimi təqdim edir, lakin Vaşinqtonun məqsədləri daha çox regional arxitekturanın yenidən dizaynı ilə bağlıdır.

Hukerin İrəvanda keçirdiyi görüşlərin ardıcıllığı da ABŞ-ın əhatəli gündəm qurmaq niyyətini göstərir. Azərbaycanla sülh danışıqlarında vasitəçilik mesajları Paşinyanla görüşdə açıq şəkildə ifadə edildi. Baş nazir öz çıxışında ABŞ-ın prosesə verdiyi töhfəni xüsusi vurğulamaqla həm Vaşinqtondan siyasi təminat almağa, həm də daxili auditoriyaya ölkəsinin böyük dövlətlərlə əməkdaşlığını nümayiş etdirməyə çalışdı.

Görüşlərdə TRIPP layihəsinin davamlı şəkildə qabardılması diqqətdən qaçmır. Ermənistan tərəfi TRIPP-i iqtisadi və infrastruktur paket kimi təqdim etsə də, ABŞ-ın bunu geosiyasi alət olaraq istifadə etdiyi açıq şəkildə görünür. Dövlət katibinin müavini Hukerin çıxışlarında "Ermənistan–Azərbaycan arasında hərtərəfli sülh", "regional kommunikasiyaların açılması" və "Türkiyə ilə normallaşma" kimi yanaşmalar Vaşinqtonun Cənubi Qafqazda nəqliyyat-siyasi ekosistemi tam şəkildə formalaşdırmaq niyyətindən xəbər verir. Bu kontekstdə kommunikasiya xətlərinin açılması təkcə iqtisadi layihə kimi yox, həm də ABŞ-ın regional nüfuzunun artırılmasına xidmət edən strateji seçim kimi dəyərləndirilir.

Paşinyan administrasiyasının bu prosesdə Vaşinqtona xüsusi önəm verməsinin səbəbi həm də odur ki, Ermənistan uzun illərdir Rusiya ilə münasibətlərdə yaşadığı dərin siyasi çatların nəticəsində yeni təhlükəsizlik dayaqları axtarır. ABŞ isə bu boşluğu doldurmağa çalışır və TRIPP layihəsi bunun üçün açar rolunu oynayır. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşdə "sülh prosesinin institusionallaşdırılması" tezisi də məhz bu məntiqə dayanır: Vaşinqton və İrəvan uzunmüddətli əməkdaşlığı hətta formal mexanizmlərə bağlamağa çalışırlar.

ABŞ diplomatiyasının Ermənistandakı təması həm də Türkiyə–Ermənistan normallaşmasına yeni impuls yaratmaq məqsədi güdür. E.Hukerin R.Rubinyanla görüşündə verilən qısa, amma məzmunlu mesajlar Vaşinqtonun Ankara–İrəvan xəttini TRIPP çərçivəsində mühüm elementə çevirmək niyyətinin göstəricisidir. Bu, həm regiondakı kommunikasiya xətlərinin açılmasına, həm də ABŞ-ın Orta Dəhliz strategiyasına uyğun gələn yeni reallıqlara işarə edir.

Səfərin Bakı mərhələsinin anons edilməsi onu göstərir ki, Vaşinqton regionu yalnız Ermənistan prizmasında deyil, ümumi sülh prosesi çərçivəsində qiymətləndirmək niyyətindədir. Hakim administrasiya Ermənistan və Azərbaycan arasında əldə olunan razılaşmaların həyata keçirilməsini öz diplomatik xəttinin uğuru kimi təqdim edir. Bu baxımdan Hukerin Bakıya İrəvandan gəlməsi simvolik olaraq Vaşinqtonun iki ölkəyə paralel deyil, ardıcıl təsir göstərmək taktikası seçdiyini göstərir.

**Siyasi şərhçi Rizvan Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, E.Hukerin re-



giona səfəri ABŞ-ın Cənubi Qafqazda yeni siyasi mühit qurmaq cəhdinin davamıdır. Onun sözlərinə göprə, TRIPP layihəsi təkcə Amerika investisiya paketi deyil, həm də bölgədə təsir balansını Vaşinqtonun xeyrinə dəyişdirən kompleks geosiyasi mexanizmdir: "Ermənistanın bu prosesdə aktiv şəkildə yer alması onun siyasi kursunun Qərbə yönəldiyini yenidən təsdiqləyir. Lakin ABŞ-ın planlarının reallaşmasında əsas həlledici amil Azərbaycanla münasibətlər, xüsusən də kommunikasiyaların açılması olacaq. Regionda sülhün institusionallaşdırılması yalnız Bakının iştirakı ilə mümkündür və ABŞ bunu çox yaxşı anlayır. Buna görə də Hukerin Bakıya səfərinin gündəliyi real mexanizmlərin formalaşdırılması baxımından daha praktik və nəticəyönlü olacaq".

***Səxavət HƏMİD***
***XQ***

# Qazax rayonunda mina hadisəsi

**Ermənistanla sərhəd bölgədə yerləşən Qazax rayonunun Bala Cəfərli kəndi ərazisində noyabrın 17-də mina hadisəsi baş verib. Bu barədə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) məlumat yayıb.**




Bildirilib ki, agentliyin əməkdaşı 1988-ci il təvəllüdlü Samir Mübariz oğlu İmamverdiyev xidməti vəzifəsini yerinə yetirərkən piyadaəleyhinə mina partlayışı olub. Hadisə nəticəsində xəsarət alan əməkdaşın sağ ayağı topuq nahiyəsindən amputasiya edilib.

Samir İmamverdiyev Qazax Rayon Mərkəzi Xəstəxanasına təxliyə olunub, vəziyyəti qənaətbəxşdir, həyati təhlükəsi yoxdur.

***XQ***

# STEAM Azərbaycan Festivalı



**Noyabrın 17-də Elm və Təhsil Nazirliyinin dəstəyi və “STEAM Azərbaycan” layihəsinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində Beynəlxalq STEAM Azərbaycan Festivalına start verilib.**

Əvvəlcə SAF festivalının 5 illiyinə həsr olunmuş videoçarx nümayiş olunub.

“STEAM Azərbaycan” layihəsinin rəhbəri İqrar Nəzərov “STEAM Azərbaycan” layihəsinin 300 mindən çox şagirdi, 400-dən çox məktəbi əhatə etdiyini söyləyib. O bildirib ki, hazırda STEAM dərsləri III–IX siniflərdə tədris olunur. Qeyd edib ki, ümumilikdə ölkə üzrə 21 STEAM Mərkəzi fəaliyyət göstərir.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında STEAM Azərbaycan layihəsinin əhəmiyyətindən danışıb. Nazir bildirib ki, növbəti tədris ilindən başlayaraq Qarabağ Universitetində həm ayrı-ayrı fənlər üzrə müəllim hazırlığına, həm də STEAM təhsilinin ayrıca bir metodologiya və ixtisas kimi tədrisinə başlanılacaq. Nazir qeyd edib ki, STEAM Azərbaycan layihəsində iştirak edən şagirdlərin sayı bu günədək dəfələrlə artıb.



Çıxışlardan sonra festivalda yarışacaq komandaların təqdimatı və bədii hissə baş tutub.

Qeyd edək ki, STEAM - 5 əsas sahənin birgə tədrisidir. Belə ki, STEAM əsaslı tədris modeli elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatı inteqrasiya olunmuş şəkildə tədris etmək ideyası üzərində qurulub.

Xatırladaq ki, festival çərçivəsində 18 yarış kateqoriyası üzrə 20-dən artıq ölkədən minlərlə şagird, tələbə, mentor və ekspert iştirak edir. Yarış kateqoriyaları robototexnika, süni intellekt, bərpaolunan enerji, dron və peyk texnologiyaları, incəsənət, innovativ layihələr və mühəndislik sahələrini əhatə edir.

Beynəlxalq STEAM Azərbaycan Festivalı noyabrın 19-dək davam edəcək.

Festivalın final mərhələsinə 1400-dən çox iştirakçı vəsiqə qazanıb. Onlardan 202-si xarici ölkəni təmsil edir. Ümumilikdə isə festivalda təmsil olunan ölkələrin sayı Azərbaycanla birgə 22-dir.

*XQ*

# “907-ci düzəliş”in ləğv edilməməsi Konqresdə ətalət göstəricisidir

## *ABŞ-ın qanunvericilik sistemi köhnə ənənədən xilas olmağa tələsmir*

**Oxuculara ABŞ Müdafiə Nazirliyinin “Stars and Stripes” nəşrinin Konqresi “Azadlığa Dəstək Aktı”na 907-ci düzəlişi tamamilə ləğv etməyə və bununla da Azərbaycanla ABŞ arasında əməkdaşlığı gücləndirməyə çağıran məqaləsi barədə məlumat vermişdik. Amma dünyanın supergücünün parlamentinin qanunlara əlavə və düşəlişlər etməkdə mühafizəkar davrandığını qeyd etmişdik. Konqresin bu mühafizəkarlığı cəmiyyətdə, bir növ, mənəvi həmrəylik simvolu kimi qəbul edilən normaya çevrilib. Bir də ki, düzəlişin ləğvinin zərurətə çevrildiyini seçicilərə izah etməkdənsə, qanunvericilər üçün köhnə mexanizmi necə varsa saxlamaq daha asandır.**



Bu vərdiş xüsusilə aktiv erməni icmasına malik dövləti təmsil edən Konqresin üzvləri üçün norma halını alıb. Axı qanunvericiliyə ediləcək istənilən xarakterli düzəliş yeni presedent kimi dərhal medianın gündəmini zəbt edəcək, onun müxtəlif ittihamlarına səbəb olacaq. Məhz bu səbəbdən belə bir məsələnin qaldırılması Kapitolidə əyləşənlər üçün qətiyyən sərfəli deyil. Baxmayaraq ki, onlara çox yaxşı məlumdur ki, Birləşmiş Ştatların qanunvericiliyinə yamaq sayılan bu bənd Qarabağ münaqişəsinin qızğın vaxtında erməni diasporunun təsiri altında qəbul edilib və bu gün də Vaşinqtonun Bakıya birbaşa yardımını məhdudlaşdırır.

Azərbaycan ABŞ-la ikitərəfli görüşlərdə “Azadlığa Dəstək Aktı”na bu ədalətsiz və bədnam düzəlişin ləğvində israrlı olsa da, Konqres indiyədək bu addımı atmaqdan boyun qaçırıb. Ortaya sual çıxır: niyə? “Stars and Stripes” jurnalının Konqresin üzvlərinə məlum çağırışı siyasi siqnal kimi qəbul edilə bilərmi? Məqsəd, doğrudanmı ABŞ–Azərbaycan münasibətlərinə yenidən baxmağa nail olmaqdır?

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin sədri, politoloq Fərid Şəfiyev** XQ-yə açıqlamasında qeyd etdi ki, Azərbaycan uzun müddətdir 907-ci düzəlişi ləğv etməyə çalışsa da, bunun tamamilə aradan qaldırılması kifayət qədər mürəkkəb məsələdir: “Düzəlişin tətbiqinin dayandırılması bir məsələdir, onun tamamilə ləğvinə nail olmaq isə başqa şeydir. Biz görürük ki, 1970-ci illərdə ABŞ-da Sovet İttifaqı ilə bağlı qəbul edilmiş bəzi qanunlar bu gün də öz qüvvəsində qalmaqdadır. Misal üçün, bu yaxınlarda ABŞ–Mərkəzi Asiya sammitində 1970-ci illərdə qəbul edilmiş və SSRİ-yə müəyyən məhdudiyyətlər tətbiq edən “Cekson-Venik düzəlişi” digər məsələlərlə yanaşı, müzakirə olundu. Həmin düzəliş sonralar keçmiş Sovet İttifaqının bir sıra respublikalarına da şamil edildi və formal olaraq hələ də qüvvədədir. Bu düzəlişin tətbiqi bəzən dayandırılmış və ya məhdudlaşdırılmış, amma heç vaxt tamamilə ləğv edilməmişdir. Bunun səbəbi, birincisi, Konqresin hər iki palatasında iqtidardakı partiyanın mütləq səs çoxluğu tələb olunur. İkincisi, həm demokratlar, həm də respublikaçılar



belə bir düzəlişin ləğvinə səs verməyə hazır olmalıdırlar. Təcrübə göstərir ki, belə təsadüflər, çox nadir hallarda baş verir”.

Politoloq hesab edir ki, Ağ Ev və konqresmenlər qəsdən bəzi belə cəza tədbirlərini “ehtiyatda” saxlayır, lazımi anda siyasi qovluqdan çıxararaq təzyiq vasitəsi kimi dövriyyəyə buraxırlar.

Pentaqonun rəsmi nəşrinin çağırışı ilə ABŞ müttəfiqlərinə və tərəfdaşlarına nümayiş etdirir ki, Vaşinqton bu gün tarixdən miras qalmış və “istismar müddəti başa çatmış” vasitələrlə deyil, praqmatizmə əsaslanan yeni xətlə hərəkət edir. Məqsəd regionda ABŞ-ın siyasətinə inamı gücləndirməkdir. Digər bir versiyaya görə, bu cür nəşrlərin qanunvericilikdəki müəyyən müddəalara yenidən baxılması çağırışı, demək olar ki, həmişə siyasi dairələrin və ictimai rəyin reaksiyasını yoxlamaq üçün ortaya atılır. 907-ci düzəliş, şübhəsiz ki, 33 il bundan əvvəl – Azərbaycanın bir hissəsinin işğal altında olduğu dövrdə tamamilə ədalətsiz olaraq qəbul edilmiş qərarlardan biridir.

Donald Trampın hakimiyyəti dövründə ABŞ–Azərbaycan münasibətlərinin xeyli yaxşılaşdığına diqqəti çəkən F.Şəfiyevin qənaətinə görə, 907-ci düzəlişin tamamilə ləğv edilib-edilməyəcəyi hələlik sual olaraq qalmaqdadır: “Axı, təkrar edirəm, bunun üçün Konqresin hər iki palatasının - Nümayəndələr Palatasının və Senatın səs çoxluğu ilə təsdiqi lazımdır. Problem, məncə, ilk növbədə demokratlardadır. Baxmayaraq ki, bu və ya digər səbəbdən Ermənistan tərəfini və ya bununla bağlı təşəbbüsləri dəstəkləyən bəzi respublikaçılar da var. Buna görə də, çətin ki, düzəliş tezliklə tamamilə ləğv edilsin. Baxmayaraq ki, əlbəttə, bu proqnozumda yanılmaqdan məmnun olaram”.

*

Okeanın o üzündəki ekspertlərin bir çoxu bu qənaətdədir ki, 907-ci düzəlişin qorunub saxlanması onun praktiki əhəmiyyəti ilə deyil, ABŞ siyasətinin simvolik və institusional ətaləti ilə bağlıdır. Bu düzəlişin 1990-cı illərin əvvəllərində, Qarabağ münaqişəsinin kəskin mərhələsində meydana çıxdığı və erməni diasporunun fəal şəkildə işğalçı Ermənistanın “qurban imicini” formalaşdırdığı və Ermənistana qanunvericilik dəstəyi axtardığı bir dövrdə qəbul edildiyi fikrini bölüşənlər də az deyil. Yəni elə o vaxtdan bu müddəa Konqresin mənəvi mövqeyinin, bir növ, simvoluna çevrilib və ondan imtina etmək xeyli çətindir. Bunu etmək istər-istəməz öz prinsiplərinə “xəyanət etmək” kimi ittihamlara səbəb olardı. Amerikalı bir çox siyasətçilər üçün bu, Vaşinqtonun özünü kiçik xalqların himayədarı kimi göstərməyə çalışdığı “soyuq müharibə” dövrünün mənəvi irsinin bir hissəsinə çevrilib. Amma o da gün kimi aydındır ki, belə bir simvolun ləğvi arxaikləşmiş prinsiplərdən uzaqlaşmanın etirafı, praqmatizmin idealizm üzərində qələbəsi kimi qiymətləndiriləcək.

Pentaqonun məlum nəşrinin Bakıya açıq siqnal göndərdiyini də istisna etmək olmaz. Çünki Vaşinqtonda Azərbaycanla daha sıx əməkdaşlığın tərəfdarlarının sayı günbəgün artmaqdadır. Bu, paralel olaraq, rəsmi Bakını Ağ Evlə diplomatik təmasları daha da aktivləşdirməyə və tərəfdaş kimi etibarlılığını nümayiş etdirməyə sövq edir.

Nəhayət, nəşr müraciətində onu da vurğulayır ki, ABŞ siyasətində qərarlar heç vaxt gözlənilmədən, birdən-birə verilmir. Yazır ki, hər hansı məsələ Konqres səviyyəsinə çatdırılmazdan əvvəl bir sıra test sınaqlarından keçirilir. Çox güman ki, bu halda dərgi ekspert icmasından qanunvericilik orqanına fikir ötürmək üçün bir vasitə kimi istifadə edir.

***İ.HƏSƏNQALA***
***XQ***

**Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransı (WTDC-2025) MDB məkanında ilk dəfə Azərbaycanda keçirilir və bu fakt özü-özlüyündə tarixi əhəmiyyət daşıyır. Belə mötəbər tədbirə ev sahibliyi hüququnun qazanılması ölkəmizin telekommunikasiya sahəsində artan nüfuzunun və uğurlu əməkdaşlığın nəticəsidir. Konfransa dünyanın 150-dən çox ölkəsindən 2 mindən artıq nümayəndənin, o cümlədən 300-dən çox gənc iştirakçının qatılacağı gözlənilir. Bu, Azərbaycanın beynəlxalq rəqəmsal forumlar üçün etibarlı məkana çevrildiyini göstərir.**

# WTDC-2025: Ölkəmiz yeni ilkə imza atdı




WTDC BMT-nin Telekommunikasiya İttifaqı tərəfindən 4 ildən bir təşkil olunan qlobal sammitdir. Məqsəd ölkələr arasında rəqəmsal fərqliliyi aradan qaldırmaq, rəqəmsal transformasiyanı təşviq etmək və telekommunikasiya sahəsində qlobal inkişaf strategiyalarını müəyyənləşdirməkdir. Bakı Konqres Mərkəzində reallaşan WTDC-2025 həm də gənclər üçün açıq beynəlxalq platforma olaraq diqqət çəkir. Gənc iştirakçılar dünya üzrə texnoloji yeniliklər barədə biliklər əldə edir, aparıcı mütəxəssislərlə tanış olur və qlobal rəqabət mühitində öz bacarıqlarını inkişaf etdirmək imkanı qazanırlar. Eyni zamanda, bu tədbir Azərbaycanın İKT sahəsində əldə etdiyi inkişafı bir daha dünyaya nümayiş etdirir və informasiya-kommunikasiya texnologiyaları üzrə beynəlxalq əməkdaşlığın güclənməsinə təkan verir.

Cari konfrans “İnklüziv və dayanıqlı rəqəmsal gələcək üçün universal, faydalı və əlçatan bağlantı” mövzusuna həsr olunub. Bu mövzu qlobal rəqəmsal inkişaf gündəliyinin əsas prioritetini – hər kəs üçün əhatəli və dayanıqlı rəqəmsal bağlantının təmin olunmasını əks etdirir. WTDC-2025 çərçivəsində müzakirələr əsasən bütün dünyada universal və sərfəli internet bağlantısına nail olmaq yönündə aparılır. Qeyd edək ki, BTİ Baş katibi Dorin Boqdan-Martin vurğulayıb ki, dünyada 2,6 milyard insanın internetə çıxışı yoxdur və rəqəmsal inkişaf texniki məsələ olmaqdan çox, hamı üçün inklüziv və davamlı gələcəyin qurulması yolunda kollektiv iradənin sınağıdır. Bu səbəbdən, Bakıdakı konfrans rəqəmsal transformasiya öhdəliklərini konkret fəaliyyətə çevirmək üçün qlobal ictimaiyyət üçün mühüm məqam hesab olunur.

Bakı görüşündə BTİ-yə üzv dövlətlər qarşıdakı 4 il üçün Telekommunikasiya İnkişaf Sektorunun (ITU-D) prioritetlərini müəyyən edəcək, regional təşəbbüsləri təsdiqləyəcək və 2026-2029-cu illər dövrü üzrə fəaliyyət planını qəbul edəcəklər. Bu qərarlar rəqəmsal transformasiyanın davamlı inkişafı üçün yol xəritəsi rolunu oynayacaq.

Azərbaycan son illərdə telekommunikasiya və rəqəmsal inkişaf sahəsində böyük irəliləyiş əldə edib. Ölkədə genişzolaqlı internet infrastrukturu əhəmiyyətli dərəcədə modernləşdirilib, rəqəmsal xidmətlər və elektron hökumət həlləri sürətlə tətbiq olunur. Nəticədə, hazırda əhalinin təxminən 88-89 faizi internet istifadəçisidir ki, bu göstərici bölgə üzrə orta göstəricidən xeyli yüksəkdir. İnternet sürətləri də mühüm dərəcədə artaraq son beş ildə 7 dəfədən çox yüksəlib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşəbbüsü ilə ölkədə Technest, Technion, Digital Academy kimi proqramlar icra edilir – bu layihələr gənc azərbaycanlıların rəqəmsal dövrdə tələb olunan bilik və bacarıqlara yiyələnməsini təmin edir. Hökumətin elektron xidmət platforması “MyGov” vətəndaşlara müxtəlif dövlət xidmətlərindən vahid pəncərə vasitəsilə onlayn faydalanmaq imkanı yaradır və cəmiyyətin rəqəmsallaşma prosesinə aktiv qoşulmasını təmin edir. Bundan əlavə, dövlət orqanları arasında sənədlərin real vaxt rejimində təhlükəsiz mübadiləsi üçün "Rəqəmsal Sənəd Dövriyyəsi" kimi sistemlər qurulub. Telekom sektorundakı bu nailiyyətlər sayəsində Azərbaycan beynəlxalq hesabatlarda da ön sıralarda qərarlaşır və regional rəqəmsal mərkəzə çevrilməkdədir.

Ölkəmiz telekommunikasiya sahəsində beynəlxalq təşəbbüslərdə fəal iştirak edir və texnoloji yenilikləri tez mənimsəyir. Son onillikdə Azərbaycanın ilk süni peyklərinin orbitə buraxılması (məsələn, Azerspace-1 və Azerspace-2 telekommunikasiya peykləri) ölkənin informasiya mübadiləsi imkanlarını genişləndirib və regionda rəqəmsal yayıma töhfə verib. Eyni zamanda, mobil rabitə və fiber-optik şəbəkələrin genişləndirilməsi sayəsində həm şəhərlərdə, həm də kənd rayonlarında yüksək sürətli internetə çıxış imkanı yaxşılaşıb. Bu inkişaf göstəriciləri WTDC-2025-də də diqqətə çatdırılıb. Azərbaycanın rəqəmsal transformasiya sahəsində təcrübəsi digər ölkələr üçün nümunə kimi təqdim olunur.

WTDC-2025-ə ev sahibliyi etməklə Azərbaycan beynəlxalq arenada imicini daha da gücləndirir. Həqiqətən də, Azərbaycan son illərdə bir sıra mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməklə qlobal arenada öz yerini möhkəmləndirib. Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətində bildirdiyi “Bakı bu gün yalnız qlobal telekommunikasiya mərkəzi deyil, həm də beynəlxalq rəqəmsal əməkdaşlıq məkanıdır” fikri ölkəmizin artan rolunu aydın ifadə edir. Yəni paytaxtımız artıq qlobal rəqəmsal gündəliyin formalaşdığı əsas məkanlardan birinə çevrilib.

Bu konfransın Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq telekommunikasiya mərkəzi kimi imicini gücləndirməklə yanaşı, konkret praktiki nəticələr də verir. Belə ki, konfrans çərçivəsində Bakıda BTİ-nin Regional Akselerasiya Mərkəzinin açılması planlaşdırılır. Bu mərkəz BTİ-nin qlobal innovasiya şəbəkəsinin bir hissəsi olacaq və regionda innovasiya və sahibkarlıq sahəsində aparıcı platformaya çevriləcəkdir. Sözügedən təşəbbüs, Azərbaycanın rəqəmsal innovasiya habına çevrilməsi yolunda növbəti addımdır və beynəlxalq təşkilatların ölkəmizə artan etimadının göstəricisidir.

Nəticə etibarilə, WTDC-2025-in Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq imicinə və telekommunikasiya sektoruna mühüm töhfələr verməkdədir. Bu tədbir bir tərəfdən qlobal rəqəmsal inkişaf üçün yol xəritəsinin müəyyənləşdiyi platformadırsa, digər tərəfdən Azərbaycana öz rəqəmsal gündəliyini təqdim etmək, tərəfdaş ölkələrlə yeni əməkdaşlıq imkanları yaratmaq şansı verir. Dünyanın dörd bir yanından gələn dövlət və hökumət nümayəndələri, ekspertlər ölkəmizin nailiyyətləri ilə tanış olur, ölkəmizi regional rəqəmsal lider kimi qəbul edirlər. WTDC-2025 Azərbaycan üçün rəqəmsal tarixində yeni bir zirvə olmaqla yanaşı, qlobal telekommunikasiya ailəsindəki mövqeyimizi daha da möhkəmləndirən əlamətdar bir hadisədir.

*XQ*

### *Ekspert rəyi*



**Elvin ABBASOV,**
**Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri**

WTDC-2025-in Bakıda keçirilməsi Azərbaycanın regional və qlobal rəqəmsal gündəmdəki rolunu bir daha təsdiqləyir. Bu konfransın MDB məkanında ilk dəfə ölkəmizdə təşkil olunması təsadüfi deyil; Azərbaycanın telekommunikasiya infrastrukturunda əldə etdiyi nailiyyətlər, rəqəmsal transformasiyaya verdiyi prioritet və regionda etibarlı data tranzit mərkəzi kimi mövqeyi bu seçimi şərtləndirib.

Tədbirin əhatəliliyi, 150 ölkədən 2 mindən çox nümayəndənin və 300-dən artıq gəncin iştirak edəcəyi faktı, Azərbaycanın qlobal telekommunikasiya və rəqəmsal inkişaf ekosistemində etibarlı tərəfdaş kimi qəbul olunduğunu göstərir. Bu, yalnız prestij göstəricisi deyil, həm də ölkənin strateji hədəfləri, regional telekommunikasiya liderliyi, rəqəmsal iqtisadiyyatın inkişafı və innovativ texnologiyalara çıxışın genişləndirilməsi baxımından real töhfə deməkdir.

Belə bir platforma həm beynəlxalq təcrübə mübadiləsi, həm də yerli təşəbbüslərin qlobal standartlarla uyğunlaşdırılması üçün fürsət yaradır. Eyni zamanda gənclərin aktiv iştirakı, Azərbaycan üçün yeni nəsil rəqəmsal kadrların və ölkənin davamlı rəqəmsal liderlik vizyonunun reallaşmasına dəstək verir. Bu mənada WTDC-2025-in Bakıda keçirilməsi Azərbaycanın telekommunikasiya sahəsindəki inkişafını və regional rolunu beynəlxalq səviyyədə möhkəmləndirir.

# “Konstitusiya və Suverenlik İli” hüquqi dövlətin uğurlarını nümayiş etdirir

**Tarixə nəzər saldıqda, görürük ki, hər bir xalqın vahid ali amallar, o cümlədən suverenlik və müstəqillik uğrunda, eləcə də öz hüquqları və mənafeləri ilə bağlı məsələləri həll etmək, həmçinin ali qanun olan Konstitusiyanın qəbul edilməsi məqsədilə ümumxalq səsverməsi (referendum) keçirməsi üçün birləşməsində zəruri olan milli ideologiya böyük siyasi liderlərin dövlətçilik konsepsiyasında reallaşır. Azərbaycan xalqı ilə bağlı bu şərəfli missiyanı məhz Ümummilli lider Heydər Əliyev həyata keçirmişdir. Ulu öndər Heydər Əliyev həyatının bütün dövrlərində tarixi ənənə və soykökünün təməl prinsipləri üzərində milli ideologiyanın formalaşması və möhkəmlənməsi naminə müstəsna xidmətlər göstərmiş, milli şüurun düzgün məcrada inkişafına nail olmuş, xalqa məxsus adət-ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmış, azərbaycançılığı milli ideologiyaya çevirməyə nail olmuşdur.**



14 iyul 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev milli-mənəvi dəyərləri bərqərar etmək, xalqın şanlı keçmişini, soykökünü qaytarmaq, habelə zəngin mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, eləcə də ana dilini inkişaf etdirmək üçün ölçüyəgəlməz işlər görmüşdür. Ümummilli lider hələ ötən əsrin 70-ci illərində Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinin, o cümlədən mütəfəkkir fikirli alimlərinin, ədiblərinin və şairlərinin xatirəsini əbədiləşdirməklə, onların əsərlərinin nəşrini təmin etməklə milli ədəbi düşüncənin də inkişafına təkan vermiş, azərbaycanlıların necə zəngin tarixə, qədim soykökünə malik olduğunu dünyaya bəyan etdirmişdir. Əzmkar lider Nizami Gəncəvinin və İmadəddin Nəsiminin yubileylərinin dünya miqyasında qeyd olunması ilə bağlı partiya qərarlarının verilməsinə belə nail olmuşdur.




Azərbaycan dilini azərbaycançılığın başlanğıc məqamı, ən mühüm cəhəti, təməl prinsipi hesab edən Ümummilli lider Heydər Əliyev kosmopolit ideyaların hökm sürdüyü bir dövrdə milli məfkurənin qorunub saxlanılması istiqamətindəki fəaliyyətində ana dilinin inkişaf etdirilməsi sahəsində də bir sıra mühüm işlər görmüşdür. Müdrik lider yəqin bilirdi ki, xalqa milli-mənəvi dəyərləri aşılamaq üçün ona ilk növbədə öz dilini qaytarmaq və sevdirmək lazımdır. Rəsmi çıxışlarının əksəriyyətində Azərbaycan dilində nitq söyləyən Ulu öndər bütün rəhbər vəzifəlilərdən də bunu tələb edirdi. Onun rəsmi partiya tədbirlərində ana dilində nitqləri həmin vaxtadək heç vaxt işlənməmiş milli siyasi ədəbi dil üslubunu yaratmaqla bərabər, böyük tarixi məna kəsb edirdi.

1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən, ciddi maneələrə baxmayaraq, Azərbaycan dilinin bu ali hüquqi aktda dövlət dili kimi təsbit olunması da cəsarətli şəxsiyyətin qətiyyətli mübarizəsinin nəticəsi idi. Bundan sonra, hüquqi əsas yarandığı üçün ana dilini inkişaf etdirmək, bu dildə elmi və bədii yaradıcılığı genişləndirmək, televiziya, mətbuat, radio, kino, teatr quruculuğunda milli dilin tətbiqini genişləndirmək daha asan oldu. Təbliğat üçün xüsusi önəm kəsb edən bu sahələrdə də milliləşmə prosesi başladı. Məhz Ümummilli liderin təşəbbüsü və himayəsi ilə xalqımızın tarixini, adət-ənənələrini, qəhrəmanlıq keçmişini və s. əks etdirən mövzularda filmlər çəkildi. Təsadüfi deyildir ki, “Nəsimi”, “Babək”, “Dəli Kür” və digər bu kimi filmlər gənclərin milli ruhda tərbiyəsində, sonralar onların kütləvi surətdə suverenlik və müstəqillik hərəkatına qoşulmasında böyük rol oynadı.

Sadalanan misilsiz xidmətlər millətin həmrəyliyində və mənəvi bütövlüyündə, monolitliyində, bir xalq kimi formalaşması prosesində aparıcı amil olmaqla yanaşı, həm də milli birliyin yaranmasında, bununla da suverenliyin qazanılmasında və müstəqilliyin əldə olunmasında, eləcə də taleyüklü məsələlərin həlli zamanı ümumxalq səsvermələrinin (referendumların) uğurla keçirilməsində olduqca mühüm əhəmiyyət kəsb etmişdir.

Ümummilli liderin 15 iyun 1993-cü il tarixdə xalqın israrlı tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar olunması iqtisadi inkişafa zəmin yaratmaqla yanaşı, yeni hədəflərə çatmağa rəvac verdi. Onun təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş fundamental iqtisadi islahatlar sayəsində sürətlə qüdrətlənən Azərbaycanda paralel olaraq digər sahələrdə, o cümlədən hüquq sahəsində də əsaslı islahatlar aparıldı. Məhz Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı.

Məlum olduğu kimi, 1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır. Yalnız xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı.

Ümummilli lider Heydər Əliyevin hüquqi dövlət quruculuğunda ən böyük xidmətlərindən biri də müstəqil respublikamızın ilk Konstitusiyasının yüksək demokratik meyarlar və ümumbəşəri prinsiplər əsasında hazırlanması və ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi üçün təşəbbüs göstərməsi və bu işə hərtərəfli dəstək verməsi olmuşdur. Təsadüfi deyil ki, bu ali qanun xalq arasında “Heydər Əliyev Konstitusiyası” adlandırılır. Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi.

Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır. 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiya ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə bərabər, demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu. Hər bir dövlətin demokratik inkişafı üçün Konstitusiyanın qəbul edilməsi ilə yanaşı, eyni zamanda, onun aliliyinin təmin olunması üçün konstitusiya nəzarəti institutunun yaradılması da labüddür. Buna görə də, məhz Ulu Öndərin təşəbbüsü və onun 14 iyul 1998-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradıldı. Əsas təyinatı Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etməkdən, hər kəsin ölkəmizin əsas qanununda təsbit edilmiş hüquq və azadlıqlarının etibarlı müdafiəsindən ibarət olan ali konstitusiya ədalət mühakiməsi orqanı, peşəkar hakimlərdən ibarət tərkibdə fəaliyyətini uğurla davam etdirir.

Məlum olduğu kimi, Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Dövlət başçısı Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə 2025-ci ili Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan etmişdir.

“Konstitusiya və Suverenlik İli” də Azərbaycan tarixinə uğurlu illərdən biri kimi düşünür. Azərbaycan Xalqının Ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasətini dövrün tələblərinə uyğun reallaşdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək erudisiyası, mükəmməl siyasi strategiyası və yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində ölkəmzin çoxşaxəli inkişafı və əhalinin güzəranının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunmuşdur. Dünyada gedən mürəkkəb proseslərə, ümumbəşəri ciddi problemlərə rəğmən respublikamızda iqtisadiyyat güclənmiş, bütün sahələrdə mütəmadi olaraq mütərəqqi islahatlar həyata keçirilmiş və hər bir istiqamət üzrə ardıcıl nailiyyətlər əldə olunmuşdur.

Eyni zamanda, regionlarımızın tarazlı inkişafı ilə bərabər, lider-xalq-ordu birliyi nəticəsində hərbi və siyasi-diplomatik yolla işğaldan azad edilmiş əzəli ərazilərimizdə abadlıq-quruculuq işləri sürətlə davam etdirilmişdir. Dövlətimizin hərtərəfli qüdrətlənməsində və əldə olunan ardıcıl uğurlarda, eləcə də beynəlxalq əlaqələrimizin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında zəngin biliklərə, dərin düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik, hər bir məqamda dövlət başçısının yanında olan Mehriban xanım Əliyevanın zəngin fəaliyyətinin özünəməxsus rolu vardır. Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə və prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir. Əminəm ki, növbəti illərdə də möhtərəm Prezidentin rəhbərliyi ilə dövlətimiz daha da qüdrətlənəcək, eləcə də xalqımızın rifahı hərtərəfli yüksələcəkdir.

***Xa la VƏLİYEV,***
***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi,***
***ədliyyə general-leytenantı,***
***əməkdar hüquqşünas***

**1988-ci il noyabrın 17-dən dekabrın 4-dək davam edən mitinqlərdə müxtəlif təbəqələrdən olan insanlar hüquqsuzluğa son qoyulmasını, Azərbaycanın tarixi torpaqlarına uzanan əllərin kəsilməsini tələb edirdilər. Paytaxtın Lenin (sonra Azadlıq adlandırılacaq) meydanını fasiləsiz dolduran yüz minlərlə insan milli azadlıq və istiqlal ideyalarını ucadan bəyan edirdi. Bu hərəkat Sovet məkanında ən geniş və təsirli kütləvi etiraz aksiyası kimi tarixə düşdü. 17 noyabrda başlanan hadisələr milli oyanışın, xalqın öz taleyinə sahib çıxmaq əzminin rəmzinə çevrildi. Azadlıq və ədalət uğrunda birləşən insanlar bütün dünyaya göstərdilər ki, Azərbaycan xalqı öz haqqını tapdatmağa imkan verməyəcək və müstəqillik ideallarına doğru irəliləyəcək.**

# Çağdaş tariximizin qürur səhifəsi

## *17 Noyabr Azərbaycanın dövlət müstəqilliyinə aparan yolun başlanğıcıdır*



Üstündən iki il keçəndən sonra – 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Heydər Əliyevin sədrliyi ilə keçirilən tarixi sessiyasında muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ müzakirə olundu. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun Dövlət Bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən dövlətin müstəqilliyinə və suverenliyinə doğru tarixi yolun başlanğıcı qoyuldu.

1992-ci il noyabrın 17-də Milli Dirçəliş Günü rəsmi şəkildə elan olundu. Hər il olduğu kimi, bu il də ölkədə bu gün tariximizin qürur səhifəsi kimi qeyd olunur.

*

**Azərbaycan Milli Kitabxanasında** “17 Noyabr – Milli Dirçəliş Günü” adlı ənənəvi kitab sərgisi açılıb. Sərgidə Azərbaycan xalqının azadlıq mübarizəsi, Ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası, ölkəmizin çoxəsrlik tarixi, milli oyanış və azadlıq hərəkatı, dövlətçilik ənənələrinin formalaşması, milli özünüdərk prosesləri, xalqımızın mənəvi dəyərləri, ərazi bütövlüyünün bərpası, suverenliyin təmin edilməsi və digər mövzularla bağlı Azərbaycan və xarici dillərdə kitablar nümayiş olunur.



*

Milli Dirçəliş Günü ilə əlaqədar paytaxtdakı **Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında** “Milli dirçəlişdən müstəqilliyə” adlı daycest hazırlanıb.

Əsas məqsəd xalqımızın tarixi yaddaşına əbədi həkk olunan Milli Dirçəliş Günü ilə əlaqədar materialları yeniyetmə və gənclərin diqqətinə çatdırmaqdan ibarətdir.

Kitabxana əməkdaşları tərəfindən hazırlanan daycestdə görkəmli şəxsiyyətlərin dəyərli fikirləri, günün şanlı tarixi ilə bağlı “Ən böyük nailiyyətimiz əbədi dirçəlişimiz, müstəqilliyimizdir” adlı məqalənin tam mətni yer alır. Daycestə 2015-2025-ci illərdə dövri mətbuatda dərc edilən məqalələrin biblioqrafik təsviri, qısa məzmunu və linkləri də istifadəçilərə təqdim olunur. Bundan əlavə, kitabxanada 40-a yaxın kitab və dövri mətbuat nümunələrinin toplandığı “17 Noyabr - Milli Dirçəliş Günü” adlı kitabın sərgisi təşkil edilib.

*

**Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) Əsaslı Kitabxanasında** 17 Noyabr - Milli Dirçəliş Günü ilə əlaqədar keçirilən tədbirdə çıxış edən universitetin tədris işləri üzrə prorektoru Əhməd Məlikov bu günün Azərbaycan xalqı üçün əhəmiyyətindən danışıb. Bildirib ki, 1988-ci il noyabrın 17-də Azərbaycan xalqının azadlıq səsini ucaldaraq imperiyaya qarşı hamılıqla ayağa qalxması onun dirçəlişi yolunda dönüş nöqtəsi olub. Öz haqqı, azadlığı uğrunda mübarizəyə qalxan, torpaqlarına sahib çıxmaq istəyən Azərbaycan xalqı bu müqəddəs ideallar naminə birlik və həmrəyliyini bütün dünyaya nümayiş etdirib.

Daha sonra Mühəndislik fakültəsinin dekanı Təvəkgül İslamov, kafedra müdiri Zakir Hüseynov, kitabxananın direktoru Kamil Məmişov və İctimai fənlər kafedrasının müəllimi Günay Quliyeva məruzələrlə çıxış ediblər. Sonda tələbələr Milli Dirçəliş Günü ilə bağlı şeirlər səsləndiriblər.

*

**Azərbaycan İlahiyyat İnstitutunda** 17 Noyabr – Milli Dirçəliş Gününə həsr olunmuş vebinar təşkil olunub. Tədbirdə İslamşünaslıq kafedrasının müəllimi Rəşad Mustafa 1988-ci ilin noyabr-dekabr aylarında Bakıda başlayan milli istiqlal hərəkatından, 100 minlərlə azərbaycanlının Ermənistanın təxribatlarına və SSRİ rəhbərliyinin ikili siyasətinə etiraz etməsindən danışıb. Bundan sonra baş vermiş tarixi hadisələri ardıcıllıqla şərh edən R.Mustafa 1990-cı ildə törədilmiş 20 Yanvar hadisələrinin azadlıq hərəkatını daha da gücləndirdiyini vurğulayıb.

Azərbaycanın müstəqilliyinin bərpası dövrünə də diqqət çəkən məruzəçi milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun hansı çətin mərhələlərdən keçdiyindən danışıb, 44 günlük Vətən müharibəsində qazanılan Qələbənin Xalq–Ordu–Lider birliyinin nəticəsi olduğunu bildirib, hazırda tarixi torpaqlarımızda geniş vüsət alan bərpa-quruculuq işləri barədə məlumat verib.

***Hazırladı:***
***Ə.PÜNHAN***
***XQ***

# Qış qapını alanda gec olar

## *Odur ki, paytaxtda soyuq aylara davamlı hazırlıq aparılır*

**Azərbaycanda həyata keçirilən sosial-iqtisadi layihələr, eləcə də ölkə əhalisinin fasiləsiz və keyfiyyətli elektrik enerjisi, qaz, su və digər kommunal xidmətlərə olan tələbatının ödənilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Əldə edilən uğurlar son illər respublikada aparılan effektiv iqtisadi siyasətin, həyata keçirilən irimiqyaslı infrastruktur layihələrinin məntiqi nəticəsidir. Bütün bunlar xalqımızın rifahının yaxşılaşmasına, həyat səviyyəsinin yüksəlməsinə, o cümlədən əhalinin mənzil-kommunal xidmətləri sahəsindəki mövcud problemlərinin aradan qaldırılmasına xidmət edir.**



Payız-qış mövsümündə də Bakı rayonlarının təsərrüfatlarında əhaliyə keyfiyyətli mənzil-kommunal xidmətlərinin göstərilməsinə xüsusi önəm verilir. Bu məqsədlə yaradılan qərargahlarda tədbirlər planına müvafiq olaraq istilik qazanxanalarının enerji daşıyıcıları ilə fasiləsiz təmin olunması, mərkəzi istilik sisteminə qoşulan yaşayış binalarının, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin keyfiyyətli istiliklə təchiz edilməsi, mənzil-kommunal təsərrüfatında zəruri təmir işlərinin aparılması, qış mövsümündə nəqliyyatın normal fəaliyyət göstərməsi üçün küçə və yolların işlək vəziyyətdə saxlanılması, yanğın törədə biləcək amillərin qarşısının alınması istiqamətində nəzərdə tutulan işlərin yerinə yetirilməsi diqqət mərkəzində saxlanılır.

Paytaxtda qışa hazırlığın vəziyyəti ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətində (BŞİH) keçirilən müşavirədə verilən tapşırıqlara uyğun olaraq noyabrın ikinci yarısından etibarən şəhərin rayonlarında kommunal, təsərrüfat xidmətləri, idarə və təşkilatlar, təhsil müəssisələri və özəl sektorun nümayəndələrinin iştirakı ilə müşavirələr keçirilir. BŞİH-in şöbə müdirləri, şəhərin kommunal və digər xidmətlərinin rəhbərlərinin iştirak etdikləri yığıncaqlarda rayonların müvafiq sektorlarının soyuq qışa, xüsusilə güclü qar yağmasına hazırlığı vəziyyəti araşdırılır, eyni zamanda, görülməsi zəruri olan işlər müzakirə edilir.

BŞİH rəhbərliyi yerlərdə qış mövsümünə hazırlığı və görülən işlərin icra vəziyyətini davamlı olaraq diqqətdə saxlayır. Bununla bağlı rayon icra hakimiyyətlərində yaradılan qərargahların, eləcə də kommunal və təsərrüfat xidmətlərinin, aidiyyəti təşkilatların rəhbərlərinin hesabatları dinlənilir və zəruri tapşırıqlar verilir.



Əvvəlki dövrlərdə olduğu kimi, bu il də müvafiq qurumlara qarın təmizlənməsi üçün lazımi qədər inventarın (bel, kürək, ling və s.) toplanılması, duz ehtiyatının yaradılması, xüsusi texnikaların vəziyyətinin yoxlanılması tapşırılıb. Bundan başqa, yağmurlu günlərdə küçə və məhəllələrdə hərəkətin tənzimlənməsinə cavabdeh şəxslərin siyahıları hazırlanıb, bu işə kommunal qurumlarla yanaşı, idarə, təşkilat, bələdiyyə və özəl müəssisələrin mövcud texnikalarının cəlbi də nəzərdə tutulub.

İndi isə qış mövsümünə hazırlıqla bağlı ayrı-ayrı dövlət qurumlarının fəaliyyətinə diqqət yetirək. Əvvəlcə qeyd edək ki, artıq noyabrın 15-dən paytaxt Bakıya və respublikanın bütün rayonlarına istiliyin verilməsinə başlanılıb. "Azəristiliktəchizat" ASC-nin ictimaiyyətlə əlaqələr sektorunun rəisi Elvin Basqallının sözlərinə görə, qış rejiminə keçidlə bağlı bütün hazırlıq işləri həyata keçirilib. Belə ki, qazanxanalar yoxlanılıb, təmizlənib, oradakı 80 mindən çox avadanlıq saz vəziyyətə gətirilib.

"Azəristiliktəchizat" ASC-nin balansında olan min kilometrdən artıq magistral və məhəllədaxili xətlər hidravlik təzyiqlə yoxlanılıb. Harada axıntı, qəza riskləri varsa, aradan qaldırılıb. Cari və ya əsaslı təmir işləri aparılıb, axıntı qeydə alınan xətlər dəyişdirilib. Ötən il 5 qazanxana, bu il isə 7 qazanxana sökülərək yerində yenisi inşa edilib.

Yeri gəlmişkən, 2025-2026-cı illər payız-qış mövsümü ərzində "Azəristiliktəchizat" ASC-nin balansında olan 550 qazanxana və 88 istilik məntəqəsi vasitəsilə 3 min 841 yaşayış binası, 276 orta məktəb, 156 uşaq bağçası, 143 səhiyyə müəssisəsi və 2 min 786 sosial və təsərrüfathesablı obyektlərin istilik enerjisi ilə təmin edilməsi nəzərdə tutulub.

İstiliyin qoşulması ilə bağlı yeni müraciətlər olduğundan qazanxanalar yenilənərək gücü artırılıb, müasir tipli bir neçə bina bu sistemə qoşulub. Bununla əlaqədar fərdi mənzil sahiblərinin də müraciətləri müsbət həll edilib. Beləliklə, abonentlərin sayının çoxalması ilə yanaşı, balansdakı mənzillərin və qeyri-yaşayış obyektlərinin istiliklə təminatında keyfiyyət artımına nail olunub. Qeyd edək ki, Azərbaycanda istilik mövsümünün gələn il aprelin 15-nə qədər davam edəcəyi nəzərdə tutulub.

İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətində də qış mövsümünə hazırlıqla bağlı qarşıya qoyulan vəzifələr yüksək səviyyədə həyata keçirilib. Bu qurumdan aldığımız məlumata görə, adıçəkilən xidmət tərəfindən bütün tullantı və yağış xətlərində monitorinqlər aparılıb. Kollektor quyularına, daşıyıcı xətlərə ayrı-ayrılıqda baxış keçirilib. Tutulmalar müşahidə olunan xətlərdə texnikalar vasitəsilə yuyulma işləri görülüb. Ərazilərdəki şəbəkələr payız-qış mövsümünə tam hazır vəziyyətə gətirilib.



Yağışlar zamanı fəsadların qarşısını almaq üçün qabaqlayıcı tədbirlər də gücləndirilib. Belə ki, riskli ərazilərdə ("qırmızı nöqtələrdə") fəaliyyət göstərəcək briqadalar yaradılıb, kanalizasiya-nasos stansiyalarının fəaliyyəti, yağış sularının kənarlaşdırılması üçün xətlərin idarə olunmasına diqqət artırılıb. Belə ki, şəhərin bir neçə nöqtəsində yağış sularının təxliyəsi məqsədilə yeni xətlər salınıb, bəzi ərazilərdə isə bu istiqamətdə işlərə başlanılıb.

İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti bütün bunlardan əlavə, sözügedən istiqamətdə uzunmüddətli layihələr də həyata keçirir. Bu baxımdan, yeni kollektorlarla bağlı görülən işlər diqqət çəkir. Belə ki, leysan yağışların yağması zamanı suların kənarlaşdırılması məqsədilə bir neçə istiqamətdə yeni kollektorlar qurulur, bəzi yerlərdə isə bu işlərin başlanılmasına hazırlıq görülür. Onu da deyək ki, layihələrin başa çatdırılması üçün müəyyən zamana ehtiyac var, işlər yekunlaşandan sonra isə güclü yağışın törədə bildiyi fəsadlar tədricən azalacaq.

Xidmətin məlumatında yer alan bir məsələni də diqqətə çatdırmaq istərdik. Bildirilir ki, payız-qış mövsümündə hər bir kollektorun müəyyən daşıma həcminin mövcudluğunu nəzərə almaq zəruridir. Belə ki, intensiv leysan xarakterli yağışlarda kollektorlar həddindən artıq yüklənir. Hətta elə ərazilər var ki, orada indiyədək təchizat sistemi yoxdur. Belə hallarda isə həmin sahələrdə intensiv yağıntılar zamanı suyun ətrafa toplanması halları baş verir.

İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti yuxarıda sadalanan problemlərin aradan qaldırılması məqsədilə hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Qurum tullantı su şəbəkəsi mövcud olmayan ərazilərə müvafiq su-kanal idarələrinin qəza briqadalarını cəlb edərək istismar qaydalarının mümkün şərtləri çərçivəsində yığılan suyun maşınlar vasitəsilə qismən və ya tam çəkilməsini gerçəkləşdirir, eyni zamanda, hazırda su və tullantı su təchizatının yaxşılaşdırılması, eləcə də yeni infrastruktur təminatı məqsədilə bir sıra irihəcmli layihələr icra edir.

"Azəriqaz" İstehsalat Birliyinin məlumatında isə bildirilir ki, hər il may ayının 1-dən noyabrın 1-nə qədər payız-qış mövsümünə hazırlıq prosesinə start verilir və bu müddətdə cədvəl üzrə müəyyən işlər görülür. Məsələn, təzələnən qaz xətlərində sızma vəziyyəti yoxlanılır, boyama işləri həyata keçirilir, şkaf siyirtmələrinin sazlığı dəqiqləşdirilir, yeraltı boru xətləri yerüstü dayaqlar üzərinə qaldırılır, korroziyaya uğramış boru xətləri yenilənir.

Məlumatda görülən işlər rəqəmlərlə də ifadə edilib. Belə ki, cari ilin may ayının 1-dən noyabrın 1-dək, ümumilikdə, 233 kilometr qaz kəməri əsaslı təmir olunub. Bunlardan 58 kilometri Bakının, 175 kilometri isə regionların payına düşüb. Eyni zamanda, bu müddətdə 37 kilometr yeraltı qaz xətti yerüstü dayaqlar üzərinə qaldırılıb. 104 kilometr uzunluğunda yenilənmiş və ya korroziyaya uğramış hissələrdə boyama işləri aparılıb.

* * *

Qış aylarında güclü qar, yağış yol hərəkəti təhlükəsizliyinə mənfi təsir göstərir, yollarda qəzalara səbəb olur, sıxlıq, tıxac yaradır. Məsələn, qar yağır, onun təmizlənməsi isə yalnız bəzi mərkəzi küçə və prospektlərdə sürətlə aparılır. Kənar ərazilərdə isə vəziyyət Allah ümidinə buraxılır, problem havalar düzələndən, buz əriyəndən sonra həllini tapır.

Qışa tam hazır olmaq ifadəsi bütün küçə və prospektlərin eyni vaxtda texnika, canlı qüvvə ilə təmizlənməsi anlamını əhatə etməlidir. Amma əksər hallarda bu, belə olmur. Paytaxtda, eləcə də rayonlarda bəzi yollar həmin günlərdə diqqət mərkəzində saxlanılsa da, digər ərazilərdə bu, unudulur.

Ümumiyyətlə, bu istiqamətdə görülən işləri qiymətləndirməklə bərabər, illərlə müşahidə olunan narahatlıq doğuran bir məqamı da qeyd edək. Belə ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi qarlı günlərdə respublika əhəmiyyətli yolların qardan təmizlənməsində operativ fəaliyyət göstərə, vəziyyətə vaxtında müdaxilə edə bilmir. Məsələn, Bakı–Şamaxı magistralında, Ağsu aşırımında gecənin bir aləmində qar yağmağa başlayır, dərhal da yol buz bağlayır. Yalnız bundan sonra əraziyə texnika çıxarılır ki, bu da magistralın qısa müddətdə qardan təmizlənməsini, işlək vəziyyətə salınmasını çətinləşdirir.



Bu məqamda mövzu ilə əlaqədar bir məsələni də qeyd etmək istərdik. Belə ki, ölkədə ənənəvi qış hazırlığı dövründə tədbirlər planı əsasında müəyyən layihələr həyata keçirilir. Evlərə istiliyin verilməsində problemlərlə üzləşilməməsi, qaz, elektrik enerjisi təchizatında kəsilmələrin olmaması üçün təxirəsalınmaz işlər görülür. Lakin bütün bunlara baxmayaraq, soyuq aylarda, qarlı-yağışlı günlərdə qəfil fəsadların özünü göstərməsi mövcud sahəyə cavabdeh qurumları çıxılmaz vəziyyətə salır. Başqa sözlə, hava şəraitinin birdən-birə dəyişməsi, intensiv yağıntılar, şaxtalı günlər bəzən planlaşdırılmış işlərin qarşısını alır və müəyyən fəsadların meydana çıxmasına gətirib çıxarır.

Bu zaman Avropa ölkələrinin təcrübəsinə diqqət yetirmək zərurəti yaranır. Ekspertlər bildirirlər ki, Avropada qışa hazırlıq mövsümi xarakter daşımır, bu, illik dövr edən texnoloji proses kimi qəbul edilir. İşlər isə bir neçə mərhələ üzrə aparılır. Ümumiyyətlə, qışa hazırlıq hava istiləşən kimi başlayır. Bu mərhələdə istilik xətlərinin təzyiq sınaqları aparılır, köhnə qazanxanalar yenilənir, neft-qaz anbarları doldurulur, elektrik stansiyalarının profilaktik təmiri həyata keçirilir. Məsələn, Almaniyada yay baxışı prosesində hər bir elektrik və istilik stansiyasının ən azı 20–30 günlük dayanma rejimində əsas işlər başa çatdırılır.

Avropa İttifaqının qaydalarına görə, hər ölkənin qış mövsümü ərəfəsində qaz anbarlarının 90 faizi, strateji mazut ehtiyatının isə 100 faizi dolu olmalıdır. Bu tələbin məqsədi kəskin soyuqlar və ya enerji bazarında təchizat çətinlikləri yarandığı halda fasiləsiz təminatı qorumaqdır.

İsveç, Danimarka, Finlandiya kimi ölkələrdə istilik təchizatı əsasən mərkəzləşdirilmiş sistemlər vasitəsilə həyata keçirilir. Bu sistemlər hər bir məhəllənin istilik tələbatını real vaxtda ölçür, istehsalatı həmin tələbat əsasında avtomatik tənzimləyir, fövqəladə şəraitdə ehtiyat qazanxanaları işə salır. Beləliklə, son anda yaranan gərginliklər minimuma endirilir.

Avropada qışa hazırlığın mühüm elementlərindən biri də məhz istilik itkisini azaltmaqdır. Çünki istilik nə qədər qənaətlə istifadə edilərsə, şəbəkəyə düşən yük də bir o qədər azalar. Bu məqsədlə fasadların termoizolyasiyası, pəncərələrin iki-üçqat şüşə paketlə əvəz edilməsi, dam örtüklərinin yenilənməsi, istilik izolyasiyalı boru sistemlərinin tətbiqi kimi layihələr həyata keçirilir. Bundan başqa, Avropa İttifaqı ölkələrində "Energieeffizienz" proqramları çərçivəsində ev sahiblərinə subsidiyalar, ucuz kreditlər və vergi güzəştləri təqdim olunur.

Beləliklə, Avropa ölkələrinin payız-qış mövsümünə hazırlıq təcrübəsi göstərir ki, enerji və kommunal təsərrüfatın düzgün planlaşdırılması yalnız texniki tədbirlərlə bitmir. Bu sahədə səmərəli kompleks yanaşma, illik dövr edən təhlil və təmir işləri, "ağıllı" idarəetmə sistemlərinin tətbiqi, eləcə də əhalinin məlumatlılığı tələb edilir. Hazırlıq işlərinin davamlı, çevik və koordinasiyalı şəkildə aparılması nəticəsində Avropa ölkələri sərt iqlim şəraitində belə ciddi fəsadlarla üzləşmir. Azərbaycanın da bu sahədə Avropa modellərindən bəhrələnməsi mövsümi problemlərin minimuma endirilməsinə mühüm töhfə verə bilər.

Deməli, Avropa modelindən çıxan nəticələr göstərir ki, qış mövsümünə hazırlığın səmərəli olması üçün 3 əsas şərt vacibdir: payız-qış mövsümünə hazırlıq ilboyu həyata keçirilməli, "ağıllı" idarəetmə sistemlərinin tətbiqi reallaşdırılmalı, enerji balansı real vaxtda ölçülməli, ehtiyat infrastruktur genişləndirilməli və alternativ qazanxanalar, ehtiyat xətlər, enerji anbarları yaradılmalıdır. Azərbaycanda isə xüsusilə mərkəzləşdirilmiş istilik şəbəkələrinin müasir idarəetmə sistemləri ilə təchiz edilməsi önə çəkilməli, qışdan əvvəl kommunal şəbəkələrin yay təmir strategiyası gücləndirilməli, enerji və qaz təchizatında ehtiyat güclər artırılmalı, binaların enerji səmərəliliyi standartları sərtləşdirilməlidir.

Hazırda paytaxtda qış mövsümünə hazırlıq sona çatmaq üzrədir. Belə bir vaxtda sakinlərin görülən işlərlə bağlı nəzərəçarpan çatışmazlıqlar barədə redaksiyamıza məlumat vermələrini də istərdik. Təbii ki, növbəti yazıda mənzil-kommunal xidmətlərin həmin problemlərin həlli istiqamətində həyata keçirdikləri tədbirləri də diqqətə çatdıracağıq.

***Vaqif BAYRAMOV***
***XQ***



# Azərbaycan Mərkəzi Asiyanın Avropaya körpüsüdür



(əvvəli 1-ci səhifədə)

Son illər dünyada baş verən geosiyasi dəyişikliklər ölkələri daha yaxın əməkdaşlığa sövq edir. Azərbaycan bu prosesdə fəal rol alır. Dövlət başçılarının qarşılıqlı səfərləri, müxtəlif beynəlxalq tədbirlərdə keçirilən görüşlər, imzalanan sənədlər münasibətlərin genişlənməsinə güclü təkan verir.

Daşkənddə keçirilən görüşdə Prezident İlham Əliyev Azərbaycanın nəqliyyat və logistika habı rolunu xüsusi diqqətə çatdırdı. Ölkəmiz Şərqdən Qərbə, Şimaldan Cənuba uzanan əsas marşrutların kəsişməsində strateji bir mövqedə dayanır. Bu mövqe geniş coğrafiya üçün əhəmiyyət daşıyır və Azərbaycan bu üstünlüyü əməkdaşlıq platformalarının genişləndirilməsinə yönəldir. Beləliklə, Daşkənd görüşü həm siyasi, həm iqtisadi, həm də nəqliyyat baxımından yeni əməkdaşlıq xəttini dərinləşdirən mühüm hadisə oldu.

Ölkə başçısının dediyi kimi, son 3 ildə Orta Dəhliz üzrə Azərbaycandan keçən yükdaşımalar 90 faiz artıb. Dəhliz boyu gediş vaxtları xeyli azaldılıb. Son illərin rəqəmləri bu dəyişimin təsadüfi olmadığını sübut edir. 2019-da ölkə üzərindən 5,7 mln. ton tranzit yük daşınmışdısa, 2024-də bu rəqəm 14,5 mln. tona çatıb. Yəni cəmi bir neçə il ərzində tranzit həcmi təxminən 2,5 dəfə artıb. Onun 4,3 milyon tonu Orta Dəhliz vasitəsilə həyata keçirilib – bu isə Xəzərin sahilində yerləşən ölkənin Avropa ilə Asiyanı birləşdirən körpü funksiyasını açıq şəkildə göstərir.

Bu nəhəng axının dayaq nöqtəsi isə Xəzər sahilində – Ələtdə yerləşir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilk mərhələdə illik 15 milyon ton və 100 min TEU konteyner tutumu ilə fəaliyyətə başlamışdı. Bu gün artıq ikinci mərhələnin konturları cızılır: yaxın perspektivdə limanın buraxılış qabiliyyəti 25 milyon tona, konteyner tutumu isə 500 min TEU-ya çatdırılacaq. Bu, Ələti faktiki olaraq Xəzərin ən böyük logistika mərkəzinə çevirir.

Bununla yanaşı, Ələtdən çıxan yüklər Bakı–Tbilisi–Qars dəmir yolu ilə Qafqaz dağlarını aşır, Qara dənizsahili limanlara, oradan isə Avropanın daxili bazarlarına açılır. 2024-də Gürcüstan seqmentində modernizasiya başa çatdıqdan sonra BTQ-nin illik yükdaşıma qabiliyyəti 1 milyon tondan 5 milyon tona qaldırılıb. Növbəti mərhələdə bu xəttin tutumunun 17 milyon tona qədər artırılması planlaşdırılır.

Səmada da Azərbaycan bu gün 9 beynəlxalq hava limanının üzərində formalaşan hava şəbəkəsi ilə regionu bir-birinə bağlayır. Silk Way West Airlines – Xəzər hövzəsinin ən böyük yük aviaşirkəti hər ay təxminən 350 reys yerinə yetirir, illik yük dövriyyəsi 420 min tondan çoxdur. Bu şirkətin 14 ədəd iri təyyarədən ibarət donanması Azərbaycanın göylərini faktiki olaraq qlobal logistika xəritəsinin ayrılmaz hissəsinə çevirib.

Tranzit dedikdə bu siyahıya gələcəkdə Zəngəzur dəhlizi də əlavə olunacaq. Horadiz–Ağbənd dəmir yolu xəttinin dizayn işlərinin 85 faizi tikintinin təxminən 68 faizi artıq tamamlanıb. Yoxuşlu dağ relyefi üzərində 8 stansiya, 22 körpü, 2 tunel və 550-dən çox mühəndis qurğusu inşa edilir. Bu xətt Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirəcək, eyni zamanda Orta Asiya–Cənubi Qafqaz–Türkiyə üçbucağında tamamilə yeni logistik nəfəs yolu açacaq.

***Nurlan ABDALOV***
***XQ***

### *Ekspert rəyi*

**Aqil ƏSƏDOV,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru**



Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı zamanı səsləndirdiyi "Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur" fikirləri Azərbaycanın regional və qlobal müstəvidə mərkəz funksiyasının əyani göstəricisidir.

Sürətli inteqrasiya prosesləri ilə xarakterizə olunan müasir dövrdə insanların və yüklərin hərəkətliliyinin artması, daşıma proseslərinin intensivləşməsi uzunmüddətli iqtisadi inkişafın əsas çağırışlarından biridir. Beynəlxalq nəqliyyat dəhlizləri üzrə daşımaların həcm və dövriyyəsində ilbəil müşahidə edilən dinamik artımlar da bunu bir daha təsdiq edir.

Dünyanın əsas istehsal – yük mərkəzi olan Çin dövlətini Avropa ilə birləşdirən Orta dəhliz üzrə daşımaların təkcə son üç ildə 90 faiz artması, dəhliz boyunca limanlarda və müxtəlif ərazilərdə yerləşən "darboğaz"larda aparılan təkmilləşdirmə işləri, gömrük proseslərinin rəqəmsallaşdırılması, elektronlaşdırma tədbirləri nəqliyyat-tranzit xidmətlərinin prioritetliyini bir daha önə çıxarır.

Orta Dəhlizin əsas nəqliyyat-tranzit qovşağı olan Azərbaycanda illik buraxılış qabiliyyəti 25 milyon ton olan Ələt Beynəlxalq Limanının tikintisi, 400 hektar ərazidə avtomobil, dəmir yolu, su, hava daşımalarının birləşdiyi əhəmiyyətli bir qovşağın formalaşdırılması, tranzit daşımaların daha çevik təşkili və infrastruktur təminatının davamlı şəkildə təkmilləşdirilməsi istiqamətində ardıcıl həyata keçirilən layihə və proqramlar ölkəmizdə nəqliyyat sektoruna dövlət qayğısının, eləcə də bu sektordan gözləntilərin real nümunələridir.

Regionda doqquz beynəlxalq hava limanı, ən böyük mülki yük aviasiya donanmasına malik olmaqla yanaşı, Azərbaycan həm də Avropanın enerji təhlükəsizliyi məsələsində də Mərkəzi Asiya dövlətləri ilə sıx əməkdaşlıq edir. Bununla yanaşı, Azərbaycan Respublikası işğaldan azad edilmiş əraziləri "yaşıl enerji zonası" elan edib, ölkəmizdə alternativ enerji potensialından istifadə istiqamətində genişmiqyaslı işlər aparılır, beynəlxalq investisiyalar cəlb edilir, o cümlədən Mərkəzi Asiya respublikaları da zəngin alternativ enerji potensialına malikdir, onda adıçəkilən fiber-optik kabel şəbəkəsinin strateji əhəmiyyəti aydın olur.

Bütün bunlar Azərbaycanla Mərkəzi Asiya arasında çoxşaxəli münasibətlərin uzunmüddətli inkişafının prioritetləridir. Yaxın gələcəkdə Zəngəzur dəhlizinin açılması isə inkişaf perpektivlərini daha da gücləndirəcək. İlk dövrlərdə 15 milyon tona yaxın yükaşırma qabiliyyətinə malik Zəngəzur dəhlizi həm daşımaların həcm və intensivliyini artırmaqla iqtisadi münasibətləri inkişaf etdirəcək, həm də TDT üzvləri arasında birbaşa bağlantını təmin etməklə strateji əhəmiyyət daşıyacaq.

# "Qarabağ" yatağında tammiqyaslı işlərin son mərhələsi

**"Qarabağ" neft yatağında bu ilin sonunadək tammiqyaslı işlər proqramının yekunlaşdırılması planlaşdırılır.**



BP şirkətinin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli jurnalistlərə açıqlamasında bildirib ki, "Qarabağ" yatağı üzrə işlərdə növbəti mərhələyə keçid üçün hazırlıq aparılır: "İlin sonunadək tammiqyaslı işlər proqramını tamamlamağı planlaşdırırıq. Proqram yekunlaşdıqdan sonra gələn il seysmik tədqiqatlara başlayacağıq. Həmin tədqiqatlar bitdikdən sonra yatağın gələcək işlənməsi ilə bağlı konkret konsepsiya və planları təqdim edəcəyik".

Qeyd edək ki, 2025-ci il iyunun 3-də Bakı Enerji Həftəsi çərçivəsində BP Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) bu layihədə iştirak payının alınmasına dair müqavilələr imzalayıb. "Qarabağ" yatağı, Bakıdan 120 km şərqdə, "Günəşli" yatağından 20-25 km aralıda, 150-200 metr dərinlikdə yerləşir.

***XQ***

# 10 ayda 20,6 milyard kubmetr qaz ixrac edilib



**Yanvar–oktyabr aylarında ölkədən 20 milyard 648,8 milyon kubmetr təbii qaz ixrac edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,23 faiz azdır.**

Dövlət Gömrük Komitəsindən bildirilib ki, ixrac edilən təbii qazın dəyəri 7 milyard 417,7 milyon dollar olub.

Xatırladaq ki, 2024-cü ilin eyni aylarında isə Azərbaycandan 6 milyard 848,5 milyon dollar dəyərində, yəni 21 milyard 338,8 milyon kubmetr təbii qaz ixrac edilib.

***XQ***

**Noyabrın 16-da Prezident İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak edib. Dövlət başçısı çıxışında Azərbaycan ilə Mərkəzi Asiya regionu arasında qarşılıqlı əlaqələrin dinamik inkişafını vurğulayıb və birgə həyata keçiriləcək layihələr barədə məlumat verib.**

# Türk dünyasında yeni strateji infrastruktur və "yaşıl" enerji dəhlizi



Ölkə başçısı bildirib ki, rəqəmsal rabitə sahəsində əməkdaşlığımız böyük potensiala malikdir: "Rəqəmsal İpək Yolu" layihəsinə Xəzər dənizinin dibi ilə fiber-optik kabel şəbəkəsinin çəkilməsi planları daxildir. Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi qlobal bazarlara elektrik enerjisinin birgə ixracı üçün böyük perspektivlər açır...".

Qeyd edək ki, "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) - NEQSOL Holdinqin təşəbbüsü, AzerTelecomun iştirakı ilə həyata keçirilən iri infrastruktur layihəsidir. Təşəbbüsün əsas məqsədi Avropa ilə Asiyanı birləşdirən müasir, yüksək ötürmə qabiliyyətinə malik rəqəmsal dəhlizin qurulmasıdır və bu çərçivədə həm quruda, həm də Xəzər dənizinin dibində fiber-optik magistral xətlərin çəkilməsi nəzərdə tutulur. Trans–Xəzər Fiber-Optik Kabel Xətti layihəsi Sumqayıt ilə Aktau arasında Xəzər dənizinin dibi ilə təxminən 380 km fiber-optik kabel planlaşdırılır. Bu kabelin ötürmə gücü çox yüksək olacaq. Bəzən 400 Tbit/s (terabit/saniyə) səviyyəsi göstərilir. Layihənin dəyəri 50,6 milyon ABŞ dollarından çox həcmdə qiymətləndirilir.

Bu proqram regionda dayanıqlı magistral rabitə infrastrukturunun yaradılmasını, Azərbaycan və Gürcüstanda regional Data Mərkəzlərinin tikintisini, eləcə də marşrut boyunca yerləşən ölkələrin internet və kontent tələbatını qarşılayacaq rəqəmsal telekommunikasiya koridorunun formalaşdırılmasını əhatə edir. Gürcüstan, Türkiyə, Azərbaycan, Qazaxıstan və Türkmənistandan keçəcək bu meqa-rəqəmsal xətt məlumat ötürülməsini daha sürətli, təhlükəsiz və minimal gecikmə ilə təmin edəcək, regionun internet xidmətlərinin keyfiyyətini yüksəldəcək və artan trafik tələbatını ödəməyə imkan verəcək.

"Rəqəmsal İpək Yolu" layihəsi çərçivəsində AzerTelecom ölkənin rəqəmsal infrastrukturunun inkişafı istiqamətində genişmiqyaslı işlər aparır. Şirkət "Azərbaycan Dəmir Yolları" QSC ilə əməkdaşlıq edərək ölkənin müxtəlif bölgələrində dəmir yolu xətləri boyunca magistral fiber-optik kabel şəbəkəsinin qurulmasını təmin edir.

"Rəqəmsal İpək Yolu" layihəsi həm regional, həm də beynəlxalq səviyyədə böyük maraq doğurur. Türk Dövlətləri Təşkilatı da bu layihəyə xüsusi diqqət ayırır. "2022–2026-cı illər üzrə Türk Dövlətləri Təşkilatı Strategiyası"nda isə Xəzərin dibi ilə Trans-Xəzər Fiber-Optik Kabel xəttinin sürətləndirilməsi, Avropa ilə Asiyanı birləşdirəcək yüksəkötürmə qabiliyyətli internet xəttinin qurulması prioritet vəzifə kimi göstərilir.

"Rəqəmsal İpək Yolu" layihəsi Avropa və Asiya arasında məlumat mübadiləsinin Azərbaycan üzərindən təmin olunması baxımından region üçün strateji əhəmiyyət daşıyır. Layihə ABŞ-da keçirilən "Qlobal Strateji İnfrastruktur Liderlik Forumu"nda Asiyanın ən yaxşı beş strateji infrastruktur təşəbbüsündən biri kimi qiymətləndirilib. "Rəqəmsal İpək Yolu" təşəbbüsü bir çox beynəlxalq sənədlərdə dəstəklənib.

2021-ci il İstanbul Bəyannaməsində Xəzərdən keçəcək Trans–Xəzər Fiber Optik Kabel Xəttinə dəstək ifadə olunub. 2022-ci il Səmərqənd Bəyannaməsi isə bu dəstəyi bir daha təsdiqləyib. 2023-cü il Şuşa Bəyannaməsi, Azərbaycan-Qazaxıstan Hökumətlərarası Komissiyasının 2023 və 2024-cü il iclaslarının protokolları, eləcə də 2024-cü ilin Qarabağ və Bişkek bəyannamələri layihənin regional önəmini xüsusi vurğulayıb. Bütün bunlar "Rəqəmsal İpək Yolu"nun Avrasiyanın gələcək iqtisadi və rəqəmsal arxitekturasını formalaşdıracaq strateji təşəbbüs olduğunu göstərir.

Məlumat üçün bildirək ki, Qazaxıstandan Azərbaycana Xəzər dənizin dibi ilə fiber-optik kabelin çəkilməsinə gələn ilin yay aylarında başlanılması planlaşdırılır. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, 2026-cı ilin sonuna qədər kabelin çəkilişi üzrə işlərin tam yekunlaşması və kabelin istifadəyə verilməsi nəzərdə tutulur: "Hazırda Xəzər dənizində həmin bu kabelin keçəcəyi dib ərazisində marşrutun analizləri yekunlaşıb. Yaxın zamanlarda bu işləri həyata keçirən şirkət tərəfindən hesabat operatorlara və layihə iştirakçılarına təqdim olunacaq. Xəzər dənizinin dibi ilə çəkiləcək fiber-optik kabelin artıq istehsalı üzrə də işlərə başlanılıb. Kabelin istehsalı 2026-cı ilin yay aylarına qədər bitəcək".

Nazir müavini bildirib ki, bu kabel Xəzər dənizinin altından keçməklə böyük bir rəqəmsal dəhlizin əhəmiyyətli bir parçasıdır: "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi olaraq biz layihənin operatorlarına dəstəyimizi davam etdiririk və həmçinin əminik ki, bu rabitə əlaqəsinin yaradılması ölkəmizin çox yaxın gələcəkdə, regional müstəvidə, İKT sahəsində və o cümlədən də süni intellektin istifadə olunması sahəsində haba çevrilməsində əhəmiyyətli rol oynayacaq".

Azərbaycan və Mərkəzi Asiya regionu arasında əməkdaşlığın mühüm layihələrindən biri Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsidir. Bu təşəbbüs qlobal bazarlara elektrik enerjisinin birgə ixracı üçün geniş imkanlar yaradır. Bu elektrik kabeli layihəsi "yaşıl enerji" (bərpa olunan enerji) ixracına yönəlib. Sözügedən planlara görə, Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin inteqrasiyasına gedir və üç ölkə Xəzərin dibi ilə yüksəkgərginlikli sualtı elektrik kabeli çəkmək barədə razılığa gəlib. Bu layihədə əsas məqsəd Mərkəzi Asiyada (Qazaxıstan, Özbəkistan) bərpaolunan enerji (külək, günəş və s.) potensialından istifadə edib, bunu Avropa bazarlarına ixrac etməkdir.

Xatırladaq ki, ötən ilin noyabrında Bakıda keçirilən COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan dövlət başçıları tərəfindən "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Müvafiq layihə üzrə üç ölkə və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramının həyata keçirilməsinə dair növbəti əhəmiyyətli addım da atılıb. Belə ki, yaxın aylarda Energetika Nazirliyində "Azərbaycan–Mərkəzi Asiya Yaşıl Enerji Dəhlizi" layihəsinin icrası məqsədilə "Azərenerji" ASC, "Qazaxıstan Elektrik Şəbəkəsi Əməliyyat Şirkəti" və "Özbəkistan Milli Elektrik Şəbəkəsi" ASC arasında "Yaşıl Dəhliz Birliyi" MMC-nin yaradılması və nizamnaməsinin təsdiqi ilə bağlı tədbir keçirilib.

Məlum olduğu kimi, Azərbaycan, Qazaxıstan və Özbəkistan da böyük bərpaolunan enerji potensialına malikdir. Azərbaycan Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin ilkin qiymətləndirmələrinə görə, ölkənin ümumi bərpaolunan enerji potensialı 27 QVt-dir. Texniki (maksimal nəzəri) potensial isə quruda 135 QVt, dənizdə 157 QVt kimi göstərilir. Qazaxıstan 2025-ci ildə elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payını 6 faizə, 2030-cu ilə qədər 10 faizə çatdırmağı, 2050-ci ilə qədər isə ümumi istehlakın ən azı yarısını bərpaolunan enerji ilə təmin etməyi planlaşdırır. Ölkənin külək enerjisi potensialı ildə 1,82 trilyon kVt/saat, günəş enerjisi potensialı isə 1 trilyon kVt/saatdır. Özbəkistan isə 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payını 25 faizə çatdırmağı hədəfləyir. Ölkədə külək enerjisi potensialı 520 QVt, günəş enerjisi potensialı isə 2,058 trilyon kVt/saatdır.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı-ekspert**

Hesab edirəm ki, Daşkənd Sammiti Türk dünyasının iqtisadi inteqrasiya prosesində yeni mərhələ yaratdı və bu istiqamətdə mühüm bir səhifə açdı. Belə ki, noyabrın 16-da Daşkənddə keçirilən toplantıda ölkə Prezidenti çıxışında əsasən tranzit qovşağı imkanlarının genişləndirilməsi, nəqliyyat-logistika marşrutlarının şaxələndirilməsi və regiondakı iqtisadi aktivliyin artırılması məsələlərinə xüsusi diqqət yönəltdi.

Xüsusilə Rəqəmsal İpək Yolu Təşəbbüsü çərçivəsində vurğulanan fiber-optik kabel xəttinin çəkilməsi Türk dövlətləri arasında məlumat ötürülməsinin sürətini və kibertəhlükəsizliyi artıracaq, həmçinin rəqəmsal ticarət imkanlarının əhəmiyyətli dərəcədə genişlənməsinə şərait yaradacaq. Bununla paralel olaraq Xəzər dibi ilə çəkilməsi planlaşdırılan elektrik kabelləri Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropanın enerji xəritəsində strateji yenilik olacaq. Bu infrastruktur sayəsində Türk dövlətləri elektrik enerjisinin birgə ixracını həyata keçirə, qlobal bazarlarda rəqabət imkanlarını və rəqabət qabiliyyətini yüksəldə, eyni zamanda, Avropanın enerji şaxələndirilməsinə ciddi töhfə verə biləcək.

Bu layihə həm də regionun yüksək enerji potensialı olan külək və günəş enerjisindən istifadə imkanlarını sürətləndirə və bölgəyə, o cümlədən ölkəmizə uzunmüddətli iqtisadi üstünlüklər qazandıra bilər. Hesab edirəm ki, Daşkənd görüşü Türk dünyasının nəqliyyat, rəqəmsal və enerji sahələrində bir-birinə daha sıx bağlı yeni strateji xəttinin konturlarını ortaya qoydu və bu, gələcəkdə Türk dövlətlərinin Asiya və Avropa istiqamətində inteqrasiya imkanlarını daha da genişləndirəcək.

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Mərkəzi icra hakimiyyəti orqanlarının NÜMUNƏVİ ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Mərkəzi icra hakimiyyəti orqanı (bundan sonra – Orqan) normativ hüquqi aktlarla müəyyən edilmiş sahələrdə (bundan sonra – müvafiq sahədə) dövlət siyasətini, dövlət nəzarətini, dövlət tənzimləməsini və əlaqələndirməni həyata keçirir.

1.2. Orqan öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Orqan haqqında Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Orqanın hüquqi aktlarını rəhbər tutur.

1.3. Orqan öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Orqanın müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Orqanın saxlanma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi, normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Orqan Bakı şəhərində yerləşir.

## 2. Orqanın fəaliyyət istiqamətləri

2.1. Orqanın fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahədə dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni həyata keçirmək;

2.1.3. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.4. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.1.5. Orqan haqqında Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Orqanın vəzifələri

3.1. Orqan haqqında Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Orqanın vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.1.2. müvafiq sahədə dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasını və həyata keçirilməsini aidiyyəti dövlət orqanları ilə birlikdə təmin etmək;

3.1.3. müvafiq sahədə dövlət tənzimləməsi mexanizmlərinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.4. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müvafiq sahədə korrupsiya risklərini azaltmaq məqsədilə korrupsiya risklərini və həmin risklərə uyğun olaraq hədəfləri müəyyən etmək, eləcə də həmin risklərin təhlili, qiymətləndirilməsi və qarşısının alınması üzrə tədbirlər görmək;

3.1.5. müvafiq sahə ilə bağlı dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək;

3.1.6. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.1.7. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək;

3.1.8. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, müvafiq olaraq lisenziya və icazə vermək, lisenziyanın və icazənin şərtlərinə riayət olunmasına nəzarət etmək, lisenziya və icazə verən orqanın digər səlahiyyətlərini həyata keçirmək, Orqanın fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı lisenziya və icazə verilməsinə rəy (razılıq) vermək, habelə normativ hüquqi aktlarda nəzərdə tutulan hallarda və qaydada digər hüquqmüəyyənedici sənədlər vermək;

3.1.9. müvafiq sahədə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.10. müvafiq sahədə dövlət əmlakından səmərəli istifadə olunmasına nəzarət etmək və dövlət maraqlarının qorunmasını təmin etmək;

3.1.11. müvafiq sahədə inzibati xəta və cinayət əlamətləri aşkar etdikdə, müvafiq olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun tədbirlər görmək;

3.1.12. müvafiq sahədə dövlət–özəl tərəfdaşlığının inkişafı üçün tədbirlər görmək;

3.1.13. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək, habelə elmi tədqiqatlar aparılmasını təşkil etmək;

3.1.14. müvafiq sahəyə ayrılan büdcə vəsaiti, fəaliyyət istiqamətləri üzrə əldə edilən büdcədənkənar vəsaitdən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.15. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.16. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin internet informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daimi yenilənməsini təmin etmək;

3.1.17. müvafiq sahədə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.18. fəaliyyət sahəsində əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlər görmək;

3.1.19. Orqanın Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.20. Orqanın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

3.1.21. Orqanın Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə, o cümlədən vəzifələrini yerinə yetirmək üçün ayrılan büdcə vəsaitindən və digər vəsaitdən təyinatı üzrə istifadə olunmasına nəzarəti həyata keçirmək;

3.1.22. Orqanın strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən fəaliyyət istiqamətləri üzrə daxil olan təklifləri ümumiləşdirmək və tədbirlər görmək;

3.1.23. Orqanın fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.24. Orqanın sistemində yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi işini təşkil etmək;

3.1.25. müvafiq sahə üzrə statistik uçot aparılmasını təmin etmək;

3.1.26. Orqanda kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.27. Orqanda icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;

3.1.28. inzibati icraata dair fəaliyyətini "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş prosedur qaydaları daxilində və prinsiplər əsasında həyata keçirmək;

3.1.29. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Orqan yanında İctimai Şura yaradılmasını təmin etmək;

3.1.30. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, səfərbərlik hazırlığı və səfərbərlik tədbirlərinin həyata keçirilməsində iştirak etmək;

3.1.31. Orqan haqqında Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. Orqanın hüquqları

4.1. Orqan haqqında Əsasnamə ilə müəyyən edilmiş vəzifələrini yerinə yetirmək üçün Orqan aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

4.1.3. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.4. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına) və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.5. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;

4.1.6. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;

4.1.7. normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada tabeliyində müvafiq qurumlar və ya strukturu daxilində bölmələr (idarə, şöbə) yaratmaq, yenidən təşkil və ləğv etmək, həmçinin strukturuna daxil olmayan tabeliyindəki qurumların yaradılması, yenidən təşkil və ləğv edilməsi üçün təkliflər vermək;

4.1.8. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.9. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.10. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;

4.1.11. səlahiyyətlərinə aid edilmiş məsələlərlə bağlı məhkəmələrdə müvafiq prosessual qanunvericilikdə nəzərdə tutulmuş hüquqları həyata keçirmək;

4.1.12. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;

4.1.13. Orqan haqqında Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Orqanın fəaliyyətinin təşkili

5.1. Orqanın Aparatı və onun strukturuna daxil olan qurumlar (dövlət agentlikləri, dövlət xidmətləri, yerli bölmələr və s.) və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (hüquqi şəxslər və s.), habelə Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanı (əgər vardırsa) Orqanın vahid sistemini təşkil edir. Orqan öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Orqan işçilərinin ümumi say həddi Azərbaycan Respublikasının Prezidenti tərəfindən və ya Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Orqanın strukturunu Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Orqanın strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Orqanın fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (nazir, sədr, rəis və s.) rəhbərlik edir. Orqanın rəhbəri Orqana həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Orqanın rəhbərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən və ya Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini (müavinləri) vardır. Orqan rəhbərinin müavini ona Orqan rəhbərinin həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.5. Orqanın rəhbəri:

5.5.1. Orqanın fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Orqanın digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Orqanın Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və Elmi-Texniki Şurasının əsasnamələrini, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini təsdiq edir;

5.5.4. bu Əsasnamənin 5.11-ci bəndində Orqanın Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.5. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Orqanın strukturuna daxil olan qurumların əsasnamələrini və strukturuna daxil olmayan tabeliyindəki qurumların nizamnamələrini təsdiq üçün təqdim edir;

5.5.6. dövlət büdcəsindən ayrılmış vəsait və işçilərin müəyyən olunmuş say həddi daxilində Orqanın Aparatının struktur bölmələrini və Orqanın strukturuna daxil olan qurumların struktur bölmələrini (müvafiq strukturların Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edildiyi hallar istisna olmaqla) yaradır və ləğv edir;

5.5.7. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür, o cümlədən korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların idarədaxili qaydada verilməsi mexanizmini, həmçinin bu məlumatların qəbul edilməsi və araşdırılması, maraqlar toqquşması və korrupsiyanın qarşısının alınması məsələləri üzrə konfidensial məsləhət verilməsi və korrupsiya risklərinin idarə edilməsi üçün bir və ya bir neçə səlahiyyətli struktur bölməni (şəxsi) müəyyən edir;

5.5.8. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Orqanın Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu (bu Əsasnamənin 5.5.6-cı yarımbəndi nəzərə alınmaqla), ştat cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

5.5.9. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin, habelə tabeliyindəki qurumların göstərdiyi xidmətlərdən (gördüyü işlərdən) əldə olunan gəlirlərin sərəncamçısı olaraq, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Orqanın Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım, mükafat və qanunla müəyyən olunmuş digər ödənişlərin verilməsini təmin edir;

5.5.10. Orqanın səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.11. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər ilə, habelə beynəlxalq təşkilatlarla münasibətlərdə Orqanı təmsil edir, verilmiş səlahiyyətlər daxilində danışıqlar aparır və müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.12. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.13. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar və Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxslər istisna olmaqla, Orqanın Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.14. Orqanın Aparatının, onun strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinə müvafiq olaraq xüsusi, hərbi, diplomatik rütbələr və ixtisas dərəcələri verir, ali xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin verilməsi, həmçinin xüsusi fərqlənmiş işçilərə Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət təltifləri ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

5.5.15. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Orqanda qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.16. Orqanın vəzifəli şəxslərinin normativ hüquqi aktlara zidd olan qərarlarını ləğv edir;

5.5.17. Orqan haqqında Əsasnamədə göstərilən və normativ hüquqi aktlara uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.6. Orqanın rəhbəri öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

5.7. Orqanın strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.8. Orqanda Orqanın rəhbərindən (Kollegiyanın Sədri), onun müavinindən (müavinlərindən), Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanının (əgər vardırsa) rəhbərindən və Orqanın digər rəhbər işçilərindən ibarət Kollegiya yaradılır. Orqanın Kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Orqanın Kollegiyası üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən və ya Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

5.10. Orqanın Kollegiyası öz iclaslarında Orqanın fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

5.11. Orqanın Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Orqanla digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktlar;

5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Orqana tapşırılmış konkret normativ hüquqi aktlar;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktlar;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktlar;

5.11.5. bu Əsasnamənin 5.11.1–5.11.4-cü yarımbəndlərinə uyğun olaraq Orqanın Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktlar.

5.12. Orqanın Kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Orqanın Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Orqanın Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olduqda, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Orqanın Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda Orqanın rəhbəri bu barədə bu Əsasnamənin 5.9-cu bəndinə əsasən, müvafiq olaraq Azərbaycan Respublikasının Prezidentinə və ya Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək öz qərarını həyata keçirir. Orqanın Kollegiyasının üzvləri şəxsi fikirlərini bu Əsasnamənin 5.9-cu bəndinə əsasən, müvafiq olaraq Azərbaycan Respublikasının Prezidentinə və ya Azərbaycan Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər (hərbi qurumlara münasibətdə həmin sahədə qanunların tələbləri nəzərə alınmaqla).

5.14. Orqanın Kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının) və hüquqi şəxslərin, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

5.15. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Orqanda ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şura yaradıla bilər.

5.16. Orqanda, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Orqanın, onun strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 1.9-cu bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla) verdikləri şikayətlərə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

# Naxçıvanın dünəninin tarixi yadigarları

## Kəngərli xanlarının sarayı

*Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Möminə Xatun türbəsinin yaxınlığında üçmərtəbəli tarixi bir bina var. Naxçıvan–Marağa memarlıq məktəbi üslubunda inşa edilmiş bu bina el arasında “Xan sarayı” adlandırılır. Bu yaraşıqlı binanı Naxçıvanın tanınmış Kəngərlilər nəslinə mənsub Kalbalı xan tikdirib.*



*Bu nadir bina 15 ildir ki, muzeyə çevrilib.*

Kalbalı xan 1787-ci ildən 1820-ci ilədək fasilələrlə Naxçıvan xanlığına rəhbərlik edib. 1820-ci ildən sonra isə xanın oğlanları Ehsan xan və İsmayıl xan bu binada Naxçıvan xanlığını idarə ediblər. Binanın Şərq memarlığı üslubunda, yüksək təpə (Xan diki) üzərində inşa edilməsi onu son dərəcə əzəmətli göstərir. Bu tarixi bina XVIII əsrin sonlarından XX əsrin əvvəllərinədək Naxçıvan xanlığının iqamətgahı, həm də xan ailələrinin yaşayış evi olub. Xanlıq ləğv olunduqdan sonra bu sarayda Kəngərli süvarilərinin komandanlığı yerləşmiş, 1918-1920-ci illərdə isə Naxçıvan Milli Müdafiə Şurasının Qərargahı buraya köçürülmüşdür.

“Əcəmi seyrəngahı” istirahət kompleksinə daxil olan bu saray binası 1998-ci ildən 2010-cu ilədək Naxçıvan Muxtar Respublikası Dövlət Xalça Muzeyi kimi fəaliyyət göstərib. Naxçıvan xanlığının dövlətçilik tarixini, irsini elmi əsaslarla qorumaq və təbliğ məqsədilə 2010-cu ilin oktyabr ayında burada “Xan sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi yaradılıb. Bu il isə muzeyin yaradılmasının 15 illiyi tamam oldu. 2015-ci ildən obyekt “Xan sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksi kimi fəaliyyət göstərməyə başlayıb.

**Kompleksin direktoru Rəhim Rəhimov** bildirdi ki, Naxçıvan xanlığının əsası 1747-ci ildə Heydərqulu xan tərəfindən qoyulmuş, 81 il fəaliyyət göstərmişdir. 1828-ci il fevral ayının 10-da isə Türkmənçay sülh müqaviləsinə əsasən xanlığın fəaliyyəti dayandırılmışdır. 1828-ci il martın 21-də Naxçıvan və İrəvan xanlıqları rəsmi şəkildə ləğv edilərək Rusiyanın tərkibinə qatılmışdır. Müsahibimiz Ulu öndər Heydər Əliyevin Naxçıvan xanlığının milli dövlətçilik tariximizdə böyük rol oynaması barədə dediklərini də xatırlatdı: “Naxçıvan xanlığı da Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. Naxçıvan xanlığı, Azərbaycanın başqa bölgələrinin xanlıqları Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar”.

Rəhim Rəhimov bildirdi ki, “Xan sarayı” Dövlət Tarix-Memarlıq Muzeyinin ətraf ərazi ilə birgə sahəsi 4,2 min kvadratmetrdir. Muzeyin özünün ekspozisiyası isə 9 zaldan ibarətdir. Binadakı otaqların divarlarında Naxçıvanın qədim yaşayış evlərinə məxsus taxçalar var və ekspozisiyanın salonlarında Naxçıvan xanlığının xəritəsi, məşhur Kəngərli nəslinin tanınmış hərbi-siyasi xadimlərinin fotoşəkilləri, onların nəsil şəcərəsi haqqında arxiv sənədləri, xatirə əşyaları nümayiş etdirilir. Həmçinin burada Naxçıvan xanlığının atributları, döyüş və dövlət bayraqları, etnoqrafik əşyalar qorunub saxlanılır.

Öyrəndik ki, cəmi 75 eksponatla fəaliyyətə başlayan muzeydə hazırda 3000-ə yaxın eksponat var. Həmçinin burada muzey fondu əsas və elmi-köməkçi olmaqla, iki bölmədən ibarətdir. Ötən dövrdə muzeyin fəaliyyəti xeyli genişləndirilmiş, əhaliyə nümunəvi muzey xidməti göstərilmişdir. Müxtəlif dövrlərdə muxtar respublikaya səfər edən yerli və əcnəbi qonaqlara muzey haqqında geniş məlumatlar verilmişdir.

Bundan əlavə, tarixi əhəmiyyəti nəzərə alınaraq kompleksdə bu günədək bir çox beynəlxalq əhəmiyyətli tədbirlər, el şənlikləri, rəsm müsabiqələri, festivallar təşkil olunmuşdur. Eyni zamanda muxtar respublikanın ali təhsil müəssisələri ilə yaradılmış əməkdaşlıq əlaqələri çərçivəsində müvafiq ixtisaslar üzrə oxuyan tələbələrin təcrübə mübadiləsi təşkil olunmuş, kollektivlərə lazımi xidmətlər göstərilmişdir.

Qeyd edək ki, Naxçıvan xanlığının Azərbaycan dövlətçiliyinə verdiyi töhfələr böyükdür. Bu xanlıq böyük dövlət xadimləri, cəsur sərkərdələr yetişdirmişdir. Tək bir nəsildən altı generalın, bir çox ictimai xadimin yetişməsi bu sülalənin Azərbaycan tarixində nə qədər böyük yeri və rolu olduğunun göstəricisidir. Qürurvericidir ki, “Xan sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksinin kollektivi bu gün də qəhrəmanlıqlarla dolu keçmişimizi, milli dövlətçilik tariximizi və bu tarixi özündə yaşadan mədəni irsimizi bura yolu düşən hər kəsə, o cümlədən gələcək nəsillərə sevərək tanıdırlar.

## Ordubadda Ərbabın evi və ipək fabriki

***Ulu öndər Heydər Əliyevin “Azərbaycanın incisi” adlandırdığı Ordubadın özünəməxsusluğunu bu bölgəyə yolu düşən hər kəs bilir. Dağların ətəyində, maili relyefdə salınmış qədim şəhər Azərbaycanda müasirliyi ilə yanaşı, orta əsrlərin ruhunu da indiyədək özündə qoruyub saxlayan azsaylı yaşayış yerlərindəndir.***

Təsadüfi deyil ki, Böyük İpək yolu üzərində yerləşən və orta əsrlərin zəngin sənətkarlıq, ticarət mərkəzlərindən biri olan bu şəhər, həm də özünün mühüm memarlıq ənənələri ilə seçilir. Şəhərin 5 əsas məhəllə üzərində qurulması, hər məhəllənin özünün məscidi, çeşməsi, çinar ağacları ilə ümumi ansambl yaratması fonunda həm də buradakı evlərin tikililərində bu özünəməxsusluq aydın görünür. Şəhərin mərkəzində bir tarixi bina da var ki, bu gün də Ordubada gələn qonaqların diqqətini ilk baxışdan cəlb edir.



İkimərtəbəli, üzü cənub-qərb istiqamətində tikilmiş və geniş balkonu olan bu binanın nə az, nə çox, tam 160 yaşı var. Ordubadlılar arasında bu bina “Ərbabın iş yeri” kimi tanınır. Ordubad şəhərinin yaşayış memarlığı üslubunda tikilən binaları içərisində xüsusilə seçilən bu tarixi ev ordubadlı sahibkar Rzaqulu Rzayevə məxsus olub. O öz evinə bitişik ərazidə ipək fabriki açmış və onun ilk rəhbəri olmuşdur. Məhz onun sayəsində 1865-ci ildə Ordubadda baramaçılıq fabriki fəaliyyətə başlamışdır.





Fabrikin ərsəyə gəlməsində Rzaqulu Rzayev çox əziyyətlər çəkmiş və fabrik üçün 96 çeşməli, 24 adda dəzgah gətizdirmiş və müəssisəyə çox sayda işçi cəlb etmişdir. Ordubadın xeyirxah, işgüzar insanlarından olan Rzaqulu Rzayevə el arasında “Ərbab” deyərmişlər ki, bu da “ağa”, “cənab”, “sahib” sözləri anlamında işlədilərmiş. Məhz Ərbabın sayəsində bu iş yeri Ordubadda orta əsrlərdən inkişaf etdirilən baramaçılığın inkişafında böyük rol oynamışdır. Tarixi romanlar janrının banisi M.S.Ordubadinin memuarlarında da onun vaxtilə Ərbabın sexində işlədiyinə dair qeydlər vardır.

Mənbələrə əsasən, Ərbabın evinin birinci mərtəbəsi barama yığımı, ikinci mərtəbəsi isə ipək sarınması üçün istifadə olunarmış. Bu evin digər xarakterik xüsusiyyətlərindən biri də divarlarının enli və qalın olması, çatma tağlarla işlənməsidir. Binanın eyvan şəbəkələri əvvəlcə Avropa–Şərq memarlığının sintezi, sonralar isə sırf Şərqə aid Xətai şəbəkə üsulu ilə hazırlanmışdır.

Maraqlı faktlardan biri də budur ki, hazırda Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində Ərbaba aid olan məşhur “Zınqırovlu sandıq” saxlanılır. Rzaqulu Rzayev qiymətli əşyalarını qorumaq üçün bu sandığı İsveçrədən gətirtdirmişdir. Odadavamlı dəmirdən hazırlanmış bu sandığın içərisində kiçik bir seyf də olmaqla, ümumi çəkisi 347 kiloqramdır. Sandığın diqqətçəkən xüsusiyyətlərindən biri də bir açar və 18 dillə bağlanmasıdır.

Muzeydə Ərbaba aid digər eksponatlardan biri də Fransadan gətirilmiş iri kəfkirli saatdır. Bu saat onun şəxsi istifadəsində olmuş və çalınan zəng fasilə vaxtını bildirərmiş. Deyilənə görə, Cümə məscidinin üzərinə quraşdırılmış həmin saatın zəngi vurulanda (məscidlə fabrik arasındakı məsafə, təxminən, 50–60 metr olar. – S.H.), onun səsi hətta İranın yaxın kəndlərində eşidilərmiş.

Xatırladaq ki, Ordubad ipəyi əsrlər boyu öz keyfiyyəti və gözəlliyi ilə ad qazanaraq beynəlxalq festivallarda mükafatlandırılmışdır. 1970-ci ildə Ordubadda toxucu sexi istifadəyə verildikdən sonra burada istehsal olunan xam ipəyin bir hissəsindən cod parça hazırlanır, digər hissəsi Şəki, Şamaxı, İsmayıllı, Moskva, Kiyev, Leninqrad (indiki Sankt-Peterburq), Düşənbə və s. şəhərlərə, habelə bir sıra xarici ölkələrə (İsveçrə, İtaliya, Belçika, Yaponiya, Tailand, Koreya) göndərilirmiş.

Mənbələrdəki məlumatlara görə, 1981-ci ildə burada 103,8 ton xam ipək, 624,9 min metr cod parça istehsal edilmişdir. Bu, 1940-cı ildəkinə nisbətən təqribən 3 dəfə çox idi. 1987-ci ildə kombinatda 108 ton ipək istehsal olunmuşdur. Sonrakı illərdə isə Naxçıvanın blokadaya salınması bir çox sahələr kimi, Ordubadda da ipəkçiliyin tənəzzülünə səbəb olmuşdur.

O ki qaldı, Ərbab Rzaqulu Rzayevə, onun avtobioqrafiyasına dair az məlumat qalıb. Sovet hakimiyyəti qurulduqdan sonra o, bir neçə illiyə Gəncə şəhərinə sürgün edilmiş, lakin ipəkçilik sahəsində ixtisaslı kadr çatışmazlığı səbəbindən Ordubada qaytarılaraq yenidən fabrikə rəhbərlik etmişdir. Bir müddət sonra isə Rzaqulu Rzayev Gəncəyə köçmüş və ömrünün sonuna qədər orada yaşamışdır.

Üstündən bir əsr yarım keçməsinə baxmayaraq, el arasında bu günədək “Ərbabın iş yeri” kimi tanınan bu binanın adı artıq rəsmi sənədlərdə də belə yazılır.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində Ordubad Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisindəki abidələrin bərpa-konservasiya layihələrindən biri də “Ordubad şəhərində yerləşən Ərbabın iş yeri və ona bitişik tarixi bina”nın bərpa edilməsidir. Artıq bu istiqamətdə işlərə başlanmışdır. Tezliklə bu tarixi bina onu ziyarət edənlərin üzünə açılacaqdır.

## Qədim diyarın tarixi arxiv sənədlərində

***Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları – tarix üzrə fəlsəfə doktorları Yaşar Rəhimov və İlhami Əliyevin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində yerləşən Rusiya Dövlət Tarix Arxivindən əldə etdikləri qiymətli sənədlər kitab halında nəşr edilib.***

“Apostrof-A” nəşriyyatında işıq üzü görən 356 səhifəlik toplunun ön sözünün müəllifi və redaktoru tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov, tərtib edən isə tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyevdir. Nəşrin hazırlanması Muxtar Respublikanın və AMEA Naxçıvan Bölməsinin rəhbərliyinin himayəsi ilə həyata keçirilib. Bu məqsədlə tədqiqatçılar Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə ezam olunublar. Onlar Rusiya Dövlət Tarix Arxivində Naxçıvanın XIX–XX əsrlər tarixinə dair saxlanılan sənədləri araşdıraraq, müvafiq materialların surətlərini əldə ediblər.




Əldə olunan sənədlər əsasında hazırlanan kitab Naxçıvanın tarixi keçmişinin daha dərindən öyrənilməsinə, həmçinin bölgənin Rusiya arxivlərində qorunan məxəzlər əsasında yeni faktlarla işıqlandırılmasına xidmət edir. Sənədlər toplusunda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarının XIX-XX əsrin əvvəllərinə aid ictimai-siyasi tarixi, iqtisadi həyatı, əhalisi və tarixi coğrafiyası ilə bağlı sənədlərin fotoları verilib.

Kitabdan tədqiqatçılar, magistrlər, doktorantlar, ümumiyyətlə, Naxçıvan tarixini araşdıranlar faydalana bilərlər.

# Tarixi turizm marşrutu genişlənir

**Son dövrlərdə turizm sənayesinin inkişaf etdirildiyi ölkələrdə diqqət yetirilən sahələrdən biri də tarixi məkan və abidələrin turist marşrutlarına daxil edilməsidir. Qədim Naxçıvanda da turizmi inkişaf etdirməkdə tarixi irsin və nadir məkanların potensialı yüksək, marşrutu genişdir.**

Naxçıvanın qədim yaşayış məskəni kimi minilliklərə gedib çıxan tarixinin turistlər üçün maraqlı obyekt və abidələrinə hər qarışında rast gəlmək olar. Aparılan arxeoloji təhlillər də bu qədim Azərbaycan diyarının zəngin tarixə və mədəniyyətə malik olmasını sübut edir. AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu son illərdə qədim diyarda tarixi turizmin önəmli sahəsi sayılan önəmli arxeoloji tədqiqatlar aparmışlar.

Turizm mütəxəssislərinə görə, insanlarda arxeoloji abidələrə maraq tədqiq olunduğu yerlərdə daha cəlbedici və maraqlı görünür. Arxeoloji turizm isə mədəni turizmin daxilində yer alan və insanların qədim dövrə, keçmişə marağından doğan istək əsasında formalaşan turizm növüdür. Əsas məqsəd arxeoloji qazıntılar zamanı tapılan mədəniyyət abidələrinin aşkar edildiyi ərazidə nümayiş etdirilməsidir.

İnstitutdan bildirdilər ki, ötən əsrin 30-cu illərində Oğlanqala, Şahtaxtı, Şortəpə abidələrində, 1951–1964-cü illərdə isə I Kültəpə, Sədərək kəndindəki şəhər yerində, 1960–1969-cu illərdə II Kültəpə və digər abidələrdə arxeoloji tədqiqatlar aparılmışdır. Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə digər sahələr kimi, Azərbaycanda, eləcə də muxtar respublikada tarixi və memarlıq abidələrinin, xüsusilə arxeoloji araşdırmaların tədqiqinə daha diqqətlə yanaşılmışdır. 1981-ci ilin sentyabr ayında Ulu öndərin təşəbbüsü ilə “Azərbaycan SSR-də memarlıq və arxeoloji abidələrin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında” Qərar qəbul edilmişdir.

Bu sənədin arxeologiya və etnoqrafiya elmlərinin inkişafında mühüm əhəmiyyəti olmuş, muxtar respublikamızın Qazma, Xaraba Gilan, Sumbatan, Haqqıxlıq, Şahtaxtı, Ovçular təpəsi, Xələc, Ərəbyengicə, Qızılburun, Damlama, Sarıdərə, I Maxta və digər abidələrində arxeoloji tədqiqatlar aparılmışdır. Müstəqilliyimizin bərpasından sonrakı dövrdə isə bu sahənin inkişafı yeni mərhələyə qədəm qoymuşdur. 2001–2002-ci illərdə Ümummilli lider Heydər Əliyevin tövsiyəsi ilə Naxçıvan–Gəmiqaya ekspedisiyası təşkil edilmiş, yeni qayaüstü təsvirlər və arxeoloji abidələr aşkar edilərək tədqiq olunmuşdur.

Son illərdə Şahtaxtı, Xaraba Gilan, Ovçular təpəsi, Oğlanqala, I Maxta Kültəpəsi, Ərəbyengicə, Xələc, I Kültəpə, Meydantəpə, Qazma mağarası, Rəsul dərəsi və digər abidələrdə aparılan arxeoloji tədqiqatlar zamanı maddi və mənəvi mədəniyyətimizlə bağlı maraqlı arxeoloji materiallar, mühüm elmi nəticələr əldə olunmuşdur.

Ovçular təpəsi, Oğlanqala, Duzdağ abidələrindəki arxeoloji qazıntılarda yerli mütəxəssislərlə yanaşı, ABŞ, Almaniya, Macarıstan, İsveç, İtaliya, Suriya, Türkiyə və Fransa arxeoloqları da iştirak etmişlər. Son illərdə isə Azərbaycan–Amerika Birləşmiş Ştatları və Azərbaycan–Fransa arxeoloji ekspedisiyalarının muxtar respublika ərazisində yerləşən Qız qalası yaşayış yeri, Qız qalası nekropolu, Ovçular təpəsi, Duzdağ, I Kültəpədə apardığı tədqiqatlar xüsusi əhəmiyyəti ilə seçilir.

**AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev** Cənubi Qafqaz və Yaxın Şərq arxeologiyasında böyük maraq doğurmuş Qız qalası yaşayış yerinin və tarixi turizm baxımından önəmini belə açıqladı:

– Bu qədim yaşayış yerinin ətrafında aparılan araşdırmalar zamanı Boyalı qablar mədəniyyətinin Naxçıvanla bağlı olmasına aid yeni faktlar aşkar olunub. Tədqiqatlar zamanı həndəsi ornament və heyvan rəsmləri ilə bəzədilmiş boyalı qabların aşkar olunması Naxçıvanın Boyalı qablar mədəniyyətinin əsas mərkəzlərindən biri olduğunu, Cənubi Qafqazın, o cümlədən Azərbaycanın digər regionlarına boyalı qabların məhz Naxçıvandan yayıldığını təsdiq edir.



Son illərdə aparılan araşdırmalar nəticəsində məlum olub ki, I Kültəpə yaşayış yeri Cənubi Qafqazın ən qədim Neolit abidəsidir. Bununla yanaşı, aparılan araşdırmalarda Naxçıvanın erkən əkinçilik, Kür–Araz, boyalı qablar, şəhərsalma mədəniyyətlərinin əsas mərkəzlərindən biri olması öz təsdiqini tapır. Bütün bunlar isə muxtar respublikada arxeoloji turizmin inkişaf etdirilməsi üçün çox böyük potensialın olduğundan xəbər verir. Belə olan halda, niyə turizmin bu sahəsinin inkişafında maraqlı olmayaq.

Nəzərə alaq ki, arxeoloji turizmin inkişafı digər turizm növlərindən bir sıra xüsusiyyətləri ilə fərqlənir. Birinci onu nəzərə alaq ki, arxeoloji turizmə maraqlı olan turistlər, əsasən, intellektual, ziyalı turistlər olur. Belə turistlərin əksəriyyəti gördükləri, tanış olduqları ərazilərlə bağlı öz ölkələrində müəyyən məlumatlar və yaxud materiallar hazırlayıb yaymaqda maraqlı olurlar. Hətta bəzi ölkələrdə arxeologiyaya marağı olan müxtəlif peşə sahibləri öz məzuniyyətlərini arxeoloji qazıntı sahələrində keçirməyə üstünlük verirlər.

Bütün bunlar onu göstərir ki, əcnəbi turistlərin Naxçıvanda arxeoloji ərazilərlə, tarixi abidələrlə tanış olması həm də bu qədim diyarımızın təbliği baxımından əvəzolunmaz vasitədir. Necə deyərlər, insanlar tarixi faktları kitabdan oxumaqdansa, onu “yerində görməkdən” daha çox razı qalarlar.

*Səhifəni hazırladı:*
***Səbuhi HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Plasido Dominqo Bakıda

## *Leyla Əliyeva Heydər Əliyev Mərkəzində keçirilən konsertdə iştirak edib*





**Əfsanəvi tenor Plasido Dominqo noyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində çıxış edib.**

Konsertdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Konsertdə Plasido Dominqo (Placido Domingo) ilə yanaşı, onun oğlu Plasido Dominqo Jr. (Placido Domingo Jr), Xalq artisti Yusif Eyvazov, Əməkdar artist Afaq Abbasova və isveçrəli opera ifaçısı Daria Rıbak (Daria Rybak) çıxış ediblər.

Səhnədə Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrini tanınmış italiyalı dirijor Françesko İvan Çampa (Francesco Ivan Ciampa) idarə edib.





Gecədə C.Puççini, C.Verdi, P.Maskani kimi dünya klassiklərinin bəstələri səslənib.

Plasido Dominqonun Azərbaycan tamaşaçılarına bu dəfə də sürprizi olub. Əfsanəvi müğənni Dominqo və gecənin digər ifaçıları “Küçələrə su səpmişəm” Xalq mahnısını birlikdə ifa ediblər.

Plasido Dominqo ilk dəfə deyil ki, Azərbaycan bəstəkarlarına müraciət edir. Xatırladaq ki, dahi müğənni 2010-cu ildə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə keçirilən təntənəli mərasimdə Tofiq Quliyevin “Sənə də qalmaz” mahnısını ifa etmişdi.

***XQ***

# “Neft bumu hamıya gülümsəyir” festivalı





**Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində görkəmli yazıçı, dramaturq və ssenarist Maqsud İbrahimbəyovun 90 illik yubileyinə həsr olunmuş “Neft bumu hamıya gülümsəyir” festivalının açılışı olub. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.**



Mərkəzin direktoru Anna İbrahimbəyova layihəni dəstəkləyən və onun hazırlanmasında iştirak edən hər kəsə minnətdarlığını bildirib. Kurator Nigar Rzayeva qeyd edib ki, festival teatr, ədəbiyyat, kino, təsviri incəsənət və müasir düşüncəni bir araya gətirir, keçmişlə indiki zaman arasında canlı mədəni dialoq yaradır.

N.Rzayeva vurğulayıb ki, Maqsud İbrahimbəyovun eyniadlı pyesi əsasında yaradılan festival insanın böyük bir irəliləyişin astanasında dayandığı anı təsvir edir.

“Baş qəhrəman çaşqınlıq hiss edir. Bu yeni mərhələnin onu hara aparacağını bilmir. Bu gün biz də öz texnoloji, sürətli və həyəcanlı “bum”umuzda yaşayırıq. Dövrlər dəyişir, amma insanın daxili dünyası və əsas dəyərləri dəyişməz olaraq qalır”, - deyə N.Rzayeva qeyd edib.

Festival müəllifin yaradıcı irsindən ilhamlanan çoxjanrlı bir məkan yaradır və onun əsərlərinin bədii potensialını yenidən kəşf edir. 1960-cı illərdə yazılmış “Neft bumu hamıya gülümsəyir” pyesi seçim, məsuliyyət və taleyin universal mövzularını XXI əsrdə də aktuallığını qoruyan suallar kimi ortaya çıxarır.

Tədbir Azərbaycan Respublikasının Əməkdar artisti Firdovsi Atakişiyevin Maqsud İbrahimbəyovun “Timka ilə neftimiz” hekayəsinin hissə-hissə oxunuşu ilə davam edib.

Mərasimin sonunda tanınmış rusiyalı jurnalist Mixail Qusman dostu Maqsud İbrahimbəyov haqqında səmimi xatirələrini bölüşüb. O, Maqsudla tanış olmaq və ünsiyyət qurmaq fürsətinin “taleyin bir hədiyyəsi” və çox dəyərli bir həyat təcrübəsi olduğunu vurğulayıb.

M.Qusman qeyd edib ki, o, İbrahimbəyovu təkcə görkəmli yazıçı və dramaturq kimi deyil, həm də olduqca gənc və enerjili bir insan kimi xatırlayır.

Onun fikrincə, Maqsud İbrahimbəyov əbədi olaraq Azərbaycanın ən dəyərli oğullarından biri - ölkəsini və xalqını sonsuz sevən, doğma torpağına bütün varlığı ilə sadiq bir şəxsiyyət olaraq qalacaq.

Qeyd edək ki, Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin fəaliyyəti yazıçının irsinin qorunması və yeni mədəni təşəbbüslərin dəstəklənməsinə yönəldilib. Festival bu missiyanı keçmişi və bu günü birləşdirərək, nəsillər arasında dialoq məkanını genişləndirərək və bu gün də əhəmiyyətini itirməyən müəllifin ideyalarına diqqəti qaytararaq davam etdirir.

***XQ***

**Onu yeniyetməlik çağlarımızdan tanıyıram. Cəbrayıldan Sumqayıta – qonşumuz olan qardaşı Hüseynalıgilə gələndə görüşərdik. Sonra Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdi, az müddət bu sahədə çalışdı və tezliklə sırf ədəbiyyat cəbhəsinə keçdi. İstedadı, zəhmətsevərliyi sayəsində sanballı əsərlər müəllifi kimi tanındı.**

# Tarixdən bugünə ədəbi körpü




Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi, Əməkdar incəsənət xadimi Elçin Hüseynbəylini deyirəm. Nəsr və dramaturgiyada sözünü ucadan deyən, 20-dən çox kitabını ədəbiyyatsevərlərin adbaad sadalaya bildiyi Elçin Hüseynbəyli yaradıcılıq üslubu, mətnləri özünəməxsus tərzdə işləməsi, tarixi şəxsiyyətlərin obrazlarını sanki öz müasirləri imiş kimi tam bələdliklə və dolğun şəkildə yaratması ilə ədəbi tənqidin diqqətini çəkir, oxucu məhəbbəti qazanır. Uşaqlar üçün yazanda, necə deyərlər, ülfətli bir uşağa dönür, ağrılı mövzulara girişəndə əsl ziyalı, vətəndaş mövqeyini müdrikanə şəkildə ortaya qoyur. Bir sözlə, Elçin Hüseynbəylinin yazıçı kimi təkamülünü bilmərrə görməzdən gəlmək olmur.

AYB-nin Natəvan klubunda müəllifin “Gültəkin xaqan”, “Pərixan”, “Şah Abbas” (uşaqlar və böyüklər üçün təkrar nəşr) romanlarının, “Dənizin nağılları”, “Banuçiçəyin rəngli yuxuları” kitablarının təqdimatı və “İmza günü” bir daha dediklərimizi təsdiqlədi. Tanınmış söz-sənət adamları, deputatlar, media nümayəndələri və oxucuların iştirak etdiyi məclisdə öncə Elçin Hüseynbəyli özü hər bir nəşr barədə qısa məlumat verib, əsərlərin sturukturu, mövzu və ideyasından bəhs etdi.



Sonra AYB-nin sədri, Xalq yazıçısı Anar Elçin Hüseynbəylinin yaradıcılığı barədə fikirlərini bölüşdü: “Şübhəsiz, Elçin yaxşı yazıçıdır və sevindiricidir ki, o, yaradıcılıq məsələlərində olduqca mütəhərrikdir. Elçin haqqında indiyə qədər 2 yazım çap olunub. Uğurlar arzu edirəm”.

AYB-nin 1-ci katibi, Xalq yazıçısı Çingiz Abdullayev hazırkı kitabçılıq mənzərəsi fonunda yeni uğurlu nəşrlərin ərsəyə gətirilməsinin çətinliyi, buna baxmayaraq, Elçin Hüseynbəylinin böyük şövqlə yeni kitablarını təqdim etməsinin böyük iş olduğunu qeyd etdi: “Mən Elçini çox maraqla oxuyuram. Onun yeni kitabları və bu qədər adamın bir araya toplanması sevindirici haldır. Həm AYB katibliyinin işləri, həm də yazı prosesi ilə mütəmadi məşğul olması təqdirəlayiqdir”.

Azərbaycanda Atatürk Mərkəzinin müdiri, akademik Nizami Cəfərov Elçin Hüseynbəylinin yazıçı kimi özəl xüsusiyyətlərindən, əsərlərinin ümumi məziyyətlərindən, qələmə aldığı romanların üstün cəhətlərindən söhbət açdı: “Elçin Hüseynbəyli tarixi romanlarda detallarla məharətlə işləməyi, yazıçı fəhmi və təxəyyülünün vəhdəti ilə təqdim etdiyi faktların üzərində dayanmağı bacarır. Və bununla da mətnin inandırıcılıq gücünü artırır”.

Milli Məclisin deputatları Hikmət Babaoğlu və Ceyhun Məmmədov müəllifin çapdan çıxmış “Gültəkin xaqan” romanı barədə fikirlərini bölüşdülər, Türk dövlətlərinin həmrəyliyinə bədii çağırış, Turançılıq ideologiyasının təbliği baxımından bu romanı əlamətdar əsər hesab etdiklərini bildirdilər.

Professor Telman Vəlixanlı, “Ədəbiyyat qəzeti”nin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Azər Turan, AYB-nin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri, tənqidçi, esseist Əsəd Cahangir və digər qələm adamları Elçin Hüseynbəylinin istisnasız olaraq hər bir əsərində sözü layiq olduğu mərtəbəyə qaldıra bilməsi barədə söhbət açdılar. Səsi uca kürsülərdən gələn, kitabları 10-dan çox xarici ölkədə çap olunan yazıçıya xoş arzularını çatdırdılar.

Məclisin sonunda yazıçı kitablarını oxucular üçün imzaladı. Hər kəs bir daha inandı ki, hekayələrindən birini “Gözünə gün düşür” adlandıran Elçin Hüseynbəylinin yeni kitabları da oxucu qəlblərinə gün işığı bəxş edəcək.

***Əli NƏCƏFXANLI***
***XQ***

*Seyid Əzim Şirvani - 190*

# Aləmdə səsi qalan şair

**Sumqayıtdakı Poeziya Evində qüdrətli şair və maarif xadimi Seyid Əzim Şirvaninin anadan olmasının 190 illiyinə həsr edilən ədəbi-bədii gecə keçirilib.**

Məlum olduğu kimi, Prezident İlham Əliyev Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Seyid Əzim Şirvaninin anadan olmasının 190 illiyinin qeyd edilməsi ilə bağlı sərəncam imzalayıb. Sözügedən məclis həmin silsilədən düzənlənən növbəti tədbir kimi yaddaqalan olub.

Azərbaycan Yazıçılar Birliyinin (AYB) Poeziya bölməsinin rəhbəri, şair İbrahim İlyaslı məclisi açaraq milli-mənəvi dəyərlərin, ədəbiyyat və incəsənətin təbliğinə dövlət səviyyəsində diqqət göstərilməsindən, klassiklərimizin, o cümlədən Seyid Əzimin irsinə qayğıkeş münasibətdən danışıb. Sonra AzTV-nin “Sabah” Yaradıcılıq Studiyasının “Yad et məni” layihəsi çərçivəsində ərsəyə gətirdiyi “Ustadi-əzəm” bədii-sənədli filmi nümayiş olunub.

Ədəbi-bədii gecənin aparıcısı Elşən Tərlan böyük klassikin həyatından və yaradıcılıq məziyyətlərindən bəhs edib. Tanınmış şairlər – Prezidentin fərdi təqaüdçüləri Əşrəf Veysəlli və Ofelya Babayeva, filologiya elmləri doktorları Aftandil Ağbaba və Rafiq Yusifoğlu, Əməkdar müəllim Sabir Məmmədov və başqaları Seyid Əzimin poetik dünyasına nəzər salıb, maarifçilik fəaliyyətinin örnək cəhətlərini xatırladıblar.

Ümid Abbas Nihaninin “Dərviş” qrupunun kompozisiyası, Sumqayıt Musiqi Kollecinin muğam ifaçılarının, bədii qiraətçi Vahid Curaninin, qələmlərini əruz vəznində sınayan gənc şairlərin çıxışları da maraqla qarşılanıb. Məclisin ümumi ruhu bir daha göstərib ki, “Seyyida, ölmərəm, aləmdə səsim var mənim” deyən şairin bənzərsiz poeziyası ölməzlik qazanıb və daim sevilməkdədir.




***Ə.ƏLİYEV***
***XQ***

# İlmələrə hopmuş könül nəğmələri

## *Bu əlvan tabloların hər naxışından bir hikmət boylanır*

**Əsrlər boyu bəşəriyyətin mədəni irsinin əsasını təşkil edən xalçalar yalnız tariximizi deyil, həm də estetik meyarları və məxsusi elmi əsasları özündə yaşadır. Hər ilmə elə bir riyazi qayda ilə vurulur ki, bu dəqiqlik xalçanın bədii keyfiyyətini və davamlılığını təmin edir.**

**Xalçaçılığın Misirdən bütün dünyaya yayıldığına dair fərziyyələr olsa da, əslində, bu sənətin inkişafı və kamilləşməsi Şərq xalqlarının, xüsusilə də Azərbaycanın adı ilə bağlıdır. Ölkəmizdə aparılan arxeoloji qazıntılarla yanaşı, qədim tarixçi-coğrafiyaçılar Herodot, Klavdi Elian və Ksenofontun əsərlərindəki qeydlər Azərbaycanda xalçaçılığın nə qədər qədim kökləri olduğunu sübut edir. Naxışı və rəngi ilə bölgələrimizin fərqli xüsusiyyətlərini daşıyan bu sənət növü Təbriz, Qarabağ, Quba və Şirvanın zəngin məktəblərinin palitrasını qoruyur.**

**Xalq rəssamı, ustad xalçaçı Lətif Kərimovun tələbəsi olan Əməkdar incəsənət xadimi, professor Kübra Əliyevanın “Azərbaycanın xovsuz xalçaları” və “Təbriz xalçaçılıq məktəbi” tədqiqatları xalçaçılığın elmi əsaslarını sistemləşdirmişdir. Kübra xanımın nəzərində xalça adi bir məişət əşyası deyil, hər ilməsi tarix danışan, hər rəngi isə incə duyğuları ifadə edən nağılları, sənət əsəri, mədəniyyət abidəsidir.**

**O, xalça sənətinin təməl prinsipləri, ornamentlərin gizli mənaları və illərlə unudulmuş texnikaları haqqında zəngin məlumat toplamaq üçün uzun illər tədqiqat aparmışdır. Məhz bu elmi bilikləri öyrənmək və zəngin təcrübədən faydalanmaq üçün professor Kübra Əliyeva ilə həmsöhbət olduq.**



**– Ömrünüzün 50 ildən çoxunu bu qədim sənətə həsr etmisiniz. Azərbaycan xalçaçılıq sənəti milli-mədəni irsimizdə hansı yeri tutur?**

– Qədim xalq sənət növü bu gün də məişətdə özünəməxsus yerini qoruyur. Yunun keyfiyyəti, boya komponentləri, toxuma texnologiyaları, orijinal həndəsi naxışları və obrazları ilə bir-birindən fərqlənən Azərbaycan xalçaları coğrafi mövqeyinə və texniki xüsusiyyətlərinə görə bölünür. Məhz bu zənginliyi və bölgələr üzrə fərqləri yerində dərindən öyrənmək arzusu məni Moskvada təhsilimi bitirdikdən sonra doğma Vətənə qayıtmağa və Lətif Kərimovun rəhbərliyi ilə tədqiqatlara başlamağa sövq etdi.

Elmi rəhbərim Lətif Kərimov mənə mövzu təklif edəndə qərar verdim ki, təkcə nəzəri biliklərlə kifayətlənməməli, Azərbaycanın etnoqrafiyasını və xalçaçılıq ənənələrini yerində araşdıraraq, dərindən tanımalıyam. Yalnız dərin tədqiqat apardıqdan sonra elmi işimi yaza bilərəm. O dövrdə Xalça Muzeyi yeni yaradılmışdı. Lətif müəllimin təşəbbüsü ilə beş nəfər muzeydən, beş nəfər də akademiyadan ibarət bir heyət formalaşdı və ilk tədqiqat işimiz üçün Qarabağdan Ermənistana qədər getdik. Biz orada təxminən üç ay qaldıq və xalçalarla bağlı çox zəngin materiallar topladıq.

Kollektiv tədqiqatdan sonra fərdi araşdırmalara başladım. Azərbaycanın bütün bölgələrini ən ucqar kəndlərinə qədər, gəzib yerli xalçaçılıq ənənələrini öyrəndim. Bu tədqiqatlar gələcək elmi fəaliyyətim üçün əvəzolunmaz təməl rolunu oynadı və mənə bilavasitə yerli ənənələri öyrənmək imkanı verdi.

Fərdi tədqiqatlarımın əsas mövzularından biri də köçəri tayfaların, yəni tərəkəmələrin əl işləri idi. Kəlbəcər dağlarına etdiyim səfərlər zamanı mən tərəkəmələrin həyat tərzini, mifologiyasını və adət-ənənələrini öyrənməklə yanaşı, əsas diqqəti onların toxuduqları əşyalara yönəltdim. Köçəri olduqları üçün tərəkəmələr duz qabından tutmuş, məişətdə istifadə olunan digər yüngül əşyalara qədər, əsasən xovsuz xalçalar toxuyurdular.

Bu xalçaların əsas özəlliyi üzərindəki naxışların sırf həndəsi olması idi. Mən bu naxışların simvolik mənalarını öyrəndim. Məsələn, kvadrat evi, onun içərisindəki romb isə qadını simvolizə edirdi; əgər evin xanımı hamilə idisə, rombun içərisinə 9 kiçik kvadrat toxunurdu. Topladığım material və öyrəndiyim simvolikanın əsasında elmi işimi müdafiə etdim və bir kitab yazdım. Kitabda mən Azərbaycan xalça toxunuşunun dörd əsas istiqamətini vurğuladım: Tərəkəmə xalçaları, kənd əhalisinin toxuduqları xalçalar, şəhər xalçaları və saray xalıları.

Bu 4 istiqamət arasında həm işləklik, həm də estetik baxımdan ciddi fərqlər mövcud idi. Kənd xalçalarının simvolikası daha çox quşların ön və ya yan görünüşlü təsvirləri ilə seçilirdi. Bakı və ətraf kəndlərdəki şəhər mühitində toxunan xalçalar isə naxışların kompozisiya zənginliyi ilə fərqlənirdi. Məhz bu dövrlərdə Avropa və Asiyadan gələn tacirlər Azərbaycan xalılarının əvəzində ədyallar gətirirdilər. Şəhər əhalisi də bu ədyalların üzərindəki ornamentlərdən ilhamlanaraq, daha zəngin və mürəkkəb kompozisiyalı xalçalar toxuyurdu.

Saray xalılarının yaranmasında İslam və sufizmin təsiri xüsusi əhəmiyyət daşıyır. İslamın yayılmasından sonra naxışlara Quran ayələri və ərəb xəttatlığının Kufi üslubu kimi elementlər daxil edildi. Həmçinin səkkizguşəli ulduz kimi simvolik ornamentlər xalçalara milli kimlik qazandırırdı. Sufi dünyagörüşü ornamentlərdə sadəcə bəzək deyil, həm də kosmos, ilahi idrak və mistik rəmzləri əks etdirirdi. Bu fəlsəfi təsir rəng palitrasında da özünü



göstərirdi: göy rəng ulduzlu səmanı, sarı və ya qızıl iplər Günəşi, yaşıl isə təbiətin daim təzələnməsini təmsil edirdi.

Məhz bu fəlsəfi dərinlik saray xalçalarını, xüsusən Təbriz məktəbini, rəng dilini ən yüksək səviyyəyə qaldırdı. Xalçalarda təmiz, intensiv rənglər (qırmızı, göy) üstünlük təşkil etdiyi halda, peşəkar rəssamların işlədiyi Təbriz xalçalarında palitra daha geniş, çalarlar isə daha zəngin olurdu. Bu dini-fəlsəfi təsirdən sonra miniatür sənət də inkişaf etdi və daha böyük ölçülü xalılar toxunmağa başladı. Nəticədə, saray xalılarında şahların həyatını – qonaqlıqları, rəqsləri və hərbi oyunları əks etdirən süjetli kompozisiyalar yer almağa başladı.

**– Xalçalar naxış motivlərinə görə hansı qruplara bölünür? Bu gün Azərbaycan xalıları dünya mədəniyyəti irsində necə yer tutur?**

– Naxış kompozisiyalarına görə bir neçə əsas qrupa bölünən xalılarda təbiəti əks etdirən motivlər xüsusi yer tutur. Məsələn, “Meşəli” qrupunda daha çox meşədəki ağaclar təsvir edilir, “Baxçalı” qrupunda isə hovuzlar, bağçalar və çeşmələri əks etdirən detallara üstünlük verilir. Bunlarla yanaşı, əjdaha və simurq quşları kimi mifoloji obrazların təsvir olunduğu nadir xalçalar da mövcuddur. “Əjdahalı” xalça Qarabağ xalçaçılıq məktəbinin nadir və qədim nümunələrindən biridir. Adından da göründüyü kimi, bu xalçaların əsas naxışı əjdaha təsviridir. Türk və Azərbaycan mifologiyasında xüsusi yer tutan əjdaha suyu yeraltı sərvətləri və xeyirxah gücü simvolizə edir.



Bu unikal nümunələr və zəngin bədii irs sayəsində bu gün Azərbaycan xalıları bəşəriyyətin mədəniyyət irsinin əvəzolunmaz nümunələri kimi dünyanın ən məşhur muzeylərini bəzəyir. Məsələn, Vaşinqtondakı Tekstil Muzeyinin kolleksiyasında Şuşada və Ağdamda toxunan, üzərində əjdaha, ulduzlar, simurq quşları olan 140-dan çox xalça saxlanılır. Xüsusilə vurğulamaq lazımdır ki, dünyanın ən nadir sənət incilərindən olan və Londondakı Viktoriya və Albert Muzeyində saxlanılan 56 kvadratmetrlik “Şeyx Səfi” xalısının əhəmiyyəti misilsizdir. Hələ XVI əsrdə toxunan bu xalı Luvr Muzeyindəki “Mona Liza” əsəri kimi şüşə altında xüsusi şəraitdə qorunur. Bu fakt Azərbaycan xalçaçılığının beynəlxalq səviyyədə nə qədər dəyərli olduğunu bir daha sübut edir.

**– Dünyaya Şuşada göz açmış bir araşdırmaçı kimi Qarabağ xalça məktəbinin özəlliklərini nədə görürsünüz? Xüsusən də rəng uyğunlaşdırma və boyaqçılıq sənəti ilə bağlı məsələlərə münasibətiniz?**

– Danılmaz faktdır ki, Qarabağ xalçaları xalçaçılıq sənətinin tacıdır. Toxuculuq sənətində boyaqçılığın xüsusi yeri var. Həmin xalçalar həm rəng, həm də kompozisiya arasındakı uyğunlaşdırma ilə seçilir.

Boyaqçılar xalçanın rəngi solmasın deyə təbii üsullardan, yəni çiçəkdən və ağacdan istifadə edirdilər. Bəzi rəngləri ev şəraitində də əldə etmək mümkün idi. Məsələn, sarı rəng almaq üçün Qarabağda ən çox “nazotu” (boyaqotu), “narınc ağacı”, tut ağacının sarı yarpaqları, soğan qabığı, qov göbələyi, zing, gülxətmi, kəkotu və s. kimi yerli xammaldan geniş istifadə olunub. Boyaqçılıqda qırmızı rəng əldə etməyin ən geniş yayılan üsulu boyaq bitkisindən geniş istifadə edilməsi olub. Qarabağda, xüsusilə Şuşa və Cəbrayılda qara rəng almaq üçün toxucular nar qabığına üstünlük veriblər. Yeri gəlmişkən, mənim ata babam Şuşada boyaqçı idi.

Göründüyü kimi, professor Kübra Əliyevanın tədqiqatlarında, xüsusilə də Təbriz xalçaçılıq məktəbinin dərinlikləri xüsusi yer tutur. Qeyd etmək lazımdır ki, Təbriz xalçaları qədim zamanlardan Qərbi Avropaya İrandan ixrac edildiyi üçün bir müddət yanlış olaraq “İran xalçaları” kimi təqdim edilmişdi. Lakin Azərbaycan xalça sənətinin böyük tədqiqatçısı Lətif Kərimov 1954-cü ildə ilk dəfə olaraq “Azərbaycan xalça sənətinin öyrənilməsinə dair (Təbriz xalça növləri)” məqaləsində Təbriz sənətinin Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsi olduğunu elmi əsaslarla sübut etmişdir. O, “Şeyx Səfi”, “Ovçuluq” və “Ləçək-türünc” kimi məşhur Təbriz kompozisiyalarının İranın digər bölgələrində də yayılmasının məhz Azərbaycan xalça məktəbinin təsiri ilə baş verdiyini göstərmişdir.

Azərbaycan xalça sənəti, sadəcə, keçmişin yadigarı deyil, Azərbaycan tarixinin ipək və yun iplikərdə toxunan sənət salnaməsidir. Məhz bu dəyərin təcəssümü kimi, Azərbaycan dövlətinin və Heydər Əliyev Fondunun bu sənətə göstərdiyi yüksək qayğı nəticəsində 2010-cu ildə “Azərbaycan xalçası” sənəti UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Bu mühüm hadisə xalça sənətinin beynəlxalq səviyyədə qorunub təbliğ edilməsi üçün əsaslı bir addım oldu. Bu diqqətin ən möhtəşəm təzahürü olan və xalça formasında tikilən Azərbaycan Milli Xalça Muzeyinin yeni binası isə bu gün dünyada xalça sənətinin gücünün və əbədiyyətinin ən parlaq simvollarından birinə çevrilib.

***Arzu ƏLİYEVA***
***XQ***

*Beynəlxalq həyat*

# “İndiki dünya nizamı öz sonuna çatıb”

**Almaniya kansleri Fridrix Merts hesab edir ki, indiki dünya nizamı artıq öz mövcudluğunu başa vurub. O, bu fikri Berlində “Süddeutsche Zeitung” qəzetinin təşkil etdiyi iqtisadi konfransda səsləndirib.**




“Biz hələ bilmirik ki, dünya nizamı bir neçə ildən sonra necə görünəcək. Amma tam əminik ki, biz Qərbdə son 80 ildə, Şərqdə isə 35 ildə tanıdığımız dünya nizamı artıq yoxdur. Əgər biz yeni dünya nizamı formalaşdırmaq istəyiriksə, bu yalnız Avropadakı qonşularımızla birlikdə mümkün ola bilər”. Kansler sonra qeyd edib ki, Almaniya hökuməti qarşısındakı çağırışlar “müharibədən sonrakı tarixi ərzində nadir hallarda, bəlkə də heç vaxt olmadığı qədər çoxşaxəlidir və mürəkkəbdir”: Bu çağırışlar arasında Merts Ukraynadakı münaqişəni, Çinlə münasibətləri və ABŞ-la ticarət ziddiyyətlərini sadalayıb: “Atlantika boyunca dərin bir parçalanma yaranıb və bu parçalanma son onilliklərdə transatlantik münasibətlərdə doğru və zəruri hesab etdiyimiz demək olar ki, hər şeyi sual altına qoyur”.

Almaniya kansleri Fridrix Mertsin Berlində səsləndirdiyi fikirlər qlobal siyasi dinamikanın yeni mərhələyə keçdiyini göstərən açıq mesajdır. Onun “əvvəlki dünya nizamı başa çatdı” ifadəsi Qərbin son onilliklərdə üstünlük təşkil edən təhlükəsizlik, iqtisadi və siyasi arxitekturasının artıq işlək mexanizmlərdən məhrum olduğunu üzə çıxarır. “Soyuq müharibə”dən sonrakı dövrdə formalaşmış və əsasən ABŞ-ın liderliyi ilə fəaliyyət göstərən beynəlxalq nizam indi müxtəlif tərəflərdən təzyiq altındadır: Rusiya – Ukrayna müharibəsi, Çinlə geosiyasi rəqabət, qlobal ticarət sistemində parçalanma, enerji böhranı, texnoloji müstəqillik uğrunda mübarizə və transatlantik ittifaq daxilində artan fikir ayrılıqları bu nizamın dayanıqsızlığını daha da dərinləşdirir.

Mertsin vurğuladığı əsas tezislərdən biri ondan ibarətdir ki, Qərbin 80 il ərzində üzərində qurduğu prinsiplər artıq qlobal reallıqlarla üst-üstə düşmür. ABŞ və Avropa arasındakı münasibətlərdə yaranan çatlar, xüsusilə ticarət və sənaye siyasəti sahəsindəki ziddiyyətlər bu fikri daha da möhkəmləndirir. Vaşinqtonun getdikcə Asiya - Sakit okean regionuna yönəlməsi Avropa üçün strateji boşluq yaradır. ABŞ-ın qəbul etdiyi yeni sənaye subsidiyaları isə Avropa istehsalçılarını zəiflədərək transatlantik münasibətlərin iqtisadi əsaslarını sarsıdır. Merstin “Atlantika boyunca dərin parçalanma” kimi xarakterizə etdiyi bu proses Qərbin tarixi həmrəyliyinin ilk dəfə bu qədər ciddi şəkildə sual altına düşdüyünü nümayiş etdirir.

Ukrayna münaqişəsi Almaniyanın qarşısında duran ən mürəkkəb sınaqlardan biri olaraq qalır. Müharibə Avropanın enerji təhlükəsizliyini sarsıdıb, qitənin müdafiə qabiliyyətinin real vəziyyətini üzə çıxarıb və Almaniyanın uzun illər formalaşdırdığı iqtisadi modelə ciddi zərbə vurub. Berlin paralel şəkildə həm Ukraynaya dəstəyi davam etdirməyə, həm də daxili sosial-iqtisadi sabitliyi qorumağa çalışır. Bu isə Almaniyanın geosiyasi mövqeyinin yenidən dəyərləndirilməsini qaçılmaz edir.

Digər tərəfdən, Çinlə münasibətlər də Almaniya üçün mühüm strateji dilemmanın hissəsidir. Berlin həm Çin bazarına olan dərin iqtisadi bağlılığını saxlamağa, həm də Pekinin qlobal siyasətdə artan iddialarına reaksiya verməyə məcburdur. ABŞ-ın Çinə qarşı sərtləşən siyasəti və Avropada formalaşan “strateji təhlükəsizlik” yanaşması Almaniyanı daha çətin seçimlər qarşısında qoyur. Bu vəziyyət Avropanın texnoloji müstəqillik, enerji keçidi və müdafiə sənayesi kimi sahələrdə daha koordinasiyalı və özünə yetərli siyasət formalaşdırmasını zəruri edir.

Mertsin çıxışında vurğuladığı ən mühüm məqamlardan biri Avropanın yeni dünya nizamında yalnız birgə hərəkət etməklə rol oynaya biləcəyi fikridir. O, faktiki olaraq, Avropa İttifaqının strateji güc mərkəzinə çevrilməsinin vaxtının çatdığını bildirir. Bu, təkcə diplomatik həmrəyliyi deyil, həm də real hərbi-siyasi gücə malik olan “strateji Avropa” konsepsiyasının formalaşmasını tələb edir. Yeni nizam üçün əsas şərt ABŞ-dan tam ayrılmaq deyil, asılılıq səviyyəsini optimallaşdırmaq və qlobal proseslərdə daha müstəqil mövqe nümayiş etdirməkdir.

Mertsin nitqi həm də qlobal sistemin gələcəyinə dair dərin qeyri-müəyyənliyi əks etdirir. Dünya çoxqütblü və qeyri-sabit bir fazaya keçid edir. Regional güclərin artan rolu, beynəlxalq təşkilatların təsirinin zəifləməsi, texnoloji üstünlük uğrunda qızğın rəqabət və enerji marşrutlarının yenidən formalaşması yeni reallığın əsas elementləridir. Belə şəraitdə Avropanın, xüsusilə də Almaniyanın qarşısında duran ən böyük vəzifə yeni nizamı, sadəcə, qəbul edən deyil, onu formalaşdıran fəal gücə çevrilməkdir.

Bu baxımdan, Mertsin fikirləri həm də Avropa üçün strateji xəbərdarlıq kimi qiymətləndirilə bilər: dünya dəyişir və bu dəyişikliklərin mərkəzində olmayanlar onların təsiri altında qalmağa məhkum olacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

## “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti

*Xüsusi təyinatlı nəqliyyat vasitələrinin satın alınması məqsədilə*

## AÇIQ TENDER ELAN EDİR

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin xüsusi təyinatlı nəqliyyat vasitələrinin satın alınması üçün açıq tenderində iştirakçılar yasin.akbarov@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 9 dekabr 2025-ci il saat 15.00-dəkdir.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Prosedur üzrə əlaqələndirici şəxs – Kənan Əliyev, satınalmalar üzrə aparıcı mütəxəssis, kanan.aliyev@azal.az, iş – (+99412) 4972600, daxili 4009.

## “Sabunçu Bazarı” ASC səhmdarlarının nəzərinə!

28 dekabr 2025-ci il saat 11.00-da Sabunçu rayonu, Sabunçu qəsəbəsi, Əhməd Cavad küçəsi 4 nömrəli ünvanda “Sabunçu Bazarı” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** “Sabunçu Bazarı” ASC-nin müşahidə şurasının üzvlərinin seçilməsi.

**2.** “Sabunçu Bazarı” ASC-nin baş direktorunun seçilməsi.

**3.** Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi Bakı şəhəri, Sabunçu rayonu, Sabunçu qəsəbəsi, Əhməd Cavad küçəsi 4 nömrəli ünvanda tanış olmaq mümkündür.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 244 (30938) 18 noyabr 2025-ci il, çərşənbə axşamı

# İDMAN

## DÇ–2026-da son oyunumuz



**Futbol üzrə Azərbaycan millisinin daxil olduğu D qrupunda DÇ–2026-nın seçmə mərhələsi üzrə sonuncu oyunlar keçirilib. Ayxan Abbasovun baş məşqçisi olduğu kollektiv Bakıda Tofiq Bəhramov adına Respublika stadionunda Fransa yığmasını qəbul edib. Qarşılaşma qonaqların 3:1 hesablı qələbəsi ilə başa çatıb.**

Hesabı 4-cü dəqiqədə millimizin futbolçusu Renat Dadaşov açıb. Fransızlarda 17-ci dəqiqədə Jan-Filipp Mateta, 30-cu dəqiqədə Manes Akliuş komandamızın qapısına yol tapıb. 45+1-ci dəqiqədə isə millimizin qapıçısı Şahruddin Məhəmmədəliyev avtoqol müəllifi olub. Oyunun ikinci hissəsində hər iki tərəfin səylərinə baxmayaraq, qapılara top vurulmayıb.

D qrupunun digər matçında Ukrayna futbolçuları İslandiya komandasına qalib gəlib – 2:0.

Qeyd edək ki, 16 xalla qrupda lider olan Fransa komandası DÇ–2026-nın final mərhələsinə vəsiqəni əvvəlki turda təmin edib. Xallarının sayını 10-a çatdıran Ukrayna pley-offa yüksəlib. 7 xalı olan İslandiya seçmə mərhələni üçüncü sırada bitirib. Azərbaycan millisi 1 xalla sonuncu pillədə qərarlaşıb.

## Zaqrebdə 3 medal




**Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən cüdo üzrə Qran-Pri turniri başa çatıb. Son yarış günündə yığmamız aktivinə iki medal yazdırıb.**

100 kiloqramdan artıq çəki dərəcəsində mübarizə aparan Kənan Nəsibov bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Cüdoçumuz finalda Niderland idmançısı Yur Spaykersi ipponla məğlub edib.

90 kiloqram çəkidə çıxış edən Vüqar Talıbov isə üçüncü yer uğrunda görüşdə komanda yoldaşı Aslan Kotsoyevdən üstün olaraq bürünc medala yiyələnib.

Qeyd edək ki, daha əvvəl Hüseyn Allahyarov (60 kq) bürünc mükafatın sahibi olmuşdu.

Beləliklə, 1 qızıl və 2 bürünc medal əldə edən Azərbaycan 48 ölkə arasında ümumi komanda hesabında beşinci, kişilərin mübarizəsində isə dördüncü yeri tutub.

## Güləş hakimlərimiz I kateqoriya qazanıblar



**Azərbaycan güləş hakimliyi növbəti uğura imza atıb. 2 referimiz I kateqoriyaya yüksəlib.**

Eldar Bayramov bu il İspaniya "Qran-pri"sində (4–6 iyul), Əli Babayev isə "Poland Open" turnirində (30 iyul–3 avqust) ədaləti qorumaqla yanaşı, Dünya Güləş Birliyi (UWW) tərəfindən təşkil edilən imtahanları uğurla başa vurub. Buna qədər II kateqoriyada xalça üzərində fit səsləndirən hakimlərimiz növbəti ildən I dərəcəli hakim statusunda qarşılaşmaları idarə edəcəklər.

Bu yüksəliş onların növbəti ildən etibarən U17, U20, U23 yaş qrupları üzrə Avropa və Dünya çempionatlarında, həmçinin reytinq turnirlərində iştirak etmələrinə şərait yaradacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**XALQ QƏZETİ**

**Abunə yazılışını davam etdirir!**

***Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:***

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 156 (yüz əlli altı) manat.
6 aylıq – 78 (yetmiş səkkiz) manat.
3 aylıq – 39 (otuz doqquz) manat.
1 aylıq – 13 (on üç) manat.


5 il əvvəl biz hamımız Vətən dedik!
Xalq qəzeti
Prezident İlham ƏLİYEV:
Ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi biz özümüz bərpa etdik!
Üç dövlət, üç qardaş – tək ürək

**Hörmətli abunəçilər!**
**Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.**

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## Taekvondoçularımızın gümüş və bürüncü

**Azərbaycan taekvondoçusu Qaşım Maqomedov Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən VI İslam Həmrəyliyi Oyunlarında üçüncü yeri tutub. 60 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız bürünc mükafata sahib çıxıb.**



Q.Maqomedov Paris 2024 Yay Olimpiya Oyunlarında gümüş medal qazanmışdı.

Qadın taekvondoçumuz Minayə Əkbərova (46 kq) isə Oyunların gümüş medalını qazanıb. İdmançımız finalda İran təmsilçisi Sayna Karimirahjerdiyə 0:2 hesabı ilə məğlub olub.

Digər taekvondoçularımız Cavad Ağayev bürünc medal uğrunda döyüşdə məğlub olub, Məryəm Məmmədova 1/4 finalda, Bəhruz Quluzadə isə 1/8 finalda mübarizəni dayandırıb.

Qeyd edək ki, İslamiada noyabrın 21-də başa çatacaq.

*XQ*

# Anadolunun Qara dəniz sahilləri

**Türkiyənin şimalında yerləşən, yaşıl təbiəti və zəngin mədəniyyəti ilə seçilən Qara dəniz sahilləri "National geographic" jurnalının 2026-cı ilin ən ilhamverici səyahət istiqamətlərini təqdim edən "Dünyanın ən yaxşıları" siyahısına daxil edilib. Bu, həm regionun təbiət gözəlliklərinə, həm də qədim mədəni irsinə verilən böyük bir qiymətdir.**





Qara dəniz sahilləri - bu, sadəcə bir coğrafiya deyil, insanı həm düşündürən, həm də rahatladan bir dünyanın qapısıdır. İndi bu qapı bütün dünyaya açılıb. Burada hər şey bir rəng ahəngidir: Rize və Trabzonun yamyaşıl çay plantasiyaları, Giresunun fındıq bağları, Ordu və Samsunun uzanan çimərlikləri, Artvinin qarlı dağ silsilələri - hamısı Qara dəniz sahilinin bir-birini tamamlayan simfoniyasıdır. Dalğalardan axan buz bulaqları və meşələrin yaşıl nəfəsi bu torpağa başqa bir ruh bəxş edir.

Kaçkar Dağları Milli Parkı bu sahillərin tacıdır - buradan baxanda dəniz, sanki dağların ayaqlarına sərilmiş mavi bir xalça kimi görünür. Sumela monastırı, Ayder yaylası, Amasra və Sinop kimi şəhərlər isə Qara dənizin təkcə təbiət deyil, mədəniyyət xəzinəsi olduğunu göstərir. Məhz bu baxımdan da "National Geographic"in "BEST OF THE WORLD" – 2026" siyahısında yer alan Türkiyənin Qara dəniz sahilləri dünya səyyahları üçün yeni kəşf məkanı kimi təqdim olunur.

Hər il "National Geographic"in redaktorları və səyahət mütəxəssisləri tərəfindən hazırlanan bu siyahı gələn ilin ən maraqlı 25 səyahət istiqamətini özündə birləşdirir. Qara dəniz sahillərinin bu siyahıya daxil olması, Türkiyənin yalnız "dəniz, günəş və qum" turizmi ilə deyil, həm də dağları, vadiləri, mədəni irsi və canlı yerli həyatı ilə cəlbedici bir turizm ölkəsi olduğunu bir daha göstərir.

Qara dəniz bölgəsi, adından da göründüyü kimi, Türkiyənin şimal sahili boyunca Qara dənizlə uzanır. Yaşıl Şimal Anadolu dağları ilə əhatə olunan bu bölgə təbiətin və sakitliyin vəhdətini simvollaşdırır. Dumanlı təpələri, sıx meşələri, geniş vadiləri və ənənəvi kənd həyatı ilə Qara dəniz bölgəsi öz təbii gözəlliyini və sakit xarakterini qoruyur.

Son illərdə beynəlxalq səyahət siyahılarında adından daha çox söz etdirən Qara dəniz bölgəsi CNN Travel tərəfindən "2024-cü ildə ziyarət üçün ən yaxşı yerlərdən biri" olaraq təqdim edilib. Ardınca, bölgənin Ordu və Giresun vilayətləri Lonely Planet tərəfindən "Best in Travel 2025" siyahısında yer alıb.

Bu artan beynəlxalq marağın davamı olaraq, "National Geographic" 2026-cı ildə səyahətçilərin mütləq ziyarət etməli olduğu istiqamətlər arasında Qara dəniz sahillərini göstərib. Bu gözəl sahil zolağı hər zövqə uyğun təcrübələr təqdim edir: qumlu çimərliklər, tarixi memarlıq nümunələri, sıx meşələr və özünəməxsus Qara dəniz mətbəxi.

Jurnalın qeyd etdiyi kimi, hələ də kütləvi turizmin diqqətindən kənarda qalan bu şimal bölgə yaxın illərdə Türkiyənin ən çox axtarılan istiqamətlərindən birinə çevrilməyə namizəddir.

Bir zamanlar İpək Yolu üzərində mühüm ticarət mərkəzi olan Türkiyənin Qara dəniz bölgəsi bu gün səyahətçiləri təbiətin möcüzələrini kəşf etməyə dəvət edir. Alp-Himalay geoloji qurşağının bir hissəsi olan Şimal Anadolu dağlarında yerləşən milli parklar, yaşıl mənzərələr içində unudulmaz yürüş marşrutları və ulduzlu səma altında sakit düşərgə gecələri təqdim edir.

Macərasevənlər üçün bölgədə müxtəlif imkanlar mövcuddur: Gümüşhanə yaxınlığındakı Karaca mağarasındakı milyon illik sarkıt və dikitləri kəşf etmək, Fırtına çayında rafting etmək, yaxud Rizedəki Ayder yaylasında zipline ilə adrenalini hiss etmək bu siyahıya daxildir.

"National Geographic"in vurğuladığı kimi, Qara dəniz dünyada eyni gündə həm dənizdə sörf etmək, həm də dağlarda xizəklə sürüşmək imkanı verən nadir yerlərdən biridir. Sakit sahil zolaqlarında istirahət etdikdən sonra, Ordu Çambaşı və Rize Ovit kimi dağ zirvələrində xizək və snoubordla həyəcan dolu anlar yaşamaq mümkündür.

Bölgə həmçinin orta əsr qalaları (məsələn, Rizedəki Zil qalası), memarlıq inciləri (Trabzondakı Sümela monastırı və Ayasofya) və ənənəvi yaşayış məskənləri ilə də diqqət çəkir. UNESCO-nun Dünya İrsi siyahısında yer alan Karabükdəki Safranbolu və Trabzondakı Orta Məhəllə bu zəngin tarixi irsin gözəl nümunələrindəndir.

Qara dəniz sahilləri yalnız təbiəti və mənzərələri ilə deyil, həm də yerli mədəniyyətini və ənənələrini əks etdirən zəngin mətbəxi ilə də fərqlənir. Sahil bölgəsində yerləşdiyinə görə, təzə balıq və dəniz məhsullarından hazırlanan yeməklər, xüsusilə də hamsili plov (hamsi ilə düyü yeməyi) bölgənin ən sevilən ləzzətlərindən biridir.

Bundan əlavə, qarğıdalı unu və pendirdən hazırlanan məşhur səhər yeməyi kuymak, Akçaabat köftəsi, Samsun pidesinin müxtəlif növləri, qaralahana dolması və Hamsiköy sütlacı bölgənin kulinariya xəzinəsini nümayiş etdirir. Bu ləzzətlər Qara dənizə gələn qonaqlara unudulmaz bir dad səyahəti yaşadır. Xüsusilə Rizenin Çeçeva kəndində keçirilən çay yığım turları bölgənin həm kənd həyatını, həm də çay mədəniyyətini yaxından tanımaq üçün nadir və unikal təcrübə hesab olunur.

Beləliklə, Qara dəniz sahilləri, zəngin təbiəti, mədəniyyəti, tarixi və kulinariya zənginlikləri ilə səyahətçiləri özünə cəlb etməyə davam edir və yaxın gələcəkdə turizm sahəsində daha çox diqqət çəkəcək.

Qara dəniz sahilləri təkcə Türkiyənin deyil, bütün bölgənin mədəni və təbii yaddaşıdır.

Burada dənizin gur səsi ilə dağların sükutu arasında insan özünü tapır. Dalğalar bir nağıl kimi sahilə çırpılır və hər dalğa sanki eyni sözləri pıçıldayır:

"Gəlin, bizi kəşf edin".

*Nurəngiz ADİLQIZI*
*XQ*

# HAVA

## Bakıda yağış, bəzi rayonlarda duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Günün birinci yarısında bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturunun gecə 10-14, gündüz 16-19 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 770 millimetr civə sütunundan 768 millimetr civə sütununa enəcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-12, gündüz 16-21, dağlarda gecə 0-4, gündüz 7-12 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Qarabağ Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimova əmisi

**KAMİL MƏNSİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə Akademiyasının kollektivi akademiyanın sabiq prorektoru

**İLHAM ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

"Bakı Şəhəri Herontoloji Mərkəzi" PHŞ-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası səhiyyə nazirinin müavini İlqar Qasımova anası

**VALİDƏ QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhərindən İlqar Abbasov iqtisadiyyat nazirinin müşaviri Məmməd Abbasbəyliyə əzizi

**GÜNƏŞTƏKİN ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini Dövlətxan Dövlətxanova atası

**FAMİL DÖVLƏTXANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3481
SİFARİŞ 2323
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00